Azərbaycan Respublikası Təhsil Nazirliyi
Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu

# AZƏRBAYCAN RESPUBLİKASININ ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN HƏYAT BİLGİSİ FƏNNİ ÜZRƏ TƏHSİL PROQRAMI (KURİKULUMU)

## (I-IX SİNİFLƏR)

Bakı – 2013

Həyat bilgisi fənni üzrə təhsil proqramı (kurikulumu) aşağıdakı tərkibdə yaradılmış işçi qrupu tərəfindən hazırlanmışdır.

Sədr: Fərrux Rüstəmov - ADPU-nun fakültə dekanı, pedaqogika üzrə elmlər doktoru, professoru, Əməkdar elm xadimi, Üzvlər: Sevil Bəhrəmova - Layihənin koordinatoru, ARTPİ-nin böyük elmi işçisi, Nazim Əkbərov - Azərbaycan Beynəlxalq Təhsil Mərkəzinin baş pedaqoji müşaviri, Əliağa İsmayılzadə - ADİU-nun müəllimi, iqtisadiyyat üzrə fəlsəfə doktoru, Sahib Məsimov - "Kurikulum" jurnalının baş redaktor müavini, Pərvinə Qədimova - ARTPİ-nin elmi işçisi, Kəmalə Haqverdiyeva - ARTPİ-nin böyük elmi işçisi, İsrafil İsmayılov - Bakı Dövlət Universitetinin baş müəllimi, Fikrət Əhmədov - "Pedaqogika" nəşriyyatının baş redaktoru, Gülağa Babayev - Avropa Şurasının İrimiqyaslı Qəzalar üzrə Bakıdakı tədris-informasiya mərkəzinin direktoru, Ofeliya Musayeva - Bakı şəhəri 279 №-li tam orta məktəbin tarix müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, İntiqam Cəbrayılov- ARTPİ-nin şöbə müdiri, pedaqoji elmlər doktoru, Təranə İsmayılova - ARTPİ-nin böyük elmi işçisi, Könül Mahmudova - ARTPİ-nin böyük elmi işçisi, Həqiqət Hacıyeva - ADPU-nun müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru, Nazim Zeynalov- Bakı şəhəri 88 №-li tam orta məktəbin ingilis dili müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Qələmşah Heybətov- Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəsi, Hafiz Cabbarov - Bakı şəhəri Heydər Əliyev adına liseyin tarix müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi, Asəf Həziyev - Bakı şəhəri Heydər Əliyev adına liseyin tarix müəllimi, Cəmalə Əsgərova - Bakı şəhəri 201 №-li tam orta məktəbin tarix müəllimi, Marina Musayeva - Anadolu liseyinin tarix müəllimi, Müşfiq Əlizadə - Atatürk liseyinin tarix müəllimi, Elməddin Quliyev - Zəngilan rayonu 10 №-li tam orta məktəbin tarix müəllimi, Leyla Mürsəlova - Bakı şəhəri 34 №-li tam orta məktəbin tarix müəllim, Adiləxanım Manafova - Bakı şəhəri 219 №-li tam orta məktəbin tarix müəllimi, dosent, Sahilə Əliyeva - Bakı şəhəri 44 №-li məktəbin biologiya müəllimi, Kəmalə Əsgərova - Bakı şəhəri 27 №-li tam orta məktəbin kimya müəllimi, Amənə Kərbəlayeva - Bakı şəhəri 201 №-li tam orta məktəbin tarix müəllimi, Röya Yaqubova - Bakı şəhəri 272 №-li tam orta məktəbin tarix

müəllimi, Ülvi Quliyev - Bakı şəhəri 171 №-li tam orta məktəbin tarix müəllimi, Gülşən Soltanov - Bakı şəhəri 190 №-li tam orta məktəbin tarix müəllimi, Sevinc Əliyeva - Bakı şəhəri 300 №-li tam orta məktəbin tarix müəllimi, Könül Pirverdiyeva - Bakı Modern Məktəbin ibtidai sinif müəllimi, Afət Allahverdiyeva - Bakı şəhəri 164 №-li məktəbin ibtidai sinif müəllimi, Laləzar Hüseynova - Bakı şəhəri 229 №-li məktəbin ibtidai sinif müəllimi, Hökumə Əliyeva - Bakı şəhəri Heydər Əliyev adına liseyin ibtidai sinif müəllimi, Əməkdar müəllim, Sevinc Əliyeva - Bakı şəhəri 286 №-li məktəbin ibtidai sinif müəllimi, Rafiq Məmmədov - Bakı şəhəri 135 №-li məktəbin coğrafiya müəllimi.

**Təhsil proqramının (kurikulumun) internet üçün hazırlanmasına məsul olanlar:**

**Bibixanım İbadova,** ARTPİ-nin İbtidai təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent

**Akif Əliyev,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqoji elmlər üzrə fəlsəfə doktoru

**Ramiz Hüseynov,** ARTPİ-nin Ümumi orta və tam orta təhsilin kurikulumu şöbəsinin Humanitar fənlərinin təlimi bölməsinin müdiri

**Sevil Bəhrəmova,** ARTPİ-nin Humanitar fənlərin təlimi bölməsinin elmi işçisi

**Pərvinə Qədimova,** ARTPİ-nin ibtidai təhsilin kurikulumu şöbəsinin elmi işçisi

## Mündəricat

**Giriş**

**I.Həyat bilgisi təliminin məzmunu**

1.1. Ümumi təlim nəticələri

1.2. Məzmun xətləri

1.3. Məzmun xətləri üzrə təlim nəticələri

1.4. Fəaliyyət xətləri

1.5. Məzmun standartları

I sinif

II sinif

III sinif

IV sinif

V sinif

VI sinif

VII sinif

VIII sinif

IX sinif

1.6. Fəndaxili və fənlərarası inteqrasiya

**II. Təlim strategiyaları**

2.1.Həyat bilgisi təliminin təşkilinə verilən əsas tələblər

2.2. Həyat bilgisi təliminin təşkilində istifadə olunan forma və üsullar barədə

2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırılmasına dair nümunələr

2.4. Həyat bilgisi fənninin məzmun standartlarının şərhi

**III. Şagird nailiyyətlərinin qiymətləndirilməsi**

**Tezaurus**

**Resurslar**

**İstifadə olunmuş ədəbiyyat**

# GİRİŞ

**Həyat bilgisi fənni üzrə təhsil proqramı (kurikulumu) və onun xarakterik cəhətləri.** Bu təhsil proqramı (kurikulum) Həyat bilgisi fənninin təlimi qarşısında qoyulan məqsədləri müəyyənləşdirən və həmin məqsədlərin həyata keçirilməsi istiqamətində bütün zəruri fəaliyyətləri əks etdirən konseptual sənəddir. Burada fənn üzrə ümumi təlim nəticələri, təlimin məzmunu (məzmun standartları), şaquli və üfüqi inteqrasiya, müəllim və şagird fəaliyyətlərinə aid texnologiyalar, şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələləri əhatə edilir. Sənəd ümumi təlim nəticələrinə nail olmaq istiqamətində bütün fəaliyyətlərin - dərslik və tədris vəsaitlərinin hazırlanması, tədris materiallarının planlaşdırılması, təlimin forma və üsullarının müəyyənləşdirilməsi üçün əsas təşkil edir. Təhsil proqramı (kurikulum) hazırlanarkən təhsil alanın, ailənin, cəmiyyətin və dövlətin ehtiyac, tələb və maraqları əsas götürülmüşdür. Təhsil proqramında (kurikulumda) fənnin məzmunu nəticəyönümlü yanaşma əsasında müəyyən olunmuşdur. Burada əsas diqqət nəticəyönümlülüyə - təkcə biliklərin qazanılmasına deyil, daha çox biliklər əsasında bacarıq və vərdişlərə yiyələnməyə yönəldilmişdir. Buna nail olunması isə bacarıqlar həyat bilgisi kurikulumunda fənnin məzmunu nəticəyönümlü yanaşma əsasında müəyyən olunmuşdur. Burada əsas diqqət nəticəyönümlülüyə - təkcə biliklərin qazanılmasında müəyyən olunan standartlar və bunların yerinə yetirilməsini təmin edən alt-standartlar sistemi vasitəsilə ifadə olunur. Məzmunun belə müəyyənləşdirilməsi şagird fəaliyyətinin ardıcıl olaraq izlənilməsinə, onların nailiyyətlərinin müntəzəm qiymətləndirilməsinə imkan yaradır. Təlim prosesi ilə gözlənilən nəticə arasında əks-əlaqə mexanizminin qurulması təmin olunur.

Təhsil proqramı (kurikulum) dərslik və dərs vəsaiti hazırlayanlar, müəllimlər, metodistlər və valideynlər üçün nəzərdə tutulmuşdur. Sənəddən digər təhsil mütəxəssisləri, elmi işçilər, pedaqoji universitetlərin tələbələri və cəmiyyətin

müxtəlif maraqlı tərəflərini təmsil edən ictimaiyyət nümayəndələri də faydalana bilər.

**Fənnin əhəmiyyəti, məqsəd və vəzifələri.** Dünya ölkələrinin təhsil təcrübəsi göstərir ki, adi ünsiyyət yaratmaqdan tutmuş, kiçik iqtisadi layihələr qurub reallaşdırmağa qədər ən müxtəlif qabiliyyətləri özündə əks etdirən həyati bacarıqlar mükəmməl bir sistemin tərkib hissələri olmalıdır. Belə sistemləri isə şagirdi sinifdə təlimin obyekti kimi yox, subyekti kimi qəbul edən şagirdyönümlü təlim metodları və inteqrativ fənlərin köməyi ilə yaratmaq mümkündür. Ona görə də yerli və beynəlxalq təcrübələr nəzərə alınmaqla, "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nda bu vəzifələrin yerinə yetirilməsində mühüm rol oynayacaq yeni fənn – Həyat bilgisi fənni daxil edilmişdir.

Həyat bilgisi fənni fərdin özünü bioloji, psixoloji, sosial və mənəvi tərəfləri ilə bütöv bir varlıq kimi dərk etməsi və reallaşdırması üçün lazım olan bilik, bacarıq və dəyərlər formalaşdırmağa və təkmilləşdirməyə kömək edən inteqrativ fəndir.

Həyat bilgisi konkret bir elmin əsaslarını öyrətmir. Bu fənn ümumtəhsil məktəblərində tədris olunan təbiət və sosial fənn sahələrinə aid müəyyən elementləri əhatə edir.

Bu cür geniş əhatə dairəsinə malik olan fənn şagirdlərin həyati əhəmiyyət kəsb edən bilik, bacarıq və vərdişlər qazanması üçün onları ən zəruri praktik işlərin həyata keçirilməsinə istiqamətləndirir, milli və bəşəri dəyərlərə yiyələnmələrinə, şəxsiyyət kimi formalaşmalarına kömək edir. Həyat bilgisi fənninin şagirdlərdə ünsiyyət qurma və birlikdə çalışma kimi bacarıqların formalaşdırılmasında, onlarda mühakimə yürütmək, öz nöqteyi-nəzərlərini sərbəst ifadə etmək, öz hüquqlarını qorumaq və başqalarının hüquqlarını müdafiə etmək vərdişlərinin yaranmasında mühüm rolu vardır.

Müəyyən olunmuş məzmun xətlərinin köməyi ilə şagirdlərin şüurunda əhatə olunduqları canlı və cansız aləmin vahid, bütöv və bölünməz obrazı yaradılır. Onlar özlərini bu aləmin bir hissəsi kimi dərk edir, təbiətdə və cəmiyyətdə müşahidə etdikləri hadisələri, dəyişiklikləri və bunlar arasındakı əlaqələri,

araşdırmaq, təhlil etmək, nəticələr çıxarmaq, proqnoz vermək, fikir və istəklərini düzgün ifadə etmək bacarıqlarına yiyələnirlər.

İstehsal, istehlak, vergi, sığorta, ailə və dövlət büdcəsi haqqında bilgilərin sistemli şəkildə mənimsənilməsi nəticəsində şagirdlərin iqtisadi təfəkkürü formalaşır. Onlar resurslara qənaətlə yanaşmaq, kiçik iqtisadi layihələr qurub reallaşdırmaq, şəxsi və ailə büdcələrini idarə etmək bacarıqlarına yiyələnirlər.

Mənəviyyat, sağlamlıq *(fiziki, psixi və reproduktiv),* həyat fəaliyyətinin təhlükəsizliyi, fövqəladə hallar və təbii fəlakətlər zamanı düzgün davranış qaydaları, vətəndaşlıq, insan hüquqları və azadlıqları, ekoloji tərbiyə məsələləri üzrə bilik və bacarıqlar şagirdlərdə sistemli şəkildə formalaşdırılır.

Həyat bilgisi fənninin vasitəsi ilə şagirdlər kamillik-saflıq, düzlük, əqidəlilik, ədalətlilik, dözümlülük, tolerantlıq, izzəti-nəfs, özünə və başqalarına hörmət kimi yüksək mənəvi dəyərlər qazanırlar.

**Ümumi orta təhsil səviyyəsində** ibtidai təhsil səviyyəsi üzrə müəyyən olunmuş bacarıqlar daha da təkmilləşdirilməklə şagirdlərdə təbiət və cəmiyyət hadisələri timsalında qanunauyğunluqların mahiyyəti haqqında ətraflı təsəvvür formalaşdırılır, reproduktiv sağlamlıq, insan hüquqları, mənəvi kamillik, əxlaqi yetkinlik, vicdan azadlığı, sağlam həyat tərzi, təbii fəlakət və qəzalardan qorunmaq yolları barədə məlumatlar dərinləşdirilir, onlarda saflıq, düzlük, əqidəlilik, dözümlülük, tolerantlıq kimi əxlaqi keyfiyyətlərin, iqtisadi təfəkkür və planlı fəaliyyət bacarıqlarının yaradılması təmin olunur.

Bu məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- təbiətdə obyekt və hadisələr, canlı və cansız aləmin qarşılıqlı əlaqəsi, təbii mühitin insan fəaliyyəti nəticəsində dəyişməsi haqqında biliklər qazanmaq;
- müşahidələr, ölçmələr və təcrübələr aparmaq, onların nəticələrini təsvir etmək bacarıqları əldə etmək, özünü və təbiəti öyrənməyə həvəs yaratmaq;
- təbiətə sevgi və qayğı hissləri, onunla təmas zamanı ekoloji normalara uyğun davranmaq mədəniyyəti formalaşdırmaq;

- yaşadığı cəmiyyətə uyğunlaşmaq üçün insanın sosial keyfiyyətləri, cəmiyyət həyatının ictimai, iqtisadi, siyasi sahələri, eləcə də ictimai münasibətlərin hüquqi tənzimlənməsi barədə zəruri bilik və bacarıqlar əldə etmək;
- vətəndaş məsuliyyəti, qanunlara, ictimai normalara və demokratik dəyərlərə hörmətlə yanaşmaq, onlara uyğun davranmaq mədəniyyəti qazanmaq;
- özünü vətəndaş, ailə üzvü, işçi, sahibkar, istehlakçı kimi sosial rollarda reallaşdıra bilməsinə zəmin yaratmaq;
- milli və bəşəri dəyərlərə yiyələnməklə özünü mənəvi baxımdan inkişaf etdirmək, milli, irqi, dini, cinsi mənsubiyyətindən asılı olmayaraq ünsiyyət bacarıqlarına yiyələnmək;
- sağlam həyat tərzi, təhlükəsizlik və ilk tibbi yardım qaydalarına riayət etmək bacarıqları qazanmaq;
- qazandığı bilik, bacarıq və mənəvi dəyərlərə əsaslanaraq həyatda qarşılaşdığı problemləri həll edə bilmək keyfiyyəti qazanmaq.

# I. Həyat bilgisi təliminin məzmunu

## 1.1.Ümumi təlim nəticələri

Milli Kurrikulum çərçivəsində "Həyat bilgisi" fənni üzrə ibtidai və ümumi orta təhsil səviyyəsi üçün aşağıdakı ümumi təlim nəticələri müəyyən edilmişdir:

**İbtidai təhsil səviyyəsi (I-IV siniflər) üzrə şagird:**

- öz hüquqlarını dərk etməsini, başqalarının hüquq və azadlıqlarına hörmətlə yanaşmasını, onu əhatə edən insanlara həssas münasibət bəsləməsini nümayiş etdirir, həmin məsələlərlə bağlı şəxsi fikirlərini bildirir;
- insan həyatı və sağlamlığının qorunması ilə bağlı ən zəruri təhlükəsizlik qaydalarını izah edir;
- düzlük, ədalətlilik, humanistlik, rəhmdillik nümayiş etdirir, bu mənəvi keyfiyyətlərin mahiyyəti barədə mülahizələrini şərh edir;

- iqtisadi biliklərdən məişətdə istifadə edir;
- təbiətə, ekologiyaya həssas və qayğıkeş yanaşmaqla təbiət hadisələri üzərində müşahidələr aparır və onlara münasibət bildirir;
- cəmiyyətdə baş verən hadisələri öz yaş səviyyəsinə uyğun şərh edir.

"Ümumi təhsil səviyyəsi dövlət standartı və proqramları (kurikulumları)nda Həyat bilgisi fənni üzrə ibtidai və umumi orta təhsil səviyyəsi üçün aşağıdakı ümumi təlim nəticələri müəyyən edilmişdir:

**Ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə şagird:**

- müvafiq hüquqi-normativ sənədlərdə təsbit olunmuş insan hüquq və azadlıqlarına dair müddəaların mahiyyətini konkret tarixi hadisələrin, faktların, ədəbi əsərlərin nümunəsində şərh edir, özünün və başqalarının hüquqlarına hörmətlə yanaşdığını nümayiş etdirir;
- zərərli vərdişlərin insan həyatı üçün təhlükəli olduğunu və ağır nəticələr verdiyini konkret nümunələr əsasında şərh edir, sağlam həyat tərzi keçirdiyini gündəlik fəaliyyətində nümayiş etdirir;
- həyat fəaliyyətinin təhlükəsizliyi qaydalarına yiyələndiyini yazılı və şifahi təqdimatlarında, təlim-məşq tədbirlərində nümayiş etdirir;
- mənəvi-əxlaqi mövzulara həsr olunmuş müzakirələrdə, diskussiyalarda və digər tədbirlərdə müvafiq problemlə bağlı rəy və mülahizələrini bildirir, hadisə və faktları mahiyyətinə görə qiymətləndirməklə şəxsi mövqeyini və münasibətini büruzə verir;
- gündəlik həyatda iqtisadi səmərəliliyə dair kiçik layihələr qurur, onları təqdim və tətbiq edir.
- təbiət və cəmiyyət hadisələri ilə bağlı qanunauyğunluqların mahiyyətini izah edir, həmin məsələlərlə əlaqədar bu fənn daxilində əldə etdiyi məlumatları digər fənlərdəki eyni məzmunlu məlumatlarla müqayisə edir, onları sistemləşdirir və ümumiləşdirmələr aparır.

### 1.2. Məzmun xətləri

“Həyat bilgisi” fənninin məzmunu onun məzmun xətlərinin əsasında qurulur.

Məzmun xətləri – fənn üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün müəyyən edilən məzmunun zəruri hesab edilən hissələridir.

“Həyat bilgisi” fənninin, ibtidai və əsas təhsil səviyyəsi üzrə ümumi təlim nəticələrinə əsaslanaraq, onların əldə olunmasını təmin edən və hər iki təhsil pilləsi üçün ümumi olan aşağıdakı məzmun xətləri müəyyən edilmişdir:

1. **Təbiət və biz**
2. **Fərd və cəmiyyət**
3. **Mənəviyyat**
4. **Sağlamlıq və təhlükəsizlik**

**Təbiət və biz**

İnsan həyatı boyu daim təbiətlə təmasda olur, onda baş verən hadisə və proseslər üzərində müşahidələr aparır, onların təsirini öz üzərində hiss edir, öz fəaliyyəti ilə təbiətə təsir göstərir. Bu mühitdə insan-təbiət münasibətləri formalaşır, insan özünü təbiətin bir hissəsi kimi dərk edir, ona qayğı və sevgi ilə yanaşmalı olduğunu anlayır. Təbiət hadisələri haqqında biliklər əldə etdikcə, ilkin tədqiqatçılıq bacarıqlarına yiyələndikcə, qazandığı bilik və bacarıqlardan praktiki məsələlərin həllində istifadə etdikcə şagird şəxsiyyəti inkişaf edir. Özündə fizika, astronomiya, kimya, biologiya, fiziki coğrafiya və ekologiyanın elementlərini ehtiva edən “Təbiət və biz” məzmun xətti bu prosesdə əhəmiyyətli rol oynayır.

Şagirdlər bu məzmun xətti üzrə canlı və cansız təbiət, cisim, maddə və hadisələrin müxtəlifliyi, bitkilər və heyvanlar aləmi, doğma diyarın təbiəti, Yerin təbəqələri və onlarda gedən proseslər, insan fəaliyyətinin ətraf mühitə təsiri və ekologiya haqqında bilgilər əldə edirlər. Onlar təbiəti sevmək, ona qayğı ilə yanaşmaq, təbiətlə təmas və ondan istifadə mədəniyyətinə, ev heyvanlarına qulluq, dekorativ və mədəni bitkilərin becərilməsi və s. kimi bacarıqlara yiyələnir, müşahidələr, ölçmələr, təcrübələr aparmaq, nəticələr çıxarmaq, onları yazılı və şifahi şəkildə təsvir etmək bacarıqları qazanır, təbiət hadisələrinin izah olunmasında elmin rol və əhəmiyyətini başa düşürlər.

Bu məzmun xətti aşağıdakı alt-xətləri əhatə edir:

- **Cisim, maddə və hadisələrin müxtəlifliyi**
- **Yerin təbəqələri və onlarda gedən proseslər**
- **Canlılar aləmi**
- **Ekologiya**

**Cisim, maddə və hadisələrin müxtəlifliyi** alt-xətti fizika, kimya və astronomiyanın elementlərindən inteqrasiya olunmaqla, bu fənlərin sistemli tədrisinə zəmin hazırlayır. Şagirdlər onun köməyi ilə müxtəlif cisim, maddə və hadisələri bir-birindən fərqləndirməyi, maddələrin fiziki və kimyəvi xassələrini, onların daxili quruluşunu, müşahidə etdikləri hadisələri - gecə və gündüzün bir-birini əvəzləməsi, fəsillərin əmələ gəlməsi, günəş və ay tutulmaları, müxtəlif mexaniki, istilik, elektromaqnit və işıq hadisələrini hərəkət, qarşılıqlı təsir və enerji çevrilmələri ilə əlaqələndirməyi öyrənirlər.

**Yerin təbəqələri və onlarda gedən proseslər** alt-xəttində şagirdlər müxtəlif üsullardan istifadə etməklə üfüqün cəhətlərini və lazım olan səmti təyin etməyi, qlobusdan, xəritədən, məhəlli planından istifadə etməyi, doğma diyarın təbii xüsusiyyətlərini təsvir etməyi, böyük coğrafi obyektləri (materiklər, okeanlar, dənizlər, göllər, çaylar, dağlar, düzənliklər) və əsas təbii zonaları fiziki xəritədə göstərməyi, atmosfer və iqlim hadisələrini, Yerin daxili quruluşunu, relyef əmələgəlmə və torpaqda gedən prosesləri izah etməyi öyrənirlər. Məzmunun bu bölməsi coğrafiya fənninin tədrisi üçün zəmin yaradır.

**Canlılar aləmi** alt-xətti üzrə bitkilər və heyvanlar aləminin, göbələklər və mikroorqanizmlərin müxtəlifliyi, əsas xüsusiyyətləri, canlıların bir-biri ilə qarşılıqlı əlaqəsi və onların həyatında irsiyyət və mühitin rolu, insan orqanizminin quruluşu, onun əsas orqanları və orqanlar sisteminin funksiyaları, insan sağlamlığının qorunub saxlanması və möhkəmləndirilməsi barədə bilik və bacarıqların mənimsənilməsi təmin olunur. Bu bölmə həm də biologiya fənninin öyrənilməsinə zəmin hazırlanır.

**Ekologiya** alt-xəttinin köməyi ilə şagirdlər ekologiyanı canlı varlıqlarla onları əhatə edən mühit, insanla təbiət arasında əlaqələr haqqında elm kimi

xarakterizə etməyi, insan fəaliyyətinin təbiətə təsirlərini qiymətləndirməyi, müxtəlif səviyyəli ekosistemlərdə və bütövlükdə planetimizdə ekoloji tarazlığın qorunmasının vacibliyini, yerli və qlobal ekoloji problemlərin həlli yollarını izah etməyi öyrənirlər. Onlarda təbiətə sevgi və qayğı ilə yanaşmaq, təbiətlə təmasdan həzz almaq kimi keyfiyyətlər formalaşır.

Bu alt xətlər üzrə bilik və bacarıqlar bir-birilə əlaqəli şəkildə mənimsənilir və bütövlükdə şagirddə təbii-elmi dünyagörüşünün, təbiətə qarşı müsbət emosional-dəyər münasibətlərinin, gündəlik həyatda lazım olan funksional bilik və bacarıqlar sisteminin formalaşmasına xidmət edir.

**Fərd və cəmiyyət**

İnsan həyatı sanki iki qütblü mühitdə keçir: bir tərəfdə onun şəxsi ehtiyac, hiss, duyğu və maraqları, digər tərəfdə isə üzvü olduğu cəmiyyətin maraqları, onun iqtisadi, sosial və siyasi həyatı. Bu qütblər daima bir-birinə təsir göstərir, insanın və cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirir. Həmin münasibətlər daxilində insanlar, bir tərəfdən, yaşadıqları mühitə - cəmiyyətə təsir göstərir, onu dəyişdirir, digər tərəfdən də özləri dəyişir və cəmiyyətləri ilə birlikdə inkişaf edirlər.

İnsanın özünü bir sosial varlıq olaraq reallaşdırması, bir tərəfdən, onun şəxsi keyfiyyətləri, əldə etdiyi bilik, bacarıq və dəyərlərlə bağlıdırsa, digər tərəfdən də yaşadığı və fəaliyyət göstərdiyi mühitdən - ailə, kollektiv və cəmiyyətdən asılıdır. İnsan-cəmiyyət münasibətləri isə zaman keçdikcə daha da genişlənir və mürəkkəbləşir. Ona görə də şagirdlərin gələcək cəmiyyətə hərtərəfli hazırlanması prosesində onlara insan-cəmiyyət münasibətlərinin düzgün aşılanması mühüm əhəmiyyət kəsb edir.

“Fərd və cəmiyyət” məzmun xəttinin müəyyənləşdirilməsində də başlıca məqsəd məhz şagirdlərin özlərini sosial varlıq kimi dərk etmələrinə, cəmiyyətə adaptasiya üçün lazım olacaq zəruri bilik, bacarıq və dəyərlərə yiyələnmələrinə kömək göstərməkdən ibarətdir. Şagirdlər bu xəttin köməyi ilə insan-insan, insan-ailə, insan-cəmiyyət və insan-dövlət münasibətlərini, cəmiyyətdə gedən iqtisadi,

sosial, siyasi və hüquqi prosesləri öyrənir və onlardan düzgün faydalanma bacarıqlarına yiyələnirlər.

Bu məzmun xətti  üzrə bilik və bacarıqlar şagirdin ailəsini, xalqını və Vətənini sevən, onların inkişafı və rifahı üçün nə edə biləcəyini müəyyənləşdirən demokratik düşüncəli şəxsiyyət kimi formalaşmasına yardım edir.

Məzmun xətti aşağıdakı alt-xətləri əhatə edir:

- **Fərd, ailə, cəmiyyət və dövlət**
- **Cəmiyyətin sosial-iqtisadi həyatı**
- **İnsan hüquqları və vətəndaşlıq**

**Fərd, ailə, cəmiyyət və dövlət** alt-xətti üzrə məzmunun vasitəsilə şagirdlər insanı digər canlılardan fərqləndirməyin, onu sosial varlıq kimi səciyyələndirməyin, öz tarixi köklərini təsvir etməyin, yaşadığı mühiti bilik, bacarıq və zəhmət əsasında dəyişdirməyin mümkünlüyünü dərk edir, qruplarda birgə işləmək və problemləri birlikdə həll etmək vərdişlərinə yiyələnirlər.

Şagirdlər insan-cəmiyyət-dövlət münasibətləri, mədəniyyətlərin fərqliliyi və ümumi cəhətləri, dövlətin cəmiyyət həyatında oynadığı rol, onun funksiyaları və hakimiyyət quruluşu haqqında bilgilər alır, dünyada gedən inteqrasiya proseslərini təhlil etməyi öyrənir və demokratik dəyərləri (tolerantlıq, plüralizm, həssaslıq) mənimsəməklə özlərinin bu prosesdə iştirak formalarını müəyyənləşdirirlər.

**Cəmiyyətin sosial-iqtisadi həyatı** alt-xətti üzrə şagirdlər resursların məhdudluğunu, onlardan qənaət və qayğı ilə istifadə olunmasının zəruriliyini, iqtisadi vasitələr (pul, qiymət, əmtəə, ticarət, vergi, sığorta) fərqləndirməyi öyrənir, şəxsi və ailə büdcələrini idarə etmək bacarıqları qazanırlar.

Şagirdlərə bazar iqtisadiyyatı şəraitində tələb və təklifin, istehlak və istehsalın, mənfəət və gəlirin, kreditin mahiyyəti və rolu aşılanır, onlarda sadə iqtisadi layihələri qurub reallaşdırmaq bacarıqları formalaşdırılır.

Şagirdlər mühüm sosial-iqtisadi prosesləri fərqləndirmək, bunların cəmiyyətin inkişafına qısa və uzun müddətli təsirini təhlil etmək, səbəb və nəticələrini müəyyənləşdirmək vərdişləri qazanırlar.

**İnsan hüquqları və vətəndaşlıq** alt-xətti üzrə şagirdlər əsas insan hüquq və azadlıqlarını, Azərbaycan Respublikasının Konstitusiyasında və Beynəlxalq Uşaq Hüquqları Konvensiyasında təsbit olunmuş hüquq və vəzifələri öyrənir, özlərinin və başqalarının hüquqlarını müdafiə etmək və bunu başqalarından da tələb etmək bacarıqları qazanırlar.

**Mənəviyyat**

Bu məzmun xəttinin fənnə daxil edilməsində başlıca məqsəd məktəbin qarşısında duran ən mühüm vəzifələrdən birinin–milli və bəşəri dəyərlərə əsaslanan tərbiyənin daha dolğun, daha sistemli və nəticəyönümlü şəkildə mənimsədilməsidir.

Ona görə də burada əsas diqqət şagirdlərin özlərini mənəvi tərəfdən kəşf etmələrinə, sahib olduqları keyfiyyətləri və dəyərləri tanımalarına, onlarda xalqımızın və bəşəriyyətin inkişaf prosesində əldə etdiyi yüksək əxlaqi dəyərlərə əsaslanan yeni davranış və ünsiyyət bacarıqlarının formalaşdırılmasına yönəldilir. Bunun nəticəsində şagirdlər öz mənəvi haqq və vəzifələrini dərk edir, onları reallaşdırmağın yollarını mənimsəyir, tolerant, sərbəst düşünən, mənsub olduqları ailəyə, xalqa və dövlətə faydalı şəxsiyyətlər kimi yetişirlər.

Bütün bunları reallaşdırımaq üçün aşağıdakı istiqamətlərdə bacarıq və dəyərlərin formalaşdırılması nəzərdə tutulur:

- İnsanı digər varlıqlardan fərqləndirən əxlaqi keyfiyyətləri, hiss və duyğuları tanıtmaq, onları idarə etmək;
- İnsanlararası münasibətlərdə zəruri olan ədəb və davranış qaydalarını mənimsəmək;
- Dini dəyərləri düzgün dərk etmək və mənəvi keyfiyyətlərin formalaşmasında onlardan faydalanmaq, dinlə xurafat arasında fərqi ayırd etmək.

Bu məzmun xətti aşağıdakı alt-xətləri əhatə edir:

- **Ailə, məişət və cəmiyyətdə ədəb və davranış qaydaları**
- **Din. Əxlaqın formalaşmasında dinin rolu**

**Ailə, məişət və cəmiyyətdə ədəb və davranış qaydaları** alt-xətti vasitəsilə şagirlər öz varlıqlarının əsil mahiyyətini və qayəsini anlayır, mənəvi məsuliyyət və

vəzifələrini tanıyır, onları yerinə yetirmək üçün lazım olan bacarıq və dəyərlərə yiyələnirlər. Onlar müşahidə və müqayisələr aparmaqla insanın təbiətdə ən üstün keyfiyyətlərə sahib varlıq olduğunu dərk edir, bütün varlıqların özünəməxsus vəzifələri yerinə yetirdiklərini qavramaqla ən məsul vəzifələrin insana aid olduğu qənaətinə gəlirlər.

Şagirdlər həm də mənəvi potensiallarından səmərəli istifadə etmək, hiss və duyğularını düzgün idarə eləmək, milli və bəşəri mənəvi dəyərləri mənimsəməklə ailədə, məktəbdə və cəmiyyətdə lazım olan üstün ədəb, davranış və ünsiyyət bacarıqlarına yiyələnirlər.

**Din. Əxlaqın formalaşmasında dinin rolu** alt-xətti üzrə şagirdlər İslam və digər dünya dinlərinə aid dəyərləri, onların ortaq və fərqli cəhətlərini, dinlərin əxlaqa təsirini öyrənir, insanın mənəvi gücünün mənbələrini aşkar edir, onlardan düzgün istifadə etmək vərdişlərinə yiyələnirlər. Onlar dinlə xurafat arasındakı fərqləri ayırd edir, dindən müxtəlif məqsədlər üçün istifadə oluna biləcəyini və belə təmayüllərdən uzaq durmağı öyrənirlər.

**Sağlamlıq və təhlükəsizlik**

XX əsrdə başlamış və getdikcə sürətlənməkdə olan elmi-texniki inkişaf insanlar üçün rifah və rahatlıq gətirməklə yanaşı, həm də təhlükə mənbəyinə çevrilməkdədir. Artıq texnogen xarakterli qəzalar ekoloji tarazlığı yalnız regional deyil, həm də qlobal miqyasda pozmaqdadır. Bu isə yoluxucu xəstəliklərin artması və təbii fəlakətlərin intensivləşməsi ilə müşayiət olunur. Ona görə də şagirdlərin hələ ibtidai məktəb səviyyəsindən başlayaraq öz sağlamlıqları və təhlükəsizlikləri ilə bağlı bilik və bacarıqlara sistemli şəkildə yiyələnməsi zəruri həyati tələbat kimi meydana çıxır.

Bu məzmun xətti sağlamlığı təmin edən və ona təhlükə törədən amillər barədə biliklərin əldə olunmasını, bacarıqların formalaşdırılmasını təmin etməyə xidmət edir. Bununla da sağlamlıq xəstəliklərin və fiziki qüsurların olmaması kimi yox, həm də fiziki, mənəvi və sosial rifahın əsası kimi dərk olunmalıdır.

Hər bir şagird fövqəladə və təhlükəli hadisələr zamanı düzgün davranmağı, özünü və yaxınlarını mühafizə etməyi bacarmalıdır. Ona görə də bu məzmun

xəttində diqqət yetirilən əsas məsələlərdən biri də şagirdlərin öz həyat və fəaliyyətində təhlükəsizlik məsələlərinin rolunu dərk etmələri, bu problemlə üzləşdikdə onu şəxsi və cəmiyyət mənafeyinə uyğun şəkildə həll etməyi bacarmalıdırlar.

Bu məzmun xətti aşağıdakı alt-xətləri əhatə edir:

- **Sağlam həyat tərzi**
- **Həyat fəaliyyətinin təhlükəsizliyi**
- **Fövqəladə hallarda mühafizə**

**Sağlam həyat tərzi** alt-xətti üzrə bilik və bacarıqlara yiyələnməklə şagirdlər sanitar, gigiyenik qaydalara əməl edən, hər cür zərərli vərdişlərdən (siqaret çəkmək, alkoqol və narkotik maddələrdən istifadə) uzaqlaşmağı, lazım gəldikdə özünə və yoldaşlarına yardım etməyi bacaran fərdlər kimi formalaşırlar. Onlar reproduktiv sağlamlığın qorunması yollarını mənimsəyir, həm öz sağlamlıqları, həm də gələcək nəslin sağlamlığı üçün məsuliyyəti öz üzərlərinə götürmə bacarıqlarına yiyələnirlər.

Şagirdlər müxtəlif parazitar infeksion və digər yoluxucu xəstəliklərdən qorunma vərdişləri qazanır, insanda immunodefisit virusu (İİV) vasitəsilə törənən QİÇS (qazanılmış immun çatışmazlığı sindromu) xəstəliyi barədə bilgilər alır, ondan qorunma yollarını öyrənirlər.

**Həyat fəaliyyətinin təhlükəsizliyi** alt-xətti vasitəsilə şagirdlər evdə, küçədə, məktəbdə, ictimai yerlərdə, çöldə təhlükəsiz davranış qaydaları barədə bilgilər qazanır, təhlükələrdən və xoşagəlməz hallardan qorunma bacarığına yiyələnirlər.

Onlar bütün növ minaların və partlamamış hərbi sursatların insan həyatı üçün təhlükəsini və bu təhlükə ilə üzləşdikdə nə etmək lazım olduğunu öyrənirlər.

**Fövqəladə hallarda mühafizə** alt-xətti vasitəsilə şagirdlər regionda (rayonda) ən cox ehtimal olunan, yaxud baş verən təbii fəlakətlərin, güclü istehsalat qəzalarının səciyyəvi xüsusiyyətləri, habelə yaxınlıqdakı müəssisələrdə işlədilən təhlükəli kimyəvi maddələrin növləri və zədələyici xassələri barədə biliklərə yiyələnir, belə qəzalar və fəlakətlər zamanı özünü qoruma, mühafizə

vasitələrindən istifadəetmə və təhlükəli yerlərdən köçürülərkən müəyyən olunmuş qaydalara uygun davranmaq bacarıqları qazanırlar.

Fövqəladə şəraitdə, məsələn, zəhərlənmə, yanıq, donvurma, əzilmə, sınıq, qanaxma, elektrik zədələnmələri və s. hallarda ilk tibbi yardım və qarşılıqlı yardım bacarıqlarına yiyələnirlər.

## 1.3. Məzmun xətləri üzrə təlim nəticələri

***İbtidai təhsil səviyyəsi (I-IV) üzrə məzmun xətlərinə aid təlim nəticələri***

**Təbiət və biz**

Şagird:

Özünü təbiətin bir parçası kimi görə bilir.

- Təbiətı öyrənmənin əhəmiyyətini anlayır.
- Bilmədiklərini, yarımçıq bildiklərını və bildiklərini ayırd edir.
- Təbiətlə təmasda qazandığı bilik və bacarıqlardan faydalana bilir.
- İnsan bədəninin quruluşunu və əsas orqanlarının fəaliyyətini sadə şəkildə izah edir.
- Yaşadığı ərazinin ekoloji vəziyyətini yaxşılaşdırmaq məqsədilə sadə layihələr hazırlayıb təqdim edir.
- Yaşadığı ərazinin və Azərbaycan təbiətinin sadə coğrafi təsvirini verir.

**Fərd və cəmiyyət**

Şagird:

- İnsanı sosial varllıq kimi xarakterizə edə bilir.
- İnsanların fərqli icmalarda formalaşdığını bilir və bu fərqliliklərə tolerant yanaşır.
- İstifadə etdiyi resurslara qənaətlə yanaşmanı ailə və dövlət büdcələrinə qənaətlə əlaqələndirə bilir.
- Birlikdə çalışmanın faydasın anlayır, müəyyən məsələlərin həllı üçün yoldaşları ilə qrup yarada bilir.

- Dövlət, onun atributları və quruluş formaları haqqında ilkin biliklərə sahib olduğunu nümayiş etdirir.
- Öz hüquqlarını bilir, onlardan istifadə edir, başqalarının hüquqlarına hörmətlə yanaşır.

**Mənəviyyat**

Şagird:

- İnsanlararası ünsiyyət etiketlərnə şüurlu şəkildə əməl edir, etiketə zidd davranışlara tənqidi münasibət bildirir.
- Qazandığı mənəvi keyfiyyətləri ailədə, məktəbdə və cəmiyyətdə öz hərəkət və davranışları ilə nümayiş etdirir.
- Dünyanın yaranması ilə bağlı əsas elmi və dini dünyagörüşləri bilir.
- Dinlərin təbliğ etdiyi mənəvi dəyərləri anlayır və onları xurafatlardan ayırd edə bilir.

**Sağlamlıq və təhlükəsizlik**

Şagird:

- Sağlamlığı və onun mühafizəsi ilə bağlı bəzi məsələlərdə məsuliyyəti öz üzərinə götürür.
- Sağlam həyat tərzinə zidd olan zərərli vərdişləri tanıyır.
- Yol nişanlarından istifadə etməklə küçədə sərbəst hərəkət edir.
- Həyat fəaliyyətinin təhlükəsizliyini təhdid edən amilləri tanıyır və öyrəndiyi təhlükəsizlik qaydalarına gündəlik həyatında əməl edir.
- Fövqəladə hallarda fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyi bacarır.

***Ümumi orta təhsil səviyyəsi (V-IX) üzrə məzmun xətlərinə aid təlim nəticələri***

**Təbiət və biz**

**Şagird:**

- Cisim, maddə və hadisələrin sadə təsnifatını verir, maddələrin xassələrini onların daxili quruluşu ilə, təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir;
- Atmosferdə, hidrosferdə və litosferdə gedən prosesləri sadə şəkildə izah edir, yerdə baş verən dəyişikliklərin əksəriyyətini hava, torpaq və su komponentlərinin qarşılıqlı təsiri ilə əlaqələndirir;
- Canlıların həyatında irsiyyət və mühitin rolunu əsaslandırır, insanı təbiətin bir hissəsi kimi səciyyələndirir, onun sağlamlığını keçirdiyi həyat tərzi ilə əlaqələndirir;
- İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir, ekoloji tarazlığın qorunmasının və təbiətə qayğı ilə yanaşmasının vacibliyini əsaslandırır, təbiətlə təmasda ekoloji normalara əməl edir.

**Fərd və cəmiyyət**

**Şagird:**

- İnsanı sosial varlıq kimi səciyyələndirir və onun sosial proseslərdə iştirakını dəyərləndirir;
- Müvafiq normativ hüquqi sənədlərdə təsbit olunmuş insan hüquq və azadlıqlarına dair müddəaların mahiyyətini konkret tarixi hadisələrin, faktların, ədəbi əsərlərin nümunəsində şərh edir;
- Gündəlik həyatda iqtisadi səmərəliliyə dair kiçik layihələr qurur və tətbiq edir;
- Vətəndaş cəmiyyətinin səciyyəvi cəhətlərini izah edir və onun formalaşmasında öz hüquq və vəzifələrinin nədən ibarət olduğunu müəyyən edir.

**Mənəviyyat**

**Şagird:**

- Ünsiyyət mədəniyyətini nümayiş etdirir;
- Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir və qiymətləndirir;
- Ailə, cəmiyyət və vətən qarşısında mənəvi borclarını dərk etdiyini nümayiş etdirir;

- Kamil insanın formalaşmasında dinin rolunu dəyərləndirir, onun insan əxlaq və davranışlarına təsiri haqqında mülahizələrini bildirir.

**Sağlamlıq  və təhlükəsizlik**

**Şagird:**

- Sağlam həyat tərzinin insan sağlamlığı üçün əhəmiyyətini qiymətləndirir, gündəlik həyatında onun qaydalarını mənimsədiyini nümayiş etdirir;
- Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına əməl etdiyini, hər cür təhlükədən və xoşagəlməz hallardan qoruna bildiyini nümayiş etdirir;
- Təbii və texnogen xarakterli fövqəladə hadisələr zamanı insan həyatı və sağlamlığı üçün yarana biləcək təhlükəni qiymətləndirir, tələb olunan davranış qaydalarına əməl edir, onların nəticələrinin aradan qaldırılmasında fərdi şəkildə və kollektivlə birgə iştirak edir, ilk tibbi yardımı göstərir.

### 1.4. Fəaliyyət xətləri

Kurikulumda fənnin məzmunu bacarıqlar şəklində ifadə olunmuş standartların köməyi ilə verilir.  Bacarıqlar isə şagirdin müxtəlif fəaliyyətləri nəticəsində əldə olunur və onların köməyi ilə nümayiş etdirilir. Buna görə standartlar müəyyənləşdirilərkən aşağıdakı fəaliyyət xətləri ilə əlaqəlilik nəzərə alınmışdır:

- Mühakiməyürütmə və əsaslandırma
- Əlaqələndirmə
- Tədqiqetmə
- Problemin həlli
- Təqdimetmə

Fəaliyyət xətləri məzmunun mənimsənilməsinin, ondan istifadə olunmasının, fənnin öz daxilindəki mövzularla və digər fənlərin mövzuları ilə əlaqə yaratmağın ən yaxşı yollarıdır. Fəaliyyət xətləri fənni bir-birilərindən təcrid

olunmuş bilik və bacarıqlar toplusu kimi yox, bütöv bir tam kimi başa düşməyə kömək göstərir.

### 1.5. Məzmun standartları

### I sinif

**I sinfin sonunda şagird:**

- müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir;
- sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir;
- canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir;
- ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir;
- insanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir;
- sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir;
- dövlət rəmzlərini tanıdığını nümayiş etdirir;
- hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir;
- ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir;
- insan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir;
- mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir;
- mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir;
- sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir;
- həyat və sağlamlıq üçün təhlükə törədən mənbələrə dair bilik və bacarıqlar nümayiş etdirir;
- fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Təbiət və biz**

Şagird:

***1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.***

1.1.1. Varlıqları, hadisələri sadə şəkildə təsvir edir.

1.1.2. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə fərqləndirir.

***1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

1.2.1. Coğrafi obyektləri (dağ, təpə, dərə, düzənlik, çay, göl) əlamətlərinə görə fərqləndirir.

1.2.2. Yaşadığı ərazinin sadə coğrafi təsvirini verir.

***1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

1.3.1. Canlılar aləminə aid olan varlıqları (bitki, heyvan, insan) tanıyır.

1.3.2. Canlıların yaşamasını şərtləndirən amilləri sadalayır.

1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.

1.4.1. Ətraf mühitin (evin, sinifin, həyətin, havanın, suyun) təmiz saxlanmasının vacibliyini sadə şəkildə şərh edir.

**2. Fərd və cəmiyyət**

Şagird:

***2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.***

2.1.1. “Fərd”, “ailə” və “kollektiv” anlayışları barədə təsəvvürlərini bildirir.

2.1.2. Birgə fəaliyyətin faydasını nümunələr əsasında izah edir.

2.1.3. Ailədə və kollektivdə üzərinə düşən vəzifələri sadalayır.

***2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.2.1. Gün rejimi haqqında təsəvvürlərini sadə şəkildə ifadə edir.

2.2.2. “Büdcə” anlayışını sadə şəkildə izah edir.

2.2.3. Azərbaycan Respublikasının pul nişanlarını tanıyır.

***2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.***

2.3.1. Azərbaycan Respublikasının Dövlət rəmzlərini sadə şəkildə izah edir.

***2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.4.1. Məktəbin daxili nizam-intizam qaydalarını sadalayır.

2.4.2. Şagird hüquqlarını sadalayır.

**3. Mənəviyyat**

Şagird:

***3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.***

3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (salamlaşmaq, özünütəqdim, müraciət, müraciətə cavab, xudahafizləşmək) əməl edir.

3.1.2. Etiketdənkənar davranışları fərqləndirir.

***3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.***

3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (düzlük, doğruçuluq, çalışqanlıq, səmimilik) sadə şəkildə şərh edir.

3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (yalançılıq, paxıllıq, xəbərçilik) münasibət bildirir.

***3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.***

3.3.1. Təsvirlərdə dini rəmzləri (ibadətgahlar, nişanlar, dini kitablar, əşyalar) fərqləndirir.

3.3.2. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.

***3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

3.4.1. Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

***4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

4.1.1. Sağlam həyat tərzinin şərtlərini (təmizkarlıq, düzgün qidalanma, yuxu və istirahət) sadalayır.

4.1.2. Hava durumuna uyğun geyim seçiminin əhəmiyyətini sadə formada əsaslandırır.

***4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbələrə dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.2.1. Həyat və sağlamlıq üçün təhlükə törədə bilən məişət alət və avadanlıqlarını (elektrik və qaz cihazları, alışdırıcı, kəsici və deşici alətlər) sadalayır.

4.2.2. Ətrafdakı şübhəli əşyalara toxunmağın və tanımadığı insanlarla ünsiyyətin təhlükəsini izah edir.

4.2.3. Sadə yol hərəkət qaydalarını (səki və yolun kənarı ilə hərəkət etmək, svetoforun işarələrinə əməl etmək) sadalayır.

4.2.4. Nəqliyyat vasitələrini (lift, eskalator, avtomobil, avtobus, qatar, gəmi, təyyarə) tanıyır.

***4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

4.3.1. Təbii fövqəladə hadisələri (daşqın, subasma, qasırğa, ildırım, zəlzələ, torpaq sürüşməsi, qar uçqunu) və texnogen qəzaları (partlayış, yanğın, böyük nəqliyyat qəzası, ətraf mühitin zəhərli maddələrlə çirklənməsi) təsvirlərdə tanıyır.

4.3.2. Mülki-müdafiə siqnallarını və qəzalardan mühafizə vasitələrini (əleyhqaz, respirator, yanğınsöndürmə balonu, su, qum) tanıyır.

4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə su, qum, respiratordan istifadə bacarıqları nümayiş etdirir.

## II sinif

**II sinfin sonunda şagird:**

- varlıq və hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır və müvafiq avadanlıqlardan sərbəst istifadə edir;
- coğrafi obyektlərin (dağ, təpə, dərə, düzənlik, çay, göl) yaranma səbəblərini izah edir;
- canlılar aləminə aid olan varlıqları spesifik xüsusiyyətlərinə görə fərqləndirir;

- ətraf mühiti çirkləndirən mənbələri şərh edir;
- “fərd”, “ailə” və” kollektiv” anlayışlarını, özünün ailədə və kollektivdəki vəzifələrini şərh edir;
- şəxsi büdcəsini tərtib edir və müvafiq hesablamalar aparır;
- dövlətin əlamətlərini tanıdığını nümayiş etdirir;
- məktəbdaxili nizam-intizam qaydalarını izah edir;
- özünün və yoldaşlarının hüquqlarını bilir;
- insanlararası ünsiyyət etiketlərinə dair bilik və bacarıqlarını nümayiş etdirir;
- şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətlərə münasibət bildirir;
- mənəviyyatın formalaşmasında dinin rolunu izah edir;
- müxtəlif dinlərin ümumi cəhətlərini şərh edir;
- insanlara qayğı göstərməyin mənəvi borc olması barədə fikirlərini şərh edir;
- mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir;
- sağlam həyat tərzi və yoluxucu xəstəliklər barədə fikirlərini şərh edir;
- məişətdə və ətraf mühitdə insan sağlamlığı üçün zəruri olan təhlükəsizlik qaydalarını izah edir;
- təbii və texnogen qəzalardan mühafizə vasitələrini bilir.

**Məzmun xətləri üzrə əsas və alt-standartlar**

**1. Təbiət və biz**

**Şagird:**

**1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.**

1.1.1. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır.

1.1.2. Varlıq və hadisələri öyrənmək üçün müvafiq avadanlıqlardan sərbəst istifadə edir.

1.1.3. Suyun təbiətdə dövranını sadə şəkildə təsvir edir.

**1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.**

1.2.1. Coğrafi obyektlərin (dağ, təpə, dərə, düzənlik, çay, göl) yaranma səbəblərini izah edir.

1.2.2. Üfüqün cəhətlərini təyin edir.

**1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.**

1.3.1. Canlılar aləminə aid olan varlıqları (bitki, heyvan, insan) təsvir edir.

1.3.2. Tanıdığı canlıları spesifik xüsusiyyətlərinə görə fərqləndirir.

**1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.**

1.4.1. Ətraf mühiti çirkləndirən mənbələri ayırd edir.

1.4.2. Təqdim olunmuş materiallarda ətraf mühitə münasibəti qiymətlən-dirir.

**2. Fərd və cəmiyyət**

Şagird:

***2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.***

2.1.1.” Fərd”, “ailə” və” kollektiv” anlayışlarını fərqləndirir.

2.1.2. Özünün və yoldaşlarının kollektiv daxilindəki fəaliyyətinə münasibət bildirir.

2.1.3. Ailədə və kollektivdə vəzifələrin əhəmiyyətini izah edir.

***2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.2.1. Gün rejiminin nümunəsində vaxtdan səmərəli istifadə etdiyini nümayiş etdirir.

2.2.2. Verilmiş şərtlərə uyğun şəxsi büdcəsini tərtib edir.

2.2.3. Milli pulla müvafiq hesablamalar aparır.

***2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.***

2.3.1. Dövlətin əlamətlərini (ərazi, ordu, milli pul, rəhbər, paytaxt) tanıyır.

***2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.4.1. Məktəbin daxili nizam-intizam qaydalarının mahiyyətini sadə formada izah edir.

2.4.2. Özünün və yoldaşlarının hüquqlarının pozulması hallarına münasibət bildirir.

**3. Mənəviyyat**

Şagird:

***3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.***

3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (yoldaşını təqdim etmək, hal-əhval tutmaq, təbrik etmək, kömək təklif etmək) əməl edir.

3.1.2. Etiketdənkənar davranışlara tənqidi münasibət bildirir.

***3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.***

3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (mərhəmət, ailəyə və vətənə məhəbbət, düşmənə nifrət, səhvini etiraf etmək) şərh edir.

3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (kin, nifrət, laqeydlik) münasibət bildirir.

***3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.***

3.3.1. Nümunələr əsasında müxtəlif dinlərin mövcudluğunu izah edir.

3.3.2. Dinlərin ümumi cəhətlərini izah edir.

***3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

3.4.1. Mənəvi borc (dəstək olmaq, mərhəmət, şəfqət və yardım göstərmək) haqqında biliklərini izah edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

***4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

4.1.1. Sağlam həyat tərzi haqqında mülahizələrini şərh edir.

4.1.2. Yoluxucu xəstəliklərdən (qrip, angina) qorunma yollarını sadə formada şərh edir.

***4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.***

4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarının, habelə alışdırıcı, deşici və kəsici alətlərin hansı hallarda təhlükə mənbəyinə çevrildiyini sadə formada təsvir edir.

4.2.2. Ətrafda həyat üçün təhlükəli olan yer və obyektləri (gəzinti qadağan olunan yerlər, elektrik və qaz qurğuları) sadalayır.

4.2.3. Zəruri yol hərəkət qaydalarını (piyada keçid nişanları olan və olmayan yerlərdə) izah edir.

4.2.4. Nəqliyyat vasitələrində (lift, eskalator, avtomobil, avtobus, qatar) təhlükəsizlik qaydalarını (minmək, düşmək, pəncərədən boylanmamaq, qolunu çıxarmamaq, sallanmamaq) izah edir.

***4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

4.3.1. Fövqəladə halları əlamətlərinə görə (təbii, texnogen) fərqləndirir.

4.3.2. Qəzalardan mühafizə vasitələrini təyinatına görə izah edir.

4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə (zəlzələ, subasma, yanğın, partlayış təhlükəsi zamanı həyəcan siqnalı) özünümühafizə bacarıqları nümayiş etdirir.

## III sinif

***III sinfin sonunda şagird:***

- varlıq və hadisələr arasındakı əlaqələri şərh edir, maddələrin və hadisələrin təbiətini öyrənmək üçün kiçik təcrübələr aparır və nəticələri izah edir;
- coğrafi obyektləri əlamətlərinə görə fərqləndirir;
- sadə əşyaların və evinin planını çəkir;
- canlılar arasındakı əlaqəni, ətraf aləmin dərk edilməsində duyğu orqanlarının rolunu izah edir;
- ətraf mühitin sağlamlaşdırılmasında bitki örtüyünün rolunu izah edir;
- təbiətimizin qorunmasında Azərbaycan dövlətinin rolunu izah edir;
- “cəmiyyət” anlayışı və onun tərkibi barədə fikirlərini şərh edir;
- mövcud resurslardan (ərzaq, su, qaz, elektrik enerjisi) qənaətlə istifadə, “gəlir”, “xərc” və “ailə büdcəsi” anlayışları barədə fikirlərini şərh edir;
- Azərbaycanın dövlət rəmzlərini tanıdığını nümayiş etdirir;
- “qayda” və “qanun” anlayışlarının fərqini izah edir;
- uşaq hüquqları haqqında müvafiq sənədləri sadalayır;
- ünsiyyət zamanı nəzakət qaydalarına əməl edir;
- digər xalqların ünsiyyət qaydalarına tolerant yanaşır;
- mənəviyyata zidd xüsusiyyətlərə münasibət bildirir;

- müxtəlif dinlərin peyğəmbərlərini və səmavi kitablarını tanıyır, dinlərin təbliğ etdiyi dəyərləri şərh edir;
- mənəvi borc haqqında biliklərini həyat təcrübəsi incəsənət əsərləri əsasında şərh edir;
- sağlam həyat tərzinə zidd olan vərdişlərin, mövsümə görə yayılan xəstəliklərdən qorunma yollarını şərh edir;
- məişətdə istifadə olunan qaz, elektrik avadanlıqlarından vaxtı ötmüş qida məhsullarından istifadənin təhlükəli olması barədə fikirlərini şərh edir;
- nəqliyyat vasitələrindən təhlükəsizlik qaydaları barədə bilik və bacarıqlarını nümayiş etdirir;
- fövqəladə halları səciyyəvi xüsusiyyətlərinə görə izah edir və qəzalardan mühafizə qaydalarını bilir.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Təbiət və biz**

***1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.***

1.1.1. Varlıqlar, hadisələr arasındakı əlaqələri sadə formada şərh edir.

1.1.2. Maddələrin və hadisələrin təbiətini öyrənmək üçün kiçik təcrübələr aparır və nəticələri izah edir.

1.1.3. “Zaman”, “məkan” və “hərəkət” anlayışlarını sadə şəkildə izah edir.

***1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

1.2.1. Coğrafi obyektləri (dəniz, okean, ada, materik) əlamətlərinə görə fərqləndirir.

1.2.2. Azərbaycanın sadə coğrafi təsvirini verir.

1.2.3. Sadə əşyaların və evinin planını çəkir.

***1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

1.3.1. Bitkiləri və heyvanları səciyyəvi əlamətlərinə görə qruplaşdırır.

1.3.2. Canlılar arasındakı əlaqəni izah edir.

1.3.3. Ətraf aləmin dərk edilməsində duyğu orqanlarının rolunu izah edir.

***1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

1.4.1. Ətraf mühitin sağlamlaşdırılmasında bitki örtüyünün rolunu şərh edir.

1.4.2. Təbiətimizin qorunmasında Azərbaycan dövlətinin rolunu izah edir.

**2. Fərd və cəmiyyət**

Şagird:

***2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.***

2.1.1. Fərd-ailə və fərd-kollektiv münasibətlərini şərh edir.

2.1.2. “Cəmiyyət” anlayışı haqqında təsəvvürlərini ifadə edir.

2.1.3. Cəmiyyətin tərkibi (ailə, kollektiv) barədə biliklərini sadə şəkildə şərh edir.

***2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.2.1. Mövcud resurslardan (ərzaq, su, qaz, elektrik enerjisi) qənaətlə istifadə barədə fikirlərini ifadə edir.

2.2.2. “Gəlir” və “xərc”, ailə büdcəsi, anlayışlarını sadə şəkildə izah edir.

2.2.3. Digər dövlətlərin pul nişanlarını tanıyır.

***2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.***

2.3.1. Verilmiş əlamətlərə uyğun olaraq Azərbaycan dövlətini təsvir edir.

***2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.4.1. “Qayda” və “qanun” anlayışlarının fərqini sadə şəkildə izah edir.

2.4.2. Uşaq hüquqları haqqında müvafiq sənədləri (Uşaq Hüquqları Konvensiyası, Uşaq Hüquqları Bəyannaməsi, Uşaq Hüquqları haqqında Azərbaycan Qanunu) sadalayır.

**3. Mənəviyyat**

Şagird:

***3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.***

3.1.1. Ünsiyyət zamanı nəzakət qaydalarına (müsahibini sonadək dinləmək, sözü kəsməmək, müsahibinə təşəkkür etmək) əməl edir.

3.1.2. Başqa xalqların ünsiyyət qaydalarındakı milli ünsiyyət etiketlərimizə uyğun gəlməyən fərqliliklərə tolerant yanaşır.

***3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.***

3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (sadəlik, təvazökarlıq, səbrlilik, iradəlilik, çətin vəziyyətlərdə özünü itirməmək) şərh edir.

3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə (lovğalıq, qorxaqlıq, xəyanət) münasibət bildirir.

***3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anla¬dığını nümayiş etdirir.***

3.3.1. Dinin mahiyyətini sadə formada şərh edir.

3.3.2. Dinlərin təbliğ etdiyi dəyərləri şərh edir.

3.3.3. Peyğəmbərləri və səmavi kitabları tanıyır.

***3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

3.4.1. Mənəvi borc haqqında biliklərini nümunələr (həyati, bədii və təsviri sənət əsərləri) əsasında şərh edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

***4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

4.1.1. Ətraf mühitdə orqanizmə mənfi təsir göstərən amilləri, sağlam həyat tərzinə zidd olan vərdişləri izah edir.

4.1.2. Mövsümə görə geniş yayılan xəstəliklərdən qorunma yollarını izah edir.

***4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.***

4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını sadalayır.

4.2.2. Vaxtı ötmüş qida məhsullarından, dərman preparatlarından icazəsiz istifadənin həyat üçün təhlükəli olduğunu izah edir.

4.2.3. Zəruri yol nişanlarını (xəbərdarlıq, qadağan, məlumatverici) fərqləndirir.

4.2.4. Nəqliyyat vasitələrində (gəmi, təyyarə) təhlükəsizlik qaydalarını (göyərtənin kənarlarına yaxınlaşmamaq, xilasedici gödəkçədən və təhlükəsizlik kəmərindən istifadə, ayaqüstə durmamaq, mobil telefondan və digər texniki vasitələrdən istifadə etməmək) izah edir.

***4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

4.3.1. Fövqəladə halları səciyyəvi xüsusiyyətlərinə görə izah edir.

4.3.2. Qəzalardan mühafizə vasitələrindən istifadə qaydalarını şərh edir.

4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə (əleyhqaz, yanğınsöndürmə balonu) özünümühafizə bacarıqları nümayiş etdirir.

**IV sinif**

***IV sinfin sonunda şagird:***

- varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir;
- coğrafi obyektləri xəritədə göstərir, yaşadığı məhəllənin planını çəkir;
- bitki, heyvan və mikroorqanizmin insan həyatında rolunu, insan orqanlarının funksiyalarını sadə şəkildə izah edir;
- ekologiyanın sağlamlaşdırılması, qorunması ilə bağlı kiçik təqdimatlar edir;
- insanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə təqdimatlar edir;
- “vergi”, “dövlət bücəsi” və “sığorta” anlayışlarını sadə şəkildə izah edir;
- ”qənaət”, “israf” anlayışlarını müqayisə edir;
- dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını izah edir;
- öz hüquqlarını uşaq hüquqları sənədləri baxımından şərh edir;
- ünsiyyət mədəniyyətinə aid kiçik təqdimatlar edir;
- müzakirə və diskussiyalarda mənəvi keyfiyyətləri nümayiş etdirir;
- dini dəyərləri xurafatdan fərqləndirir;
- ailə və vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir;

- sağlamlığa mənfi təsir göstərən əsəbilik və digər emosional gərginlikləri nümunələrlə izah edir;
- məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından təhlükəsiz istifadə qaydalarını izah edir;
- yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir;
- fövqəladə hallar zamanı tibbi yardım barədə biliklərini şərh edir.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Təbiət və biz**

Şagird:

***1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.***

1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir.

1.1.2. Təbii resurslardan, təbiət hadisələrindən (“işıq”, “səs” və “enerji”) istifadədə elmin rolunu izah edir.

1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir.

***1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

1.2.1. Coğrafi obyektləri xəritədə göstərir.

1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir.

1.2.3. Yaşadığı ərazinin, məhəllin planını çəkir.

***1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir.

1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir.

1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir.

***1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir.

1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir.

**2. Fərd və cəmiyyət**

Şagird:

***2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.***

2.1.1. Cəmiyyətdə fərd, ailə, kollektivin rolunu sadə şəkildə izah edir.

2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır.

2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır.

***2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.2.1. "Qənaət" və "israf " anlayışlarını müqayisə edir.

2.2.2. "Vergi", "Dövlət büdcəsi" və "Sığorta" anlayışlarını sadə şəkildə izah edir.

2.2.3. Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir.

***2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.***

2.3.1. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını izah edir.

***2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.4.1. Müvafiq situasiyalarda qanun və qaydalara əməl edir.

2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir.

***3. Mənəviyyat***

Şagird:

***3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.***

3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına (şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə "yox" demək ) riayət edir.

3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir.

***3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.***

3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir.

3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir.

***3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.***

3.3.1. İslam dininin böyük şəxsiyyətlərini tanıyır.

3.3.2. İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir.

3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir.

***3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

***4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.***

4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir.

4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir.

***4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.***

4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını izah edir.

4.2.2. Müvafiq nişanlara (yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları) görə həyat üçün təhlükə mənbələrini fərqləndirir.

4.2.3. Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir.

4.2.4. Nəqliyyat vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edir.

***4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.***

4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir.

4.3.2. Qəza zamanı ilkin tibbi yardım barədə biliklərini şərh edir.

4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir.

## V sinif

***V sinfin sonunda şagird:***

• varlıq və hadisələrin sadə təsnifatını verir;

• canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır;

• cəmiyyətin sosial tərkibini, dövləti onun həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir;

• insan hüquqlarını müdafiə edən qurumları fərqləndirir, topladığı materialları təqdim edir;

• iqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir;

• sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir;

• ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir, əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir;

• mənəvi borcun əhəmiyyətini izah edir, dini inancları fərqləndirir;

• həyat fəaliyyəti zamanı yarana biləcək təhlükəli və xoşagəlməz halları, fövqəladə hadisələri izah edir.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Təbiət və biz**

Şagird:

***1.1. Varlıq, təbiət və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.1.1. Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir.

***1.2.Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.2.1. Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır.

**2. Fərd və cəmiyyət**

Şagird:

***2.1.Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

2.1.1. Cəmiyyətin sosial tərkibini izah edir.

2.1.2. Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir.

***2.2.Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumları fərqləndirir.

2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumlar haqqında topladığı materialları təqdim edir.

***2.3.İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.3.1. İqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir.

**3. Mənəviyyat**

Şagird:

***3.1.Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir.

***3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.2.1. Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir.

3.2.2. Mənəvi borcun əhəmiyyətini izah edir.

***3.3.Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.***

3.3.1. Dini inancların ümumi və fərqli cəhətlərini müqayisə edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

***4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.1.1. Sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir.

***4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik bacarıqlar nümayiş etdirir.***

4.2.1. Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir.

4.2.2. Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir.

**4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.**

4.3.1. Fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir.

**VI sinif**

VI sinfin sonunda şagird:

• maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir;

• insanı təbiətin bir hissəsi kimi səciyyələndirir;

• cəmiyyətin idarə olunmasını və dövlətin funksiyalarını izah edir;

• insan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir, topladığı materialları təqdim edir;

• iqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin inkişafındakı rolunu izah edir;

• sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir;

• ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir, əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir;

• ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir, dini ibadət və mərasimləri müqayisə edir;

• fövqəladə hadisələr və həyat fəaliyyəti zamanı tələb olunan təhlükəsiz davranış qaydalarını izah edir.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Təbiət və biz**

Şagird:

***1.1.Varlıq, təbiət və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir.

***1.2.Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir.

**2. Fərd və cəmiyyət**

Şagird:

***1.3.Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.3.1. Cəmiyyətin idarə olunmasını şərh edir.

1.3.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.

***2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.

2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir.

***2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir.

**3. Mənəviyyat**

Şagird:

***3.4.Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir.

***3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir.

3.2.2. Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir.

***3.3.Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.***

3.3.1. Dini ibadət və mərasimləri müqayisə edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

***4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir.

***4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir.

4.2.2. Yol nişanlarının təyinatına uyğun bacarıqlar nümayiş etdirir.

***4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.***

4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir.

## VII sinif

***VII sinfin sonunda şagird:***

• təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir;

• insan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir;

• cəmiyyətin və dövlətin idarəetmə formalarını fərqləndirir;

• hüquqi sahələri fərqləndirir, normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır;

• əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir;

• ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir, müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır;

• təbiət və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir, dini-əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir;

• sağlamlığın mənəvi, psixoloji və emosional aspektlərini fərqləndirir;

• təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir, ictimai nəqliyyatda davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir;
• fövqəladə hadisələr zamanı ilkin yardım göstərir.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Təbiət və biz**

Şagird:

***1.1.Varlıq, təbiət və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.1.1. Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir.

***1.2.Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir.

**2. Fərd və cəmiyyət**

Şagird:

***2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

2.1.1. Cəmiyyəti idarəetmə formalarını fərqləndirir.

2.1.2. Dövlətin idaretmə formalarını fərqləndirir.

***2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.2.1. Hüquq sahələrini fərqləndirir.

2.2.2. Normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır.

***2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.3.1. Əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir.

**3. Mənəviyyat**

Şagird:

***3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir.

***3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.2.1. Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır.

3.2.2. Varlıq və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir.

***3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.***

3.3.1. Dini-əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

***4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.

***4.2.Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.2.1. Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir.

4.2.2. İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir.

***4.3.Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.***

4.3.1. Fövqəladə hadisələr zamanı ilkin yardım göstərir.

## VIII sinif

*VIII sinfin sonunda şagird:*

- materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır;
- ekoloji tarazlığın qorunması və bərpasına dair layihələr hazırlayır;
- cəmiyyətin inkişafında inteqrasiyanı və cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsini əsaslandırır;

• tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimat hazırlayır;
• istehsal infrastrukturlarına dair təqdimat hazırlayır;
• insanlararası münasibətlərdə ümumi cəhətlərin, insan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətin əhəmiyyətini dəyərləndirir;
• vətən və dovlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir, cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini-əxlaqi dəyərlərin rolunu qiymətləndirir;
• reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir;
• konkret situasiyalarda təhlükəsiz davranış və yol hərəkəti qaydalarından istifadə edir;
• fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgəfəaliyyət bacarıqları nümayiş etdirir.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

**1. Təbiət və biz**

Şagird:

***1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.1.1. Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır.

***1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.2.1. Ekoloji tarazlığın qorunmasına və bərpasına dair layihələr hazırlayır.

**2. Fərd və cəmiyyət**

Şagird:

***2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

2.1.1. Cəmiyyətin inkişafında sahələrarası inteqrasiyanın əhəmiyyətini əsaslandırır.

2.1.2. Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsi prinsipini əsaslandırır.

***2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.2.1. Əsas insan hüquqlarını fərqləndirir.

2.2.2. Tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimatlar hazırlayır.

***2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.3.1. İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimatlar hazırlayır.

**3. Mənəviyyat**

Şagird:

***3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir.

***3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.2.1. İnsan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətin əhəmiyyətini dəyərləndirir.

3.2.2. Vətən və dovlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

***3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.***

3.3.1. Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini əxlaqi dəyərlərin rolunu qiymətləndirir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.

4.1.1. Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir.

***4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.2.1. Təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir.

4.2.2. Konkret situasiyalarda yol hərəkəti qaydalarından istifadə edir.

***4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.***

4.3.1. Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgəfəaliyyət bacarıqları nümayiş etdirir.

## IX sinif

**IX sinfin sonunda şagird:**

• dünyanın dərk olunmasında elmi və dini dünyagörüşləri müqayisə edir;

• qlobal ekoloji problemlərin həllinə dair təqdimat və layihələr hazırlayır;

• insanın sosial proseslərdə iştirakını, vətəndaş cəmiyyətinin formalaşması və inkişafında demokratik dəyərlərin rolunu qiymətləndirir;

• beynəlxalq və milli hüquqi sənədlərin əlaqəsinə dair təqdimatlar hazırlayır.

• iqtisadi səmərəliliyə dair kiçik layihələr qurur və təqdim edir;

• mədəniyyətlərarası münasibətlərdə və müxtəlif dinlərə münasibətdə tolerantlıq nümayiş etdirir;

• bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir;

• sağlam ailənin qurulmasında sağlam həyat tərzinin əhəmiyyətini dəyələndirir;

• təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir;

• yol hərəkətinə dair davranış mədəniyyəti nümayiş etdirir;

• fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasına dair layihələr hazırlayır.

Məzmun xətləri üzrə əsas və alt-standartlar

***1. Təbiət və biz***

Şagird:

***1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.1.1. Dünyanın dərk olunmasında elmi və dini dünyagörüşləri şərh edir.

***1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.***

1.2.1. Qlobal ekoloji problemlərin həllinə dair təqdimat və layihələr hazırlayır.

**2. Fərd və cəmiyyət**

Şagird:

***2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.

2.1.2. Vətəndaş cəmiyyətinin formalaşması və inkişafında demokratik dəyərlərin rolunu qiymətləndirir.

***2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.***

2.2.1. Əsas insan hüquqlarının beynəlxalq hüquq normalarında təsbit olunduğunu əsaslandırır.

2.2.2. Beynəlxalq və milli hüquqi sənədlərin əlaqəsinə dair təqdimatlar hazırlayır.

***2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.***

2.3.1. İqtisadi səmərəliliyə dair kiçik layihələr hazırlayır və təqdim edir.

**3. Mənəviyyat**

Şagird:

***3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.1.1. Mədəniyyətlərarası münasibətlərdə tolerantlıq nümayiş etdirir.

***3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.***

3.2.1. Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.

3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.

***3.3.Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.***

3.3.1.Müxtəlif dinlərə münasibətdə tolerantlıq nümayiş etdirir.

**4. Sağlamlıq və təhlükəsizlik**

Şagird:

***4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.1.1. Sağlam ailənin qurulmasında sağlam həyat tərzinin əhəmiyyətini dəyərləndirir.

***4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.***

4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarından istifadəyə dair təqdimatlar hazırlayır.

4.2.2. Yol hərəkətinə dair davranış mədəniyyəti nümayiş etdirir.

***4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.***

4.3.1.Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasına dair layihələr hazırlayır.

## 1.6. Fəndaxili və fənlərarası inteqrasiya

“Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)”nda istər ümumi təhsilin, istərsə də onun ayrı-ayrı səviyyələrinin məqsədləri və ümumi təlim nəticələri aydın şəkildə təsbit edilmişdir. Həmin məqsədlərə çatmaq və müəyyən olunmuş nəticələri əldə edə bilmək üçün bu səviyyələrində tədris edilən fənlər və onların hər birinin ümumi təlim nəticələrində payı da göstərilmişdir. Şübhəsiz ki, təhsil prosesində şagirdlərin gündəlik həyatlarında tətbiq edə biləcəkləri bilik, bacarıq və vərdişlərin formalaşdırılması həm bu fənlərin, həm də onların əhatə etdikləri mövzuların əlaqəli-inteqrativ şəkildə tədrisini tələb edir.

Müasir təhsil təcrübəsi göstərir ki, təlim prosesində müxtəlif inteqrasiya metodlarından istifadə etmədən hər hansı bir fənnin, xüsusən də həyati bacarıqlar formalaşdırmaq məqsədi daşıyan “Həyat bilgisi”nin tədrisində müvəffəqiyyət əldə etmək mümkün deyil. Təlim prosesində motivasiyanın yaradılması, sinifdə fəallığın artırılması, məzmunun hərtərəfli aşılanması və şagirdlərdə müasir dünyagörüşün formalaşdırılmasında onun rolu danılmazdır. İnteqrasiya həm də

məktəbdaxili və məktəbdənkənar təlimlərin tətbiqi arasındakı fərqlərin aradan qaldırılmasında mühüm rol oynayır.

**İnteqrasiya** - ***müəyyən təhsil sistemi çərçivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişafa və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmaq və onları sistemləşdirməkdir.***

Müasir dünya təcrübəsində, əsasən, inteqrasiyanın 3 səviyyəsi fərqləndirilir:

**Fəndaxili inteqrasiya** – müəyyən bir fənnin aşıladığı anlayış, bilik və bacarıqların əlaqələndirilməsi – fənn daxilindəki faktların sistemləşdirilməsidir. Belə səviyyədə inteqrasiyanı verilmiş materialın ayrı-ayrı tədris vahidlərində cəmləşdirilməsi də hesab etmək olar. Bu isə son nəticədə fənnin məzmununun, strukturunun dəyişdirilməsinə gətirib çıxarır. Bu mənada, inteqrasiya olunmuş məzmun informativ cəhətdən daha tutumlu olur, şagirdlərin daha əhatəli kateqoriyalarla düşünmə bacarıqları formalaşdırmalarına kömək edir. İbtidai təhsil səviyyəsindəki fənlərin tədrisində geniş şəkildə istifadə olunan fəndaxili inteqrasiya üçün konsentrik prinsipə əsaslanan spiralvari quruluş daha xarakterikdir.

Bu cür inteqrasiya prosesində dəyərlərin dərk olunması xüsusidən ümumiyə və yaxud ümumidən xüsusiyə doğru ola bilər. Beləliklə, məzmun get-gedə yeni məlumatlarla zənginləşir, mövzulararası bağlılıqlarla daha maraqlı hala gəlir. Bu formanın üstün xüsusiyyəti ondan ibarətdir ki, şagirdlər başlanğıc problemi diqqətdən qaçırmadan onunla bağlı olan bilgilərini daha da genişləndirir və dərinləşdirirlər.

Fəndaxili inteqrasiya həm üfüqi, həm də şaquli ola bilər.

**Fənlərarası inteqrasiya** – iki və ya daha artıq fənnin əhatə etdiyi anlayış, bilik, bacarıq və prinsiplərin sintezidir. Bu inteqrasiya bir fənnə aid olan qanun, nəzəriyyə və metodların başqa bir fənnin öyrədilməsində istifadəsini nəzərdə tutur.

Məzmunun bu modelə uyğun sistemləşdirilməsi şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazının yaradılması ilə yanaşı, həm də ümumelmi anlayışlar, kateqoriyalar və yanaşmalarla xarakterizə olunan yeni tip biliklərin

formalaşdırılmasına təkan verir. Müxtəlif fənlərə aid oxşar və bir-birini tamamlayan mövzular elə planlaşdırılır və tədris olunur ki, müəyyən bir çərçivə yaranır, yəni onlar eyni vaxtda tədris olunur.

İbtidai təhsil səviyyəsində bütün fənnlər eyni müəllim tərəfindən tədris edildiyi halda, "Həyat bilgisi" fənninin əsas təhsil səviyyəsində tədrisi prosesində müxtəlif fənn müəllimləri arasında birbaşa əməkdaşlıq və məsləhətləşmələr tələb olunur. Bu amil müəllimə təlim prosesində fənlər və mövzular arasındakı əlaqələri asanlıqla izləməyə, ümumi cəhətlər tapmağa imkan verir. O, ayrı-ayrı fənlərə aid ümumi təlim nəticələrini birlikdə nəzərdən keçirir, fənlərarası anlayış və bacarıqların formalaşdırılmasında bu əlaqələrdən yaradıcılıqla bəhrələnir.

**Fənlərüstü (transfənn) inteqrasiya** – inteqrasiyanın ən yüksək səviyyəsi olmaqla özündə təlimin əhatə etdiyi əsas və əlavə məzmun komponentlərinin sintezini ehtiva edir. Yəni bu inteqrasiya ilə şagirdlərin məktəbdə öyrəndikləri məzmunla məktəbdən kənarda aldıqları məzmun sintez edilir.

İnteqrasiyanın belə səviyyəsini, şəbəkəsi getdikcə artmaqda olan məktəb-komplekslərlə yanaşı, həm də təhsil paradiqmalarının dəyişməsi və yeni nəslin icmalarda formalaşdırılması ideyası da tələb edir. Belə məktəblərdə dərs gününün məzmunu şagird üçün vahid təlim prosesi kimi qurulur.

"Həyat bilgisi" kimi inteqrativ fənlərin tədrisi yalnız fəndaxili, fənlərarası və fənlərüstü inteqrasiyanı yox, həm də təlim texnologiyalarının inteqrasiyasını nəzərdə tutur.

## Fənndaxili və fənlərarası inteqrasiya

| Həyat bilgisi (Fənlərarası inteqrasiya) | | | |
|---|---|---|---|
| **I sinif** | **II sinif** | **III sinif** | **IV sinif** |
| **1. Təbiət və biz** | **1. Təbiət və biz** | **1. Təbiət və biz** | **1. Təbiət və biz** |
| **1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.** | **1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.** | **1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.** | **1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.** |
| 1.1.1. Varlıqları, hadisələri sadə şəkildə təsvir edir. | 1.1.1. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır. A.d.2.1.1., T.i. 3.1.1 | 1.1.1. Varlıqlar, hadisələr arasındakı əlaqələri sadə formada şərh edir. A.d. 2.1.1. | 1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir. A.d. 2.1.1. |
| 1.1.2. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə fərqləndirir. | 1.1.2. Varlıq və hadisələri öyrənmək üçün müvafiq avadanlıqlardan sərbəst istifadə edir. Texn. 1.2.2. | 1.1.2. Maddələrin və hadisələrin təbiətini öyrənmək üçün kiçik təcrübələr aparır və nəticələri izah edir. Riy. 5.2.1., T.i. 3.1.2. | 1.1.2. Təbii resurslardan, təbiət hadisələrindən ("işıq", "səs"və "enerji") istifadədə elmin rolunu izah edir. Riy. 1.2.2. |
| | 1.1.3. Suyun təbiətdə dövranını sadə şəkildə təsvir edir. İnf. 2.1.2., T.i.n. 1.1.3. | 1.1.3. "Zaman", "məkan" və "hərəkət" anlayışlarını sadə şəkildə izah edir. Riy. 1.1.6., 1.1.7., 1.3.1., 2.2.2., 2.3.2., 4.2.4. | 1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir. İnf. 1.2.2., 3.3.5., 4.1.3. |
| **1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | **1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | **1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | **1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** |
| 1.2.1. Coğrafi obyektləri *(dağ, təpə, dərə, düzənlik, çay, göl)* əlamətlərinə görə fərqləndirir. | 1.2.1. Coğrafi obyektlərin (dağ, təpə, dərə, düzənlik, çay, göl) yaranma səbəblərini izah edir. A.d. 1.2.1., 4.1.3. | 1.2.1. Coğrafi obyektləri *(dəniz, okean, ada, materik)* əlamətlərinə görə fərqləndirir. Riy. 1.2.8., 1.3.3., 4.2.2., Texn. 4.1.1., A.d. 1.2.1., 4.1.3. | 1.2.1. Coğrafi obyektləri xəritədə göstərir. Riy. 2.2.1., A.d. 1.2.1, 4.1.3., T.i.n. 3.1.1. |

| | | | |
|---|---|---|---|
| 1.2.2. Yaşadığı ərazinin sadə coğrafi təsvirini verir. | 1.2.2. Üfüqün cəhətlərini təyin edir. İnf. 2.1.1., 2.1.3. | 1.2.2. Azərbaycanın sadə coğrafi təsvirini verir. A.d. 3.1.4., T.i. 1.1.3. | 1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir. Riy. 2.2.1., T.i.n. 3.1.2., 2.1.1. |
| | | 1.2.3. Sadə əşyaların və evinin planını çəkir. Riy. 1.2.3., 1.2.4., 1.3.3., 3.1.1., T.i. 3.1.2. | 1.2.3. Yaşadığı ərazinin, məhəlin planını çəkir. Riy. 1.2.3., T.i. 2.1.3. |
| **1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** |
| 1.3.1. Canlılar aləminə aid olan varlıqları *(bitki, heyvan, insan)* tanıyır. | 1.3.1. Canlılar aləminə aid olan varlıqları (bitki, heyvan, insan) təsvir edir. Riy. 1.1.1., İnf. 1.1.1.,T.i. 2.2.1. | 1.3.1. Bitkiləri və heyvanları səciyyəvi əlamətlərinə görə qruplaşdırır. Riy. 2.2.1., 5.1.2. | 1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir. İnf. 1.2.2., 1.2.3. |
| 1.3.2. Canlıların yaşamasını şərtləndirən amilləri sadalayır. | 1.3.2. Tanıdığı canlıları spesifik xüsusiyyətlərinə görə fərqləndirir. İnf. 2.2.1., X.d. 1.1.3. | 1.3.2. Canlılar arasındakı əlaqəni izah edir. İnf. 1.1.2. | 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir. Riy. 1.1.1., 1.1.4., Texn. 3.1.2. |
| | | 1.3.3. Ətraf aləmin dərk edilməsində duyğu orqanlarının rolunu izah edir. İnf. 1.1.1. | 1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir. İnf. 2.2.1. |
| **1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | **1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | **1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | **1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** |
| 1.4.1. Ətraf mühitin *(evin, sinifin, həyətin , havanın, suyun)* təmiz saxlanmasının vacibliyini sadə şəkildə şərh edir. | 1.4.1. Ətraf mühiti çirkləndirən mənbələri ayırd edir. İnf. 2.2.1., T.i. 3.1.1., X.d. 2.2.3. | 1.4.1. Ətraf mühitin sağlamlaşdırılmasında bitki örtüyünün rolunu şərh edir. İnf. 1.1.1., Texn. 3.1.2. | 1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir. İnf. 3.3.5., 1.1.4., 4.1.3. |
| | 1.4.2. Təqdim olunmuş materiallarda ətraf mühitə münasibəti qiymətləndirir. İnf. 2.2.2. | 1.4.2. Təbiətimizin qorunmasında Azərbaycan dövlətinin rolunu izah edir. Riy. 5.1.2. | 1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir. İnf. 1.1.4., 3.2.5., 1.2.2. |
| **2. Fərd və cəmiyyət** | **2. Fərd və cəmiyyət** | **2. Fərd və cəmiyyət** | **2. Fərd və cəmiyyət** |
| **2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.** | **2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.** | **2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.** | **2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.** |
| 2.1.1. “Fərd”, “ailə” və “kollektiv” anlayışları barədə təsəvvürlərini | 2.1.1.” Fərd”, “ailə” və” kollektiv” anlayışlarını fərqləndirir. Riy. | 2.1.1. Fərd-ailə və fərd-kollektiv münasibətlərini şərh edir. F.t. 4.1.2., | 2.1.1. Cəmiyyətdə fərd, ailə, kollektivin rolunu sadə şəkildə |

| | | | |
|---|---|---|---|
| bildirir. | 1.1.6., A.d. 2.1.1. | İnf. 1.1.4. | izah edir. Riy. 1.1.8., İnf. 1.1.1., 1.2.2. |
| 2.1.2. Birgə fəaliyyətin faydasını nümunələr əsasında izah edir. | 2.1.2. Özünün və yoldaşlarının kollektiv daxilindəki fəaliyyətinə münasibət bildirir. İnf. 3.3.4. | 2.1.2. “Cəmiyyət” anlayışı haqqında təsəvvürlərini ifadə edir. F.t. 1.1.8., İnf. 1.1.4. | 2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır. A.d. 1.2.6., İnf. 1.1.4., 2.2.1. |
| 2.1.3. Ailədə və kollektivdə üzərinə düşən vəzifələri sadalayır. | 2.1.3. Ailədə və kollektivdə vəzifələrin əhəmiyyətini izah edir. İnf. 2.2.2., Riy. 5.1.1. | 2.1.3. Cəmiyyətin tərkibi (ailə, kollektiv) barədə biliklərini sadə şəkildə şərh edir. | 2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır. A.d. 1.2.2., İnf. 4.1.3. |
| **2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | **2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | **2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | **2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** |
| 2.2.1. Gün rejimi haqqında təsəvvürlərini sadə şəkildə ifadə edir. | 2.2.1. Gün rejiminin nümunəsində vaxtdan səmərəli istifadə etdiyini nümayiş etdirir. Riy. 4.1.1., 5.2.2. | 2.2.1. Mövcud resurslardan (ərzaq, su, qaz, elektrik enerjisi) qənaətlə istifadə barədə fikirlərini ifadə edir. Riy. 1.3.4., 2.1.4., 5.1.3., İnf. 3.3.5. | 2.2.1. “Qənaət” və “israf “ anlayışlarını müqayisə edir. Riy. 1.2.1., 2.2.1. |
| 2.2.2. “Büdcə” anlayışını sadə şəkildə izah edir. | 2.2.2. Verilmiş şərtlərə uyğun şəxsi büdcəsini tərtib edir. İnf. 2.1.2. | 2.2.2. “Gəlir” və “xərc” anlayışlarını sadə şəkildə izah edir. Texn. 4.1.1., Riy. 1.2.8., 1.2.5., 1.2.7., 1.2.8., 1.3.4., 2.2.2. | 2.2.2. “Vergi”, “Dövlət büdcəsi” və “Sığorta” anlayışlarını sadə şəkildə izah edir. Riy. 1.1.2., 1.3.1. |
| 2.2.3. Azərbaycan Respublikasının pul nişanlarını tanıyır. | 2.2.3. Milli pulla müvafiq hesablamalar aparır. Riy. 1.1.1., 1.2.3., 1.2.5., 1.2.7., 1.2.1., 1.3.2., 2.3.1. | 2.2.3. Digər dövlətlərin pul nişanlarını tanıyır. Riy. 1.2.8., 2.1.5., İnf. 4.2.3., 4.1.3. | 2.2.3. Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir. Riy. 1.1.3., 1.1.4., İnf. 1.2.1., 1.2.3., Mus. 1.2.2. |
| **2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.** | **2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.** | **2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.** | **2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.** |
| 2.3.1. Azərbaycan Respublikasının Dövlət rəmzlərini sadə şəkildə izah edir. | 2.3.1. Dövlətin əlamətlərini (ərazi, ordu, milli pul , rəhbər, paytaxt) tanıyır. İnf. 3.3.4., X.d. 1.1.2. | 2.3.1. Verilmiş əlamətlərə uyğun olaraq Azərbaycan dövlətini təsvir edir. İnf. 2.2.3., 1.2.2., 4.1.3. | 2.3.1. Dövlət orqanlarının (təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə) funksiyalarını izah edir. Texn. 2.2.1., İnf. 4.1.3., X.d. 2.2.2. |
| **2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | **2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | **2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | **2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** |
| 2.4.1. Məktəbin daxili nizam- | 2.4.1. Məktəbin daxili nizam- | 2.4.1. “Qayda” və “qanun” anla- | 2.4.1. Müvafiq situasiyalarda |

| | | | |
|---|---|---|---|
| intizam qaydalarını sadalayır. | intizam qaydalarının mahiyyətini sadə formada izah edir. İnf. 2.2.2., Riy. 5.1.1. | yışlarının fərqini sadə şəkildə izah edir. Riy. 1.2.6., 5.1.3., İnf. 1.1.2., 4.1.3. | qanun və qaydalara əməl edir. İnf. 2.2.1., X.d. 1.1.1. |
| 2.4.2. Şagird hüquqlarını sadalayır. | 2.4.2. Özünün və yoldaşlarının hüquqlarının pozulması hallarına münasibət bildirir. İnf. 2.1.1., Riy. 5.2.1., 5.2.2. | 2.4.2. Uşaq hüquqları haqqında müvafiq sənədləri (Uşaq Hüquqları Konvensiyası, Uşaq Hüquqları Bəyənnaməsi, Uşaq Hüquqları haqqında Azərbaycan Qanunu) sadalayır. İnf. 4.1.3. | 2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir. İnf. 2.2.2. |
| **3. Mənəviyyat** | **3. Mənəviyyat** | **3. Mənəviyyat** | **3. Mənəviyyat** |
| **3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.** | **3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.** | **3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.** | **3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.** |
| 3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (*salamlaşmaq, özü-nütəqdim, müraciət, müraciətə cavab, xudahafizləşmək)* əməl edir. | 3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (*yoldaşını təqdim etmək, hal-əhval tutmaq, təbrik etmək, kömək təklif etmək)* əməl edir. A.d. 1.2.2., X.d. 2.2.4. | 3.1.1. Ünsiyyət zamanı nəzakət qaydalarına *(müsahibini sonadək dinləmək, sözü kəsməmək, müsahibinə təşəkkür etmək)* əməl edir. A.d. 1.2.2., Riy. 5.1.1., 5.1.3., X.d. 1.1.3. | 3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına *(şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə "yox" demək )* riayət edir. F.t. 4.1.3. |
| 3.1.2. Etiketdənkənar davranışları fərqləndirir. | 3.1.2. Etiketdənkənar davranışlara tənqidi münasibət bildirir. İnf. 2.1.3., 2.2.2., Riy. 5.2.2., X.d. 2.2.4. | 3.1.2. Başqa xalqların ünsiyyət qaydalarındakı milli ünsiyyət etiketlərimizə uyğun gəlməyən fərqliliklərə tolerant yanaşır. İnf. 1.2.1., 1.2.2., 2.2.3. | 3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar edir. İnf. 1.1.4., 1.2.3., 2.2.3. |
| **3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir .** | **3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir .** | **3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.** | **3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir .** |
| 3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri *(düzlük, doğruçuluq, çalışqanlıq, səmimilik)* sadə şəkildə şərh edir. | 3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri *(mərhəmət, ailəyə və Vətənə məhəbbət, düşmənə nifrət, səhvini etiraf etmək)* şərh edir. İnf. 1.2.3. | 3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (*sadəlik, təvazökarlıq, səbrlilik, iradəlilik, çətin vəziyyətlərdə özünü itirməmək*) şərh edir. İnf. 1.1.4., Riy. 5.1.3. | 3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir. A.d. 3.1.4., İnf. 2.2.3. |
| 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə*(yalançılıq, paxıllıq,* | 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə *(kin, nifrət, laqeydlik)* | 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə *(lovğalıq, qorxaqlıq,* | 3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və |

| | | | |
|---|---|---|---|
| *xəbərçilik)* münasibət bildirir. | münasibət bildirir. A.d. 1.1.2. | *xəyanət)* münasibət bildirir. A.d. 1.1.2. | diskussiyalarda nümayiş etdirir. A.d. 1.1.2. |
| **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.** | **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.** | **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.** | **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.** |
| 3.3.1. Təsvirlərdə dini rəmzləri *(ibadətgahlar, nişanlar, dini kitablar, əşyalar*) fərqləndirir. | 3.3.1. Nümunələr əsasında müxtəlif dinlərin mövcudluğunu izah edir. İnf. 1.2.2. | 3.3.1. Dinin mahiyyətini sadə formada şərh edir. İnf. 1.1.1., 1.1.2. | 3.3.1. İslam dininin böyük şəxsiyyətlərini tanıyır. İnf. 1.2.2., 2.2.3. |
| 3.3.2. Dinlər haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir. | 3.3.2. Dinlərin ümumi cəhətlərini izah edir. İnf. 1.2.2., Riy. 5.1.1. | 3.3.2. Dinlərin təbliğ etdiyi dəyərləri şərh edir. İnf. 1.1.1., 1.1.2., 2.2.1. | 3.3.2. İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir. İnf. 4.1.2., 4.1.3., A.d. 1.2.1. |
| | | 3.3.3. Peyğəmbərləri və səmavi kitabları tanıyır. İnf. 1.2.1. | 3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir. İnf. 1.2.3. |
| **3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** |
| 3.4.1. Mənəvi borc *(böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı)* haqqında təsəvvürlərini ifadə edir. | 3.4.1. Mənəvi borc *(dəstək olmaq, mərhəmət, şəfqət və yardım göstərmək)* haqqında biliklərini izah edir. İnf. 2.2.1. | 3.4.1. Mənəvi borc haqqında biliklərini nümunələr (həyati; bədii və təsviri sənət əsərləri) əsasında şərh edir. İnf. 2.2.3., Riy. 5.1.3. | 3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir. İnf. 1.2.3., 2.2.1., 4.1.2., A.d. 1.2.1. |
| **4. Sağlamlıq və təhlükəsizlik** | **4. Sağlamlıq və təhlükəsizlik** | **4. Sağlamlıq və təhlükəsizlik** | **4. Sağlamlıq və təhlükəsizlik** |
| **4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | **4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | **4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | **4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** |
| 4.1.1. Sağlam həyat tərzinin şərtlərini *(təmizkarlıq, düzgün qidalanma, yuxu və istirahət)* sadalayır. | 4.1.1. Sağlam həyat tərzi haqqında mülahizələrini şərh edir. F.t. 1.1.2., 1.1.3. | 4.1.1. Ətraf mühitdə orqanizmə mənfi təsir göstərən amilləri, sağlam həyat tərzinə zidd olan vərdişləri izah edir. F.t. 1.1.2., 1.1.3. | 4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir. A.d. 1.1.1. |
| 4.1.2. Hava durumuna uyğun geyim seçiminin əhəmiyyətini sadə formada əsaslandırır. | 4.1.2. Yoluxucu xəstəliklərdən (qrip, angina) qorunma yollarını sadə formada şərh edir. İnf. 1.1.1., Riy. 5.2.2. | 4.1.2. Mövsümə görə geniş yayılan xəstəliklərdən qorunma yollarını izah edir. F.t. 1.1.2., 1.1.3. | 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir. İnf. 1.2.3., 2.2.1., 4.1.2., A.d. 1.2.1. |
| **4.2. Həyat və sağlamlıq üçün** | **4.2. Həyat və sağlamlıq üçün** | **4.2. Həyat və sağlamlıq üçün** | **4.2. Həyat və sağlamlıq üçün** |

| | | | |
|---|---|---|---|
| **təhlükə törədən mənbələrə dair bilik və bacarıqlar nümayiş etdirir.** | **təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.** | **təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.** | **təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.** |
| 4.2.1. Həyat və sağlamlıq üçün təhlükə törədə bilən məişət alət və avadanlıqlarını *(elektrik və qaz cihazları, alışdırıcı, kəsici və deşici alətlər)* sadalayır. | 4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarının, habelə alışdırıcı, deşici və kəsici alətlərin hansı hallarda təhlükə mənbəyinə çevrildiyini sadə formada təsvir edir. İnf. 2.1.3. | 4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını sadalayır. F-t. 1.1.6., Tex. 2.1.2., 2.1.3. | 4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını izah edir. Texn. 2.1.3., A-d. 2.1.2. |
| 4.2.2. Ətrafdakı şübhəli əşyalara toxunmağın və tanımadığı insanlarla ünsiyyətin təhlükəsini izah edir. | 4.2.2. Ətrafda həyat üçün təhlükəli olan yer və obyektləri (gəzinti qadağan olunan yerlər, elektrik və qaz qurğuları) sadalayır. T.i.n. 2.2.1., X-d. 2.2.2. | 4.2.2. Vaxtı ötmüş qida məhsullarından, dərman preparatlarından icazəsiz istifadənin həyat üçün təhlükəli olduğunu izah edir. İnf. 1.2.3., Riy. 1.3.3. | 4.2.2. Müvafiq nişanlara *(yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları)* görə həyat üçün təhlükə mənbələrini fərqləndirir. A-d. 4.1.7., 2.1.2., 4.1.3., İnf. 1.2.2. |
| 4.2.3. Sadə yol hərəkət qaydalarını (səki və yolun kənarı ilə hərəkət etmək, sfetoforun işarələrinə əməl etmək) sadalayır. | 4.2.3. Zəruri yol hərəkət qaydalarını (piyada keçid nişanları olan və olmayan yerlərdə) izah edir. A-d. 4.1.7. | 4.2.3. Zəruri yol nişanlarını (xəbərdarlıq, qadağan, məlu-matverici) fərqləndirir. İnf. 2.2.3., 2.1.1. | 4.2.3. Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir. A.d. 1.2.1., İnf. 2.2.1., 4.1.2., 4.1.3. |
| 4.2.4. Nəqliyyat vasitələrini (lift, eskalator, avtomobil, avtobus, qatar, gəmi, təyyarə) tanıyır. | 4.2.4. Nəqliyyat vasitələrində *(lift, eskalator, avtomobil, avtobus, qatar)* təhlükəsizlik qaydalarını *(minmək, düşmək, pəncərədən boylanmamaq, qolunu çıxarmamaq, sallanmamaq)* izah edir. Inf. 2.1.3., Riy. 5.2.2. | 4.2.4. Nəqliyyat vasitələrində ( gəmi, təyyarə) təhlükəsizlik qaydalarını (göyərtənin kənarlarına yaxınlaşmamaq, xilasedici gödəkçədən və təhlükəsizlik kəmərindən istifadə, ayaqüstə durmamaq, mobil telefondan və digər texniki vasitələrdən istifadə etməmək) izah edir. İnf. 2.1.1., 4.1.3., Riy. 5.2.2. | 4.2.4. Nəqliyyat vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edir. A-d. 1.2.2. |
| **4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | **4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** |
| 4.3.1. Təbii fövqəladə hadisələri *(daşqın, subasma, qasırğa, ildırım,* | 4.3.1. Fövqəladə halları əlamətlərinə görə *(təbii, texnogen)* | 4.3.1. Fövqəladə halları səciyyəvi xüsusiyyətlərinə görə izah edir. İnf. | 4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar |

| | | | |
|---|---|---|---|
| *zəlzələ, torpaq sürüşməsi, qar uçqunu)* və texnogen qəzaları *(partlayış, yanğın, böyük nəqliyyat qəzası, ətraf mühitin zəhərli maddələrlə çirklənməsi)* təsvirlərdə tanıyır. | fərqləndirir. İnf. 1.2.1. | 1.2.2., Riy. 5.1.2. | edir. İnf. 1.2.3., 4.1.2., 4.1.3., A-d. 1.2.1. |
| 4.3.2. Mülki-müdafiə siqnallarını və qəzalardan mühafizə vasitələrini *(əleyhqaz, respirator, yanğınsöndürmə balonu, su, qum)* tanıyır. | 4.3.2. Qəzalardan mühafizə vasitələrini təyinatına görə izah edir. İnf. 1.2.3., Riy. 5.1.1., 5.2.1. | 4.3.2. Qəzalardan mühafizə vasitələrindən istifadə qaydalarını şərh edir. İnf. 1.2.2., 2.2.3. | 4.3.2. Qəza zamanı ilkin tibbi yardım barədə biliklərini şərh edir. Tex. 3.1.1., A-d. 2.1.1., Riy. 5.1.1., 5.2.2. |
| 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə su, qum, respiratordan istifadə bacarıqları nümayiş etdirir. | 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə (zəlzələ, subasma, yanğın, partlayış təhlükəsi zamanı həyəcan siqnalı) özünümühafizə bacarıqları nümayiş etdirir. Riy. 5.2.1., 5.2.2. | 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə (əleyhqaz, yanğınsöndürmə balonu) özünümühafizə bacarıqları nümayiş etdirir. İnf. 2.2.2., Riy. 5.1.1., 5.2.2. | 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir. İnf. 2.1.4., Riy. 5.2.1. |

## Fənndaxili və fənlərarası inteqrasiya

| № | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif |
|---|---|---|---|---|---|
| **1. Təbiət və biz** | | | | | |
| 1.1. | ***Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.*** | | | | |
| 1.1.1. | Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir. | Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir. | Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir. A-t. 1.1.1. K. 1.1.1. | Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır. K. 1.2.1. | Dünyanın dərk olunmasında elmi və dini dünyagörüşləri şərh edir. A-t. 1.1.1. |
| 1.2. | ***Ekoloji tarazlığın qorunub saxlanmasına dair bilik və bacarıqlar nümayiş etdirir.*** | | | | |
| 1.2.1. | Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır. | İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir. A-t. 2.1.1. | İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir. A-t. 1.3.1. | Ekoloji tarazlığın qorunması və bərpasına dair layihələr hazırlayır. | Qlobal ekoloji problemlərin həllinə dair təqdimat və layihələr |

| | | | | | |
|---|---|---|---|---|---|
| | A-t. 2.1.1 | B. 3.1.2.<br>C. 3.2.3. | | K.4.2.1.<br>C. 3.1.2<br>B. 4.2.1, 4.2.2. | hazırlayır.<br>C. 3.2.1.<br>K. 4.2.1.<br>B. 4.1.1. |
| **2. Fərd və cəmiyyət** | | | | | |
| 2.1. | ***Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.*** | | | | |
| 2.1.1. | Cəmiyyətin sosial tərkibini izah edir.<br>A-t. 1.3.1. | Cəmiyyətin idarə olunmasını şərh edir.<br>Ü-t. 3.1.1. | Cəmiyyətin idarəetmə formalarını fərqləndirir.<br>Ü-t. 3.1.1. | Cəmiyyətin inkişafında sahələrarası inteqrasiyanın əhəmiyyətini əsaslandırır.<br>A-t. 1.3.1, 2.1.1. | İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir.<br>Az-t. 2.1.1. |
| 2.1.2. | Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid siyasi təşkilat kimi izah edir.<br>A-t. 3.1.1. | Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir.<br>A-t. 3.1.1, 3.1.2. | Dövlətin idaretmə formalarını fərqləndirir.<br>A-t. 3.1.2. | Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsini əsaslandırır.<br>A-t. 3.1.1. | Vətəndaş cəmiyyətinin formalaşması və inkişafında demokratik dəyərlərin rolunu qiymətləndirir. |
| 2.2. | ***Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.*** | | | | |
| 2.2.1. | İnsan hüquqlarını müdafiə edən qurumları fərqləndirir. | İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir. | Hüquq sahələrini fərqləndirir. | Əsas insan hüquqlarını fərqləndirir. | Əsas insan hüquqlarının beynəlxalq hüquq normalarında təsbit olunduğunu əsaslandırır. |
| 2.2.2. | İnsan hüquqlarını müdafiə edən qurumlar haqqında topladığı materialları təqdim edir. | İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir. | Normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır. | Tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimatlar hazırlayır. | Beynəlxalq və Milli hüquqi sənədlərin əlaqəsinə dair təqdimat hazırlayır. |
| 2.3. | ***İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.*** | | | | |
| 2.3.1. | İqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir. | İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir. | Əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir. | İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimat hazırlayır. | İqtisadi səmərəliliyə dair kiçik layihələr hazırlayır və təqdim edir. |
| 3. Mənəviyyat | | | | | |
| 3.1. | ***Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.*** | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.1.1. | Ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir. | Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir. | Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir. | İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir. | Mədəniyyətlərarası münasibətlərdə tolerantlıq nümayiş etdirir. |
| 3.2. | **İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.** | | | | |
| 3.2.1. | Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir. | Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rolunu və əhəmiyyətini izah edir. | Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır. | İnsan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətinin əhəmiyyətini dəyərləndirir. | Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir.<br>A-t. 5.1.2.<br>Ü-t. 5.1.3. |
| 3.2.2. | Mənəvi borcun əhəmiyyətini izah edir.<br>A-t. 5.1.2. | Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir. | Varlıq və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir. | Vətən və dovlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir.<br>Az-t. 5.1.2. | Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir. |
| 3.3. | ***Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.*** | | | | |
| 3.3.1. | Dini inamların ümumi və fərqli cəhətlərini müqayisə edir. | Dini ibadət və mərasimləri müqayisə edir. | Dini əxlaqi dəyərlərin mədəniyyətlərin formalaşmasına təsirini şərh edir.<br>A-t. 5.1.2. | Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini əxlaqi dəyərlərin rolunu qiymətləndirir.<br>A-t. 5.1.2. | Müxtəlif dinlərə münasibətdə tolerantlıq nümayiş etdirir. |
| **4. Sağlamlıq və təhlükəsizlik** | | | | | |
| 4.1. | ***4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.*** | | | | |
| 4.1.1. | Sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir.<br>F-t. 12.1. | Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir.<br>F-t. 2.1.2. | Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır.<br>F-t. 1.1.1, 2.3.1.<br>B. 3.2.1. | Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir.<br>F-t. 1.1.2, 2.1.2,<br>B. 3.2.1. | Sağlam ailənin qurulmasında sağlam həyat tərzinin əhəmiyyətini dəyərləndirir.<br><br>F-t. 1.1.2. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | B. 3.2.1, 3.2.2. |
| 4.2. | ***Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.*** | | | | |
| 4.2.1. | Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir. | Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir. | Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir. | Təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir. | Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarından istifadənin əhəmiyyətini əsaslandırır. |
| 4.2.2. | Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir. | Yol nişanlarının təyinatına uyğun bacarıqlar nümayiş etdirir. | İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir. | Konkret situasiyalarda yol hərəkəti qaydalarından istifadə edir. | Yol hərəkətinə dair davranış mədəniyyəti nümayiş etdirir. |
| 4.3. | ***Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.*** | | | | |
| 4.3.1. | Fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir. | Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir. | Fövqəladə hadisələr zamanı ilkin yardım göstərir. | Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgəfəaliyyət bacarıqları nümayiş etdirir. | Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasına dair layihələr hazırlayır. |

*İxtisarlar.*

*Azərbaycan dili -A-d.*

*Ümumi taix - Ü-t.*

*Azərbaycan taix -A-t.*

*Biologiya - B.*

*Texnologiy --Tex.*

*İnformatika - İnf.*

*Riyaziyyat - Riy.*

*Coğrafiya - C.*

*Kimya – K..*

## II.Təlim strategiyaları

Təlim strategiyaları - müəllimin təlim prosesində istifadə etdiyi forma, metod və texnikaları əhatə edir. Bu vaxta qədər Azərbaycan pedaqoji ədəbiyyatında həmin anlayışdan istifadə edilmirdi. Lakin son vaxtlar təhsil islahatının həyata keçirildiyi bir dövrdə fənn kurikulumları hazırlanarkən təlim strategiyası anlayışına müraciət edilməyə başlanılmışdır.

Yeni kurikulumlarda təlim strategiyaları anlayışının işlənməsi və pedaqoji prosesin təşkiilində ondan daha səmərəli şəkildə istifadə olunması ilk növbədə əsas pedaqoji anlayışlardan biri kimi təhsilin müasir tələblər baxımından izahını tələb edir. Başqa sözlə, təhsilə təkcə nəticə, yaxud sadəcə proses kimi deyil, daha geniş məna çalarına malik ifadə tərzi kimi yanaşılması lazım gəlir.

İlk növbədə təhsilə dili, mentaliteti, milli keyfiyyətləri, adət-ənənələri özündə ehtiva edən dəyər kimi baxılır. Bu dəyərlərin formalaşmasında şəxsiyyətin istiqamətləndirilməsi, mədəniyyətlilik, kollektivçilik, sistemlilik, bütövlük əsas aparıcı prinsiplər kimi çıxış edir.

Özünəməxsus sistemə malik olan təhsil pillələri ilə mövcuddur. Gözlənilən nəticələri ilə fərqlənən bu pillələr bir-birini tamamlayır və ardıcıl sıralanmaqla təhsilin ümumi sistemini təşkil edir. Ona görə də təhsilə bir sistem kimi baxılır. Bu zaman demokratikləşmə, humanistləşmə, differensasiya, fərdiləşmə, sosiallaşdırma, variativlilik və inklüzivlik aparıcı prinsiplər kimi əsas rol oynayır.

Təhsil insanın sosiallaşma prosesində ümumbəşəri və milli dəyərlərə yiyələnməsini davamlı bir fəaliyyət kimi əhatə etdiyindən ona həm də proses kimi yanaşılır. Onun didaktik əsasını isə təbiətə müvafiqlik, praktiklik, istiqamətlilik, variativlik, mərhələlilik, fasiləsizlik və fərdi ehtiyacların nəzərə alınması təşkil edir.

Təhsil həm də bütövlükdə müəllim və şagird fəaliyyətinin yekunu olduğundan ona nəticə kimi baxılır. O bütöv bir mərhələli prosesin sonu kimi dəyərləndirilir.

Yeni fənn kurikulumlarında təlim strategiyaları aşağıdakı məsələləri əhatə edir:

*pedoqoji prosesin təşkili prinsipləri

*fənn üzrə təlimin planlaşdırılması

*təlimin təşkilində istifadə olunan forma və üsullar

## 2.1. Həyat bilgisi təliminin təşkilinə verilən əsas tələblər

Təlim prosesi daim ardıcıl olaraq inkişaf edir, müxtəlif zamanlarda özünəməxsus xarakter kəsb edir. Şəxsiyyətyönümlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan müəllim və şagirdlərin funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Müəllim kurikulumlara uyğun inteqrasiya olunmuş planlarla yanaşı, yeni texnologiyalar hazırlayır, yaxud mövcud olanların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında müəllim və şagird şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt+subyekt" formulasına uyğun üfüqi istiqamətdə qurulur. Bu zaman şagirdlər öz təfəkkürünün, düşüncəsinin, müəllimlər isə şagirdin inkişafı üçün şəraitin təşkilatçısı olur. Müəllimlərin rəhbərlik funksiyası dəyişir, informasiya vermək sahəsindəki fəaliyyəti məhdudlaşır. O daha çox sinif şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətci kimi şagirdlərin müstəqil idraki fəaliyyətini, fəal yaradıcılığını təşkil edən subyektə çevrilir. Pedaqoji prosesin düzgün qurulmasında mühüm didaktik prinsiplərə istinad olunur.Yeni kurikulumlara uyğun pedoqoji prosesin təşkilində aşağıdakı prinsipləin əsas götürülməsi zəruri hesab edilir:

**pedaqoji prosesin tamlığı -** pedaqoji prosesdə təlim məqsədləri kompleks (inkişafetdirici, öyrədici, tərbiyəedici) həyata keçirilir, real nəticələrlə yekunlaşan müəllim və şagird fəaliyyətini əhatə edir;

**təlimdə bərabər imkanların yaradılması -** bütün şagirdlərə eyni təlim şəraiti yaradılır və pedaqoji proses onların potensial imkanları nəzərə alınmaqla tənzimlənir;

**şagirdyönümlülük -** şagird pedaqoji prosesin mərkəzində dayanır. Bütün tədris və təlim işi şagirdlərin maraq və tələbatlarının ödənilməsinə, onların istedad və qabiliyyətlərinin, potensial imkanlarının inkişafına yönəldilir;

**inkişafyönümlülük - ş**agirdlərin idrak fəallığı izlənilir, nailiyyətləri təhlil edilir, bilik, bacarıq və vərdişlərinin inkişaf səviyyəsi tənzimlənir;

**fəaliyyətin stimullaşdırılması -** pedaqoji prosesin səmərəli və effektiv qurulması, şagirdlərin təlimə marağının artırılması üçün onların fəaliyyətindəki bütün irəliləyişlər qeyd olunur və dəyərləndirilir, nəticə etibarı ilə şagirdlərin daha uğurlu təlim nəticələrinə istiqamətləndirilməsi təmin olunur;

**dəstəkləyici mühitin yaradılması -** pedaqoji prosesin münasib maddi-texniki baza əsasında və sağlam mənəvi-psixoloji mühitdə təşkil edilməsi keyfiyyətin və səmərəliliyin yüksəldilməsi üçün əlverişli və təhlükəsiz təlim şəraiti yaradır.

Ayrı-ayrı fənlərin təlimində bu prinsiplərlə yanaşı xüsusi metodik prinsiplərin də müəyyən olunması didaktik cəhətdən əhəmiyyətli hesab edilir.

## 2.2 Həyat bilgisi təliminin təşkilində istifadə olunan forma və üsullar barədə

Standartlar nəticəyönümlü və şagirdyönümlü olduğundan onların reallaşdırılmasında fəal təlim metodlarından istifadə edilməsi məqsədəuyğun hesab edilir. Fəal təlim şagirdlərin idrak fəaliyyətinə əsaslanan və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilən təlimi nəzərdə tutur. Şagirdlərin parta arxasında oturaraq kitab oxuması, iş vərəqlərini doldurması, müəllimi dinləməsilə yanaşı, eyni zamanda kitabxanada, kompüterdə qrup və ya fərdi şəkildə fəaliyyət göstərməsi onun əsas əlamətlərindən hesab edilir. Fəal təlim müasir şəraitdə pedaqoji prosesin qurulmasına yeni yanaşmadır. Belə yanaşma tərzində təlim şagirdlərin təkcə yaddaşının yeni elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün inkişaf etdirilməsinə, ən mühüm bacarıq və vərdişlərin əldə

olunmasına yönəldilir. Bu zaman şagirdlər açıq sual vermək, problemləri araşdırmaq, tədqiqat aparmaq və müzakirə etmək imkanı qazanırlar. Onlar təlim materiallarının mənimsənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, nəticə çıxarmağı, ümumiləşdirmələr aparmağı öyrənirlər. Beləliklə, uşaqlar həm tədris, həm də sosial xarakterli problemlərin müstəqil həllinə cəlb olunur, müxtəlif informasiya mənbələrindən istifadə edir, sistematik olaraq müstəqil şəkildə bilik ehtiyatını artırırlar.

***Fəal təlim metodlarının xarakterik xüsusiyyətləri:***

1. Diqqət ilk növbədə şagird şəxsiyyətinin formalaşdırılmasına yönəlir.
2. Müəllim təlim fəaliyyətinin əlaqələndiricisi, şagirdlərin bələdçisi və köməkçisi kimi çıxış edir.
3. Problemin həlli prosesində şagirdlər fəal tədqiqatçı olur.
4. Bilik və bacarıqlar şagirdlər tərəfindən müstəqil əldə edilir.
5. Müəllim - şagird, şagird - şagird arasında əməkdaşlıq üçün şərait yaranır.
6. Dərslərin inteqrativ təşkilinə üstünlük verilir.
7. Qeyri-standart dərslərin tətbiqinə geniş yer verilir.

***Həyat bilgisi fənn kurikulumunun reallaşdırılmasında fəal dərsin mərhələləri:***

**I mərhələ: motivasiya, problemin qoyulması**

“Həyat bilgisi” fənninin tədrisi prosesndə hər bir tədqiqat problemi müəyyənləşdirməklə başlayır. Əsl problem həmişə çoxsaylı fərziyyələr, ehtimallar doğurur və bunları yoxlamaq üçün ilk növbədə tədqiqat sualının formalaşdırılması lazım gəlir. Çünki tədqiqat sualı yeni biliklərin kəşf olunmasında bələdçi kimi çıxış edir.

Bu mərhələ şagirdləri düşünməyə, idraki fəallığa sövq etdiyindən həm də **motivasiya** adlandırılır. Bu prosesdə uşaq öz fikrini "Zənnimcə", "Mənə belə gəlir ki", "Mən belə hesab edirəm ki" sözlərindən istifadə etməklə ifadə edir.

"Həyat bilgisi" fənnində motivasiyanın uğurlu alınması üçün aşağıdakı şərtlərə əməl olunması tövsiyə edilir:

1. Motivasiya üçün seçilən material qeyri-adi, maraqlı olmalı;
2. Fərziyyələri yoxlamaq, tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməli;
3. Müəllim şagirdlərə yönəldici suallar verməli, fərziyyələri irəli sürərkən onları həvəsləndirməli;
4. Tədqiqat sualı təlim standartlarına əsasən müəyyənləşdirilməli və dərsin məqsədinə yönəldilməli.
5. Müxtəlif audio-vizual vasitələrlə şagirdlərin diqqətini çəkərək maraq oyatmalıdir.

**II mərhələ: tədqiqatın aparılması**

Dərsin məqsədinə və tədqiqat sualına uyğun iş üsulları seçilir. Tədqiqat sualına cavab verməyə kömək edəcək faktları tapmaq üçün məqsədyönlü iş aparılır. Şagirdlərə müxtəlif çalışmalar verilir. Beləliklə, tədqiqat sualına cavab tapmaq üçün zəmin yaranır. Toplanmış faktlar əsasında təqdimatlar hazırlanır.

***Tədqiqatın nəticələri aşağıdakı təqdimat formalarında ümumiləşdirilir.***

- təsvirlər, əsərlər, esseler;
- sxemlər, cədvəllər, qrafiklər;
- illustrasiyalar, kitablar, qəzetlər;
- atalar sözləri, zərbi-məsələlər,
- təcrübələr, eksperimentlər;
- maketlər, modellər, rəmzlər;
- layihələr;
- qaydalar, qanunauyğunluqlar;
- səhnələşdirmələr;
- referatlar;

- krossvordlar, rebuslar və s.

Tədqiqat müxtəlif formalarda: böyük, kiçik qruplarda, cütlük şəklində və fərdi qaydada aparıla bilər.

**III mərhələ: informasiya mübadiləsi**

“Həyat bilgisi” fənnindən verilmiş problemə aid tədqiqat üçün ayrılmış vaxt bitdikdən sonra müəllim tapşırığın icrasının başa çatdığını bildirir. Bundan sonra şagirdlər informasiyanın təqdimatına başlayır, əldə etdikləri yeni informasiyaları digər iştirakçılarla bölüşürlər. Həmin təqdimatların əks olunduğu iş vərəqləri lövhədən asılır.

**IV mərhələ: informasiyanın müzakirəsi və təşkili.**

Mövcud mərhələnin məqsədi yeni əldə edilmiş informasiyanı sistemləşdirmək və qrupların hazırladıqları təqdimatlar arasındakı əlaqəni üzə çıxarmaqdır.

Bu mərhələdə müəllim köməkçi suallardan istifadə etməklə əldə olunmuş faktların məqsədyönlü müzakirəsini təşkil edir. Məlumat sxem, qrafik, cədvəl, təsnifat və s. formalarda təqdimatlar dinlənilir. Nəticədə tədqiqat sualına cavab aydınlaşır.

Müzakirə prosesində müəllim öz fikirlərini şagirdlərə zorla qəbul etdirməməlidir. Onlara düzgün istiqamət verməklə düzgün nəticəni əldə etməyə nail olmalıdır.

**V mərhələ: nəticə və ümumiləşdirmə**

Aparılan tədqiqatdan sonra nəticəyə gəlmək üçün müəllim şagirdlərin köməyi ilə yeni bilikləri, əldə edilmiş ideyanı tədqiqat sualı ilə (o bu suala cavab verirmi?) və şagirdlərin ilkin fərziyyələri ilə (bunların arasında düzgün olanları varmı?) müqayisə edərək ümumiləşdirir.

**VI mərhələ. yaradıcı tətbiqetmə ev tapşırıqları**

“Həyat bilgisi” fənnində yaradıcı tətbiqetmə biliyi möhkəmləndirir, onun praktiki əhəmiyyətini artırır. Bu məqsədlə şagirdlərə həyatla əlaqəli praktik tapşırıqlar verilir. Əgər yaradıcı tətbiqetməni dərhal icra etmək mümkün olmursa, o sonrakı dərslərdə həyata keçirilir.

Dərsdə alınmış bilik, bacarıq və vərdişlərin möhkəmləndirilməsi üçün ən geniş yayılmış sərbəst iş forması ev tapşırıqlarıdır. “Həyat bilgisi” fənni həyatla əlaqədar olduğu üçün digər fənlərdən fərqli olaraq bu fəndə ev tapşrıqları daha çox önə çəkilir. Şagirdlərin gündəlik həyatda rastlaşdıqları hadisə və proseslər ev tapşırıqlarında öz əksini tapır. Fəal təlim prosesində belə tapşırıqlardan istifadə zəruridir. Onların daha çox tədqiqat və yaradıcılıq elementləri (müxtəlif yaradıcı işlər, referatlar, layihələr, tədqiqatlar və s.) ilə zəngin olmasına diqqət yetirilir.

**Qiymətləndirmə**

Qiymətləndirmə şagirdlərin təlimdəki nailiyyətlərinin dəyərləndirilməsi prosesidir. Qiymətləndirmə konkret meyarlar üzrə aparılmalıdır. Müəllim şagirdləri əvvəlcədən bu meyarlarla tanış etməlidir.

**Refleksiya**

Refleksiya – təlim prosesinin bütün mərhələlərini təhlil etməyə və onu dərindən başa düşməyə imkan verir.

Sagirdlərə dərs zamanı təlim fəaliyyətini izləməyə kömək edə biləcək bir neçə sual verməklə (məsələn: biz nəticəyə necə gəlib çıxdıq? Biz nə etdik? Qarşıya qoyulmuş problemin həllində sizə nə kömək etdi? və s.) onların fikirlərini sistemləşdirmək mumkün olur. Nəticədə şagird öz tədqiqat fəaliyyətinin əsas mərhələlərini bir daha nəzərdən keçirir.

**İş formaları**

“Həyat bilgisi” fənninin tədrisi prosesində müxtəlif iş formalarından istifadə edilməsi məqsədəuyğundur. İş formaları dedikdə fərdi, cütlərlə, qruplarla və kollektivlə iş nəzərdə tutulur. Qruplarla və cütlərlə iş fəal təlim formaları hesab edilir.

***Fərdi iş***

Həyat bilgisi fənninin tədrisi zamanı fərdi olaraq şagirdlərin işə cəlb olunması, onların fərdi imkanlarının üzə çıxaılması üçün əlverişli formadır. Bəzən fəal təlimdə qrup və cütlərlə işə geniş yer ayrıldığından ehtiyac duyulur ki, fərdi işlərə də yer ayrılsın.

***Cütlərlə iş***

“Həyat bilgisi” fənninin tədrisi zamanı verilən tapşırıqlara uyğun olaraq dərs prosesində şagirdlər iki-iki qruplaşaraq təlim tapşırıqlarının yerinə yetrilməsində birgə fəaliyyət göstərirlər. Bu halda onlar bir-birini daha yaxşı başa düşür, əməkdaşlıq edir və məsuliyyətlərini dərk edirlər.

***Qruplarla iş***

Şagirdlər (3-6 nəfər) kiçik qrupda birləşir və hər hansı problemi həll etmək üçün birgə fəaliyyətə cəlb olunurlar. Məsələn, yol hərəkət qaydalarına aid qruplara tapşırıq verilir. Şagirdlər tapşırıqla əlaqədar öz fikirlərini söyləyirlər. Bu iş forması eyni zamanda başqalarını dinləməyə, özünün və digərlərinin işini qiymətləndirilməyə imkan yaradır. Bundan əlavə onlar eyni bir məsələ ilə bağlı müxtəlif baxış və yanaşmaların olması barədə təsəvvürə yiyələnirlər.

***Kollektiv iş***

Həyat bilgisi fənninin tədrisi zamanı tətbiqinə ehtiyac duyulan formalardan biri də kollektiv işdir. Kollektiv işin tətbiqində bütün sinif problemin həllinə cəlb olunaraq müxtəlif fərziyyələr irəli sürür. Təfəkkürün inkişafına imkan yaradan bu proses həmçinin kollektivdə işləmə bacarığı formalaşdırılır.

***Fəal təlim üsulları***

“Həyat bilgisi” fənninin tədrisi zamanı istifadə olunan üsullar təlim strategiyalarının qurulmasında və təhsilin həyata keçirilməsində əhəmiyyətli yer tutur. Təlim prosesində fəal təlimin müxtəlif növlərindən; BİBÖ, beyin həmləsi, klaster (şaxələndirmə), anlayışın çıxarılması, söz assosasiyaları, müzakirə, akvarium, rollar üzrə oyun, Venn diaqramı, layihələrin hazırlanması və s.istifadə olunur.

Həyat bilgisi fənninin tədrisi zamanı tətbiqi mümkün olan üsullar vardır ki, bu üsullar aşağıdaklardır:

**Beyin həmləsi**

“Həyat bilgisi” fənninin tədrisi zamanı şagirdlərdə yeni mövzuya maraq oyatmaq, habelə onların nəyi yaxşı və ya pis bildiklərini aydınlaşdırmaq məqsədilə beyin həmləsindən istifadə olunur. Bunu əqli hücum da adlandırılır. Hazırlanmış sual lövhədə yazılır, yaxud şifahi şəkildə şagirdlərin diqqətinə çatdırılır. Şagirdlər suallara əsasən fikirlərini bildirirlər. İdeyalar şərhsiz və müzakirəsiz lövhədə yazılır. Sonra söylənilmiş ideyaların müzakirəsi, şərhi və təsnifatı aparılır. Əsas ideyalar yekunlaşdırılır, şagirdlər söylənmiş fikirləri təhlil edir və qiymətləndirir.

**BİBÖ (KWL)**

**BİBÖ – Bilirəm/İstəyirəm bilim/Öyrəndim**

“Həyat bilgisi fənnində BİBÖ üsulu aşağıdakı mərhələlər üzrə aparılır:

1. Məqsədə görə problem müəllim tərəfindən elan edilir.

2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: – Bilirəm/İstəyirəm bilim/Öyrəndim




3. Şagirdlər problemlə bağlı bildiklərini söyləyir və cavablar birinci sütunda qeyd olunur.

4. İkinci sütuna həmin məsələ ilə bağlı bilmək istədikləri yazılır.

5. Üçüncü sütuna dərsin sonunda mövzu ilə bağlı öyrəndikləri qeyd edilir.

**Suallar**

“Həyat bilgisi” fənninin tədrisində suallar şagirdin qazandığı bilik və bacarıqları sistemləşdirməyə xidmət edir, dərs prosesində tədqiqatların səmərəli qurulmasını stimullaşdırır. Bu isə şagirdlərin idrak fəallığının artırılmasında böyük rol oynayır.

Sualların sayı sinfin səviyyəsinə görə 4-5 arasında və daha artıq ola bilər. Sualların qoyuluşu məntiqi təfəkkürün inkişafına doğru yönəldilməli, ardıcıllıq gözlənilməlidir.

**Mühazirə**

“Həyat bilgisi” fənninin tədrisində mühazirə üsulundan qoyulmuş problemlə bağlı şağirdin təsəvvürünün genişləndirilməsi, problemin həllinin ən asan, ən qısa yolunun izahı və məqsədə çatmaq üçün müraciət ediləcək mənbələri tanıtmaq üçün istifadə edilir. Mühazirələr 10-15 dəqiqə ərzində aparılır.

Mühazirə deyərkən aşağıdakıları nəzərə almaq tövsiyə edilir:

- Mühazirənin məqsəd və vəzifələrini dəqiq müəyyənləşdirmək,
- Plan tərtib etmək və onu şagirdlərə paylamaq (və ya lövhədə yazmaq).
- Əyani və texniki vasitələrdən istifadə etmək.

Müəllim mühazirə prosesini verbal (suallar vermək) və vizual (şagirdlərin üz ifadəsini və jestlərini müşahidə etmək) olaraq tənzimləməlidir.

**Anlayışın çıxarılması**

Bu üsul “Həyat bilgisi” fənninin tədrisi zamanı maraq doğuran üsullardan biri kimi götrülə bilər. Oyun-tapmaca formasında keçirilən bu üsul şagirdlərdə yüksək fəallıq yaradır. Müəllim lövhədə dairəvi kart asır, onun arxasında şagirdlərdən tələb olunan anlayışı yazır. Kartın yazı olmayan tərəfini şagirdlərə göstərir və gizlədilmiş anlayışların xüsusiyyətlərinə aid 2 və ya 3 yönəldici söz sadalayır və ya yazır. Şagirdlər həmin xüsusiyyətlərə uyğun olaraq gizlədilmiş anlayışı tapırlar.

Əgər şagirdlər anlayışı tapmaqda çətinlik çəksələr, müəllim əlavə olaraq yeni xüsusiyyətlər sadalayır.

Şagirdlər öz fərziyyələrini dedikdən sonra müəllim bu tapmacanın tapılıb-tapılmamasını hamıya çatdırır və kartoçkalarda yazılan sözləri açıqlayır.

**Söz assosiasiyaları**

"Həyat bilgisi" fənninin tədrisində bu üsuldan istifadə edilərkən öyrəniləcək mövzuya aid əsas söz (və ya söz birləşməsi) lövhəyə yazılır. Şagirdlər həmin söz ilə bağlı ilk xatırladıqları fikirləri söyləyir və həmin fikirlər müəllim tərəfindən lövhəyə yazılır. Mövzu ilə bağlı olan sözlər deyilən fikirlərin arasından seçilir və əlaqələndirilir, onlardan anlayış və yaxud ideya çıxarılır. Bu anlayış əsasında yeni materialın öyrənilməsinə başlanır. Bu üsul həm də şifahi formada tətbiq edilə bilər.

**Müzakirə**

"Həyat bilgisi" fənninin tədrisində müzakirə mövzu ətrafında ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şıfahi nitqini inkişaf etdirir.

Müzakirə apararkən əvvəlcədən şagirdlərə müzakirə qaydaları xatırladılır. Mövzu aydın şəkildə ifadə olunur. Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "Bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid "Nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Siz bu şəraitdə nə hiss edərdiniz? Bu, düzgün hərəkətdirmi? Nə üçün belə düşünürsünüz?" və bu kimi suallardan istifadə olunur.

**Akvarium**

Bu üsulun məqsədi diskussiya vərdişlərini inkişaf etdirməkdir. "Həyat bilgisi" fənninin tədrisində akvarium bir neçə variantda keçirilə bilər.

***"Akvarium"un keçirilməsinin 1-ci variantı:***

Şagirdlərin köməyi ilə diskussiya aparmaq qaydaları (məsələn, reqlamentə əməl etmək, bir-birinin sözünü kəsməmək və.s) müəyyən edilir. Şagirdlər 2 qrupa bölünür. Bir qrup dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi problemi müzakirə edir. Dairədən kənardakı stullarda əyləşmiş digər qrup isə diskussiyanın müəyyən edilmiş qaydalara uyğun aparıldığını müşahidə edir.

Müəyyən olunmuş mövzu üzrə birinci qrup diskussiya aparır. 10-15 dəqiqədən sonra diskussiya dayandırılır, "xarici dairənin" iştirakçıları diskussiyanın gedişini qiymətləndirir və qruplar yerini dəyişərək bu və ya digər problemin müzakirəsini davam etdirirlər.

***"Akvarium" un keçirilməsinin 2-ci variantı:***

"Daxili dairənin" iştirakçıları müəllimin təklif etdiyi problemi müzakirə edir və birinci variantdan fərqli olaraq iştirakçılar bu zaman yalnız problemin "lehinə" olan dəlilləri söyləyirlər.

Digər qrupun üzvləri xarici dairədə stullarda əyləşirlər, dəlilləri dinləyir, yazıya alır, təhlil edir, öz əks dəlillərini hazırlayırlar. 15-20 dəqiqədən sonra diskussiya dayandırılır, xarici və daxili dairədən olan şagirdlər öz yerlərini dəyişirlər. Onlar əvvəlki iştirakçıların dəlillərini təkzib etmək üçün diskussiya aparırlar. Burada qrupların vahid fikrə gəlməsi önəmli deyil.

### Rollar üzrə oyun

"Həyat bilgisi" fənninin tədrisində rollar üzrə oyun hər hansı bir problemə müxtəlif nöqteyi-nəzərdən yanaşmağı tələb edir. Bu üsul şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözu ilə baxmaq imkanı verir.

Müəllim rollu oyunlardan istifadə edərkən əldə etmək istədiyi məqsədi, oyunun mövzusunu, ssenarisini və oyunda iştirak edəcək obrazları əvvəlcədən

müəyyənləşdirir, ifa olunacaq rolların mətni yazılmış kartlar hazırlayır. Rollar bölüşdürüldükdən sonra digər şagirdlərdən kimin aparıcı, kimin müşahidəçi olacağını planlaşdırır. Hazırlaşmaq üçün şagirdlərə vaxt verir. Oyun nümayiş etdirildikdən sonra müəllim qoyulmuş problemlə bağlı müzakirə təşkil edir.

**Venn diaqramı**



Əşya və ya hadisələri müqayisə etmək, onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün bu üsuldan "Həyat bilgisi" fənninin tədrisində istifadə olunur.

***Venn diaqramından istifadə prosesi aşağıdakı mərhələlər üzrə aparılır.***

1. Müqayisə olunacaq əşya və hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün yer saxlanır).
3. I və III dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
4. Şagirdlər təlimatlandırılır (təlimatda nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd olunacağı barədə danışılır).
5. Müqayisə olunan obyektlər təsvir edilir: (fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd olunur).
6. Müqayisə nəticəsində fikirlər ümumiləşdirilir.

**Layihələrin hazırlanması**

Layihələrin hazırlanması müxtəlıf mövzuların müstəqil şəkildə tədqiq edilməsidir. Şagirdlər öz layihələrini təqdim etməzdən əvvəl uzun müddət onun üzərində işləyirlər. Layihələr şagirdlərin tədqiqat vərdişlərinin, biliklərə müstəqil

yiyələnmə bacarıqlarının formalaşmasında mühüm rol oynayır, onlara müstəqil şəkildə öz fəaliyyət proqramlarını qurmağa, habelə öz vaxtını və işini qrafik üzrə planlaşdırmağa kömək edir. "Həyat bilgisi" fənninin tədrisində bu üsul şagirdlərin bir-biri ilə, eləcə də məktəbdən kənarda müxtəlif adamlarla qarşılıqlı əlaqəsi üçün şərait yaradır, hadisələrin hər hansı bir aspektini daha dərindən anlamağa imkan verir, əlavə ədəbiyyatdan istifadə etməyə istiqamətləndirir.

Layihələr hazırlayarkən müəllim mövzu və ya problemi müəyyən edir və sinfə bunlardan birini seçmək imkanı verir.

Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin başlama və başa çatma müddətini, istifadə olunacaq əyani vasitələri (ədəbiyyatlar, mənbələr, təsviri vasitələr və s.) bunları əldə etmək yollarını, iş formalarını (fərdi yoxsa, qrup şəklində) müəyyən edirlər.

İş prosesində müəllim suallara cavab verə və ya yol göstərə bilər. İşin icrasına isə şagirdlər özü cavabdehdir.

Tədqiqatın nəticəsi hesabat, xəritə, illüstrasiya, fotoşəkillər cədvəllər, qrafiklər, formasında ifadə oluna bilər.

**Sorğu vərəqləri və müsahibə**

Bu üsullar **a**raşdırılan məsələ ilə bağlı fakt və hadisələr haqqında müəyyən qrupların ictimai rəyini öyrənmək məqsədilə aparılır.

<u>Sorğu vərəqi</u> "Həyat bilgisi" fənninin tədrisində **a**raşdırılan məsələ ilə bağlı tərtib edilir və burada suallar qoyulur. Sorğuda iştirak edənlər bu vərəqi müstəqil doldurur.

<u>Müsahibə</u> isə **a**raşdırılan məsələ ilə bağlı məlumat almaq üçün aparılır.

Bu üsullardan istifadə edərkən aşağıdakı mərhələlər gözlənilərsə daha doğru olar:

1. Problemi müəyyən etmək
2. İşi təşkil etmək (Sorğu və ya müsahibə keçirmək üçün suallar hazırlamaq)
3. Məlumatları toplamaq ( Sualların cavablarını toplamaq).
4. Əldə edilmiş məlumatları təhlil etmək və ümumləşdirmək

**“Qərarlar ağacı”**

“Həyat bilgisi” fənninin tədrisində bu üsul qərarların qəbul edilməsi zamanı alternativ yolları araşdırmaq və təhlil etmək məqsədi daşıyır.

Müzakirə olunacaq problem müəllim tərəfindən izah edilir və onun həlli yollarının bir neçə variantı şagirdlərlə birlikdə müəyyənləşdirilır. 4-6 nəfərdən ibarət qruplarda şagirdlər problemin həlli yollarının üstünlüklərini və çatışmazlıqlarını təhlil edir, onları “+”, və ya “-” işarəsinin qarşısında müvafiq qaydada qeyd edirlər. Son nəticə cədvəlin qərar hissəsində yazılır və üstü örtülür.

Bütün qrupların təqdimatından sonra müəllim əldə olunmuş nəticələri ümumiləşdirmək üçün müzakirə aparır.

**Problemli vəziyyət**

Bu üsulun tətbiqi “Həyat bilgisi” fənninin tədrisində tənqidi təfəkkürü, təhliletmə və ümumiləşdirmə vərdişlərini inkişaf etdirir.

Müəllim əvvəlcədən “Həyat bilgisi” fənninə aid problemi və müzakirə üçün sualları hazırlayır. Şagirdlər 4-5 nəfərlik qruplara bölünür. Problemli vəziyyət əks olunmuş iş vərəqləri uşaqlara paylanır. Hər qrup təklif edilən vəziyyətlərdən birini müzakirə edir və həlli yolunu göstərir. Qruplar öz işlərini bitirdikdən sonra sinifdə ümumi müzakirə aparılır.

Yerli şəraitə, zamana, məkana, mövzuya və məqsədə görə “Həyat bilgisi” fənninin tədrisində daha başqa üsullardan da istifadə edilə bilər.

## 2.3. Müəllimin təlim fəaliyyətinin planlaşdırmasına dair nümunələr

Həyat bilgisi fənninin tədrisində illik planlaşdırma müəllimlərin qarşısında duran ən mühüm vəzifədir. Planlaşdırma əsas məqsədləri müəyyənləşdirmək və onlara nail olmaq üçün müəllimlərin fəaliyyət istiqamətidir. Perespektiv və ya illik planlaşdırmada tədris vahidinin nə zaman

və hansı ardıcıllıqla tədris ediləcəyi göstərilir. Eyni zamanda hər fəslə ayrılacaq vaxtı müəyyənləşdirilir. Fənnin planlaşdırılması ardıcıllığı aşağıdakı kimidir:

1. Tədris ediləcək tədris vahidlərini məzmun standartlarına əsasən müəyyən etmək

2. Tədris vahidlərinin ardıcıllıq prinsiplərini müəyyənləşdirmək. (Tədris vahidlərinin ardıcıllıqla müəyyənləşdirilməsi dedikdə, didaktik tələblərə əməl edilir: məzmunun ardıcıllığı (asandan çətinə doğru), xronoloji ardıcıllıq (zaman ardıcıllığı), məntiqi ardıcıllıq (əvvəlcə o anlayışlar öyrədilir ki, onlar növbəti anlayışların açılmasında mühüm əhəmiyyət daşıyır) nəzərdə tutulur.

3. Mövzuları seçmərək ardıcılığı qorumaq.

4. İnteqrasiya imkanlarını nəzərə almaq.

5. İstifadə ediləcək resusları nəzərə almaq.

6. Qiymətləndirməni müəyyən etmək.

7. Hər tədris vahidi üçün tədris planına əsasən vaxt bölgüsü aparmaq.

8. Keçiləcək mözunun tarixini müəyyən etmək.

Perespektiv planlaşdırma apararkən tədris vahidləri üçün vaxt bölgüsünü müəyyənləşdirərkən fənn üzrə illik dərs saatlarının ümumi sayı hesablanır. Hər tədris vahidinin əhəmiyyətliliyi və mürəkkəbliyi baxımından vaxt müəyyən edilir.

Hər bir halda şagird maraqlarını nəzərə almaq.

İllik planlaşdırma apararkən müəllim aşağıdakı sənədlərə istinad etməlıdir:

- Məzmun standartları
- Qiymətləndirmə standartları
- Tədris planı
- Dərslik (İstifadə olunacaq mətnlər və digər materiallar)
- Müəllim üçün vəsait

Təqvim planı tərtib edilərkən dərs ilinin həftələri, tədris ilində baş verəcək mühüm hadisələr (tarixi günlər) , tədris vahidlərinin və onlara daxil olan

mövzuların adı müəyyən edilir. Hər tədris vahidi və mövzu vasitəsilə reallaşdırılacaq məzmun standartları (alt-standartlar) seçilir, istifadə olunacaq mənbələr (resurslar) müəyyən edilir, hər mövzu üçün ayrılmış vaxt qeyd olunur.

| *Standart* | *Tədris vahidləri* | *Mövzu* | *İnteqrasiya* | *Resurslar* | *Qiymət-ləndirmə* | *Saat* | *Tarix* |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |
| | | | | | | | |

***V sinif Həyat bilgisi fənni üçün nəzərdə tutulmuş perespektiv plan nümunəsi.***

| *Standartlar* | *Tədris vahidləri* | *Mövzular* | *İnteqrasiya* | *Resurslar* | *Saat* |
|---|---|---|---|---|---|
| | **Cəmiyyət bu bizik** | | | | |
| 3.1.1. | | Hər şey ünsiyyətdən başlayır | A.d. 1.2.3; Riy. 5.1.3. | Dərslik, şəkillər, iş vərəqləri, video görüntü, paylayıcı material və s. | |
| 2.1.1. | | Ailə kiçik cəmiyyətdir | Az.t. 1.3.1. | İş vərəqləri, şəkillər, dərslik, paylayıcı material, metodik vəsait və s. | |
| 2.1.1. | | Mən də bir qrupdayam | Az.t. 1.3.1. | İş vərəqləri, şəkillər, dərslik, paylayıcı material və s. | |
| 2.1.1. | | Bir-birimizdən fərqliyik | Az.t. 1.3.1. | Dərslik, şəkillər, iş vərəqləri, video görüntü, paylayıcı material və s. | |
| **Kiçik summativ qiymətləndirmə** | | | | | |

Nümunəvi illik planlaşdırma əsasında müəllim fərdi olaraq gündəlik və ya həftəlik dərs planlaşdırması tərtib edir.

"Həyat bilgisi" fənninin tədrisi prosesində dərsi səmərəli təşkil etmək üçün ilk növbədə müəllimin planlaşdırma bacarığı olmalıdır. O, dərs dediyi fənn üzrə bütün mərhələləri aydın təsəvvür edə bilməli, onlara aid perspektiv və cari planlar hazırlamağı bacarmalıdır. Bu zaman aşağıdakı sualların cavablarını özü üçün konkretləşdirməlidir.

- Nə öyrəniləcək?
- Necə öyrəniləcək?
- Hansı şəraitdə öyrəniləcək?
- Nəticələr necə qiymətləndiriləcək?

Dərs planlaşdırılarkən hansı təlim standartının (standartlarının) reallaşdırılması müəyyənləşdirməli, ona (onlara) uyğun təlim məqsədi (təlim məqsədləri), müvafiq metod və vasitələr seçilməlidir.

"Həyat bilgisi" fənninin tədrisində dərsin planında aşağıdakıların nəzərə alınması didaktik cəhətdən əhəmiyyətli hesab edilir.

1. Mövzunu müəyyənləşdirmək.
2. Standartı konkretləşdirmək.
3. Dərsin məqsədini (məqsədlərini) müəyyən etmək.
4. Dərsin motivasiyasını işləyib hazırlamaq.
5. Tədqiqat sualını müəyyənləşdirmək.
6. Aparılacaq tədqiqatın mərhələlərini planlaşdırmaq və aşağıdakıları dəqiqləşdirmək lazımdır:

- Tədqiqat üçün tapşırıqları;
- İş üsulları və formalarını;
- Məlumat mənbələrini;

7. Müzakirə üçün sualları;
8. İdeyaları və alınacaq nəticələri qısaca ifadəsini;
9. Dərsin hər mərhələsinə sərf olunacaq vaxtı müəyyənləşdirməsini;
10. Qiymətləndirmə standartlarına əsasən vasitələr hazırlanmasını;

11. Dərs üçün lazım olan resursları (təchizatı)müəyyən edilməsini.

Bütün bunlara misal olaraq aşağıdakı gündəlik plan nümunələri tövsiyyələrə əsaslanaraq hazırlanmışdır.

## I sinif

**Mövzu:** Dinlər

**Standartlar:** 3.3.1 – Təsvirdə dini rəmzləri (*ibadətgahlar, nişanlar, dini kitablar, əşyalar*) fərqləndirir.

3.3.2 – Din haqqında ilkin təsəvvürlərini sadə şəkildə izah edir.

**Məqsədlər:**

1. Dinləri tanıyır.
2. Dinləri rəmzlərinə görə fərqləndirir.

**İnteqrasiya:** Azərbaycan dili 2.2.1

**Resurslar:** Dərslik, Quran, iş vərəqləri, şəkillər, kompyuter, proyektor

**İş forması:** qruplarla iş

**İş üsulları**: beyin həmləsi, söz assosiasiyası

**Motivasiya. Problemin qoyulması:** Şagirdlərdən hansı dinlərin adlarını bildiklərini, hansı ziyarətgahlarda, ibadətgahlarda olduqları soruşulur. Cavablar ümumiləşdirilir.

Ekranda dinlərə aid nümunələr nümayiş etdirilir.

Məscid



Kilsə



Sinaqoq



Buddizm məbədi



müsəlman



xristian



İudist




buddist



İSLAM DİNİ

RAMAZAN- MÜSƏLMANLARIN MÜQƏDDƏS BAYRAMI



İSLAM DİNİNİN MÜQƏDDƏS KİTABI



QURBAN- MÜSƏLMANLARIN MÜQƏDDƏS BAYRAMI



İSLAM DİNİNİN MÜQƏDDƏS ZİYARƏTGAHI



**Tədqiqat sualı: Dinlər hansı xüsusiyyətlərinə görə bir-birindən fərqlənir?**
**Dərslik üzrə iş:** Şagirdlərin nəzəri 46 – cı səhifəyə yönəlir. Buradan *“Din insanların Allaha ibadət yoludur.”* Həmin səhifədə olan şəkilərin mənasını sözlə izah edilir və qısa məlumat verilir. *Şagirdlər dini tanıyır, dinə sevginin Allaha olan sevgidən yarandığını əsaslandırır, din seçməkdə insanların sərbəst olduğunu bilir, dini rəmzləri fərqləndirirlər*
**Tədqiqatın aparılması:** Başqa dinlər haqqında suallar verilir, İslam dininin xüsusiyyətləri barədə danışılır. Hər qrup öz iş vərəqini alır və oradakı tapşırıqları yerinə yetirməyə başlayır.

**Ramazan qrupu**

1. Bildiyiniz dinlərin adını əlifba sırası ilə yazın.
______________________________
2. Bu simvol hansı dinə məxsusdur? 
______________________________
3. Dinimizin adı nədir? Dinimiz haqqında bildiklərinizi yazın.
______________________________
______________________________
______________________________

**Qurban qrupu**

1. Hansı dini ayinlərin mərasimlərin adını tanıyırsınız?
______________________________
2. İslam dininə görə:
Təbliğ olunur. Qadağandır.
______________ ______________
3. Verilmiş təsvir hansı dinə mənsubdur?



______________________________
______________________________
______________________________

**NUR qrupu**

1. Quran hansı dinin müqəddəs kitabıdır?
a) islam b) yəhudilik c) xristianlıq
2. Bu simvol hansı dinə məxsusdur?
______________________________
3. Dinimizin peyğəmbəri kimdir?



______________________________
______________________________
______________________________

**İnformasiya mübadiləsi:** Hər bir qrupun nümayəndəsi işi təqdim edir və izahat verilir.
**İnformasiyanın müzakirəsi və təşkili:** Şagirdlərə aşağıdakı suallar verilir.
1. İslam dininin rəmzləri hansılardır?
2. Xristian dininin rəmzləri hansılardır?
3. İudizm dininin rəmzləri hansılardır?
4.Onları ümumiləşdirən nədir?
**Nəticə və ümumiləşdirmə:** **Ş**agirdlər dinləri tanıyır, dini rəmzləri fərqləndirməyi bacarırlar.

**Qiymətləndirmə:** Qrupların işi cədvəldəki meyarlar əsasında qiymətləndirilir.

| QRUP<br>MEYARLAR | Ramazan | Qurban | Nur |
|---|---|---|---|
| Dinləri tanıyır. | | | |
| Dinləri rəmzlərinə görə fərqləndirmə | | | |
| Əməkdaşlıq | | | |
| Vaxtdan səmərəli istifadə etmə | | | |

**IV sinif**

**Mövzu: İstehlak**

**Standartlar:** 2.4.1. İstehlakçı hüquqlarının mahiyyətini sadə şəkildə şərh edir.

2.4.2. Hüquq və vəzifələri barədə kiçik təqdimatlar edir.

**Məqsəd:**

1. İstehsal, istehsalçı, istehlak və istehlakçı anlayışını izah edir.

2.. İstehlakçının hüquqlarını şərh edir.

3. İstehlakçının  hüquqları barədə təqdimat  edir.

**İnteqrasiya:** A-d.: 3.1.5.

**İş forması:** Kollektiv və qruplarla iş

**İş üsulu:** Beyin həmləsi, müzakirə

**Resurslar:** Dərslik, kompyuter, proyektor, marker, iş vərəqi.

**Motivasiya. Problemin qoyulması:**

Lövhəyə istehsal, istehsalçı, istehlak, istehsalçı sözləri yazılır. Şagirdlər bu suallar əsasında fikirlərini söyləyir. İstehsalla bağlı video kadrlar izlənilir.

Kadrda ağacların emalı, taxtadan qapı və pəncərələrin hazırlanması və mağazada satışı nümayiş etdirilir. Kadrdakı görüntülərlə bağlı şagirdlərlə sorğu aparılır:

-İzlədiyiniz video kadrlarda nə gördünüz?

Mövzunun adı ekranda nümayiş etdirilir: “İstehlak”.

**Tədqiqat sualı:**

İstehlakçının hansı hüquqları var və onları bilmək nə üçün lazımdır?

**Dərslik üzrə iş:**

Mətn şagirdlər tərəfindən oxunur. Suallar üzrə iş aparılır.

**Tədqiqatın aparılması:** Şagirdlər 4 qrupa bölünür. Qruplara iş vərəqləri paylanılır.

**İş vərəqi 1**




İstehlakçı hansı hüquqlara malikdir?

Dərslikdəki mətndən istifadə etməklə fikirlərinizi sxemin ətrafında qeyd edin.

**İş vərəqi 2**

İstehlakçı hansı hüquqlara malikdir?

Dərslikdəki mətndən istifadə etməklə fikirlərinizi sxemin ətrafında qeyd edin.



**İş vərəqi 3**

İstehlakçı cədvəldə qeyd olunan hallarla rastlaşdıqda hansı hüquqlardan istifadə edə bilər? Cavabları "İstehlakçının hüququ" qrafasına yazın.

| Problem | İstehlakçının hüququ |
|---|---|
| Çek verilmədikdə | |
| Əzilmiş əskinazlar qəbul edilmədikdə | |
| Sağlamlıq üçün zərərli ərzaq satıldıqda | |

**İş vərəqi 4**

İstehlakçı cədvəldə qeyd olunan hallarla rastlaşdıqda hansı hüquqlardan istifadə edə bilər? Cavabları "İstehlakçının hüququ" qrafasına yazın.

| Problem | İstehlakçının hüququ |
|---|---|
| Çek verilmədikdə | |
| Əzilmiş əskinazlar qəbul edilmədikdə | |
| Sağlamlıq üçün zərərli ərzaq satıldıqda | |

**İnformasiya mübadiləsi:** Qruplar işlərini təqdim edir.

**İnformasiyanın müzakirəsi və təşkili:** Qrup işləri müzakirə olunur.

**Nəticə və ümumiləşdirmə:** Tədqiqat sualına qayıdılır, cavablar ümumiləşdirilir və alınan nəticə şagirdlərlə birgə bir daha vurğulanır.

**Yaradıcı tətbiqetmə ev tapşırıqları:** Hər hansı bir məhsulun reklamını hazırlamaq

**Qiymətləndirmə:**

| **Meyarlar** | **I** | **II** | **III** | **IV** |
|---|---|---|---|---|
| **İstehsal, istehsalçı, istehlak və istehlakçı anlayışını izahetmə** | | | | |
| **İstehlakçının hüquqlarını şərh** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **etmə** | | | | |
| **İstehlakçının hüquqları barədə təqdimat etmə** | | | | |
| **Əməkdaşlıq** | | | | |
| **Vaxtdan səmərəli istifadə etmə** | | | | |
| **Yekun** | | | | |

**Formativ qiymətləndirmə müəyyən edilmiş meyarlara əsasən aparılır.**

**V sinif**

**Mövzu: Sağlamlıq**

**Standartlar:** 4.1.1. Sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir.

**Məqsəd:** Sağlamlığın özünəməxsus xüsusiyyətlərini fərqləndirir.

**İnteqrasiya:** *F.t. 1.2.1*.

**İş forması:** kollektiv v' qruplarla iş.

**İş üsulları:** Beyin həmləsi, suallar, müsahibə, müzakirə

R**esurslar:** V sinif üçün iş dəftəri, dərslik və ədəbiyyatlar, iş vərəqləri.

**Motivasiya, problemin qoyulması:** Müəllim lövhədə ayağı qırılmış bir insanın və sağlam olan insanın rəsmini göstərir.

**Tədqiqat sualı:** 1. Sağlamlığın bizim həyatımızda nə kimi faydası vardır?

**Tədqiqatın aparılması**: Şagirdlər 4 qrupa bölünür və onlara aşağıdakı suallardan ibarət iş vərəqləri verilir:

I qrup: Sağlamlığın mənəvi aspeklərini sadalayın.

II qrup: Sağlamlığın fiziki aspektini sadalayın.

III. qrup: Sağlamlığın emosianal aspektini sadalayın.

IV qrup: Sağlamlığın əsas şərtlərini sadalayın.

**İnformasiya mübadiləsi:** Qruplarla iş əsasında şagirdlər yazdıqlarına düzəlişlər edir, bəzi dəqiqləşmələr aparır.

**İnformasiyanın müzakirəsi və təşkili:** Suallar əsasında şagirdlər müzakirəyə başlayır.

**Nəticə və ümumiləşdirmə:** Nəticədə şagirdlər sağlamlığın özünəməxsus xüsusiyyətini fərqləndirir.

**Qiymətləndirmə:** Şagirdlər özünüqiymətləndirmə vərəqləri ilə qiymətləndirilir.

**Formativ qiymətləndirmə:**

***Meyar: Fərqləndirmə***

| **Zəif** | **orta** | **əla** |
|---|---|---|
| Sağlamlığın xüsusiyyətlərini müəyən edə bilmir | Sağlamlığın xüsusiyyətlərini qeri-dəqiq müəyyənləşdirir | Sağlamlığın özünəməxsus xüsusiyyətlərini fərqləndirir |

## VI sinif

**Mövzu: İnsan hüquqları**

**Standartlar:** 2.2.1.

**Məqsəd:** İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.

**İnteqrasiya:** Az-t. 2.1.1., C. 3.1.2., B. 3.1.2.

**İş forması:** kollektiv və qruplarla iş.

**İş üsulları:** Beyin həmləsi, BİBÖ, müzakirə

R**esurslar:** VI sinif üçün iş dəftəri, dərslik və ədəbiyyatlar, iş vərəqləri.

**Motivasiya. Problemin qoyulması**: Müəllim şagirdlərə hüquqlaı tapdanmış insanların həyatından qisa video çarx göstərir.

**Tədqiqat sualı:** İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti nədən ibarətdir?

**Tədqiqatın aparılması**: Şagirdlər 4 qrupa bölünür və onlara aşağıdakı suallardan ibarət sorğu vərəqləri verilir:

I qrup: İnsan hüquqlarını qoruyan qurumların adlarını sadalayaraq yerli təşkilatların rolu haqqında məlumat verin.

II qrup: İnsan hüquqlarını qoruyan qurumlar haqqında məlumat verin.

III. qrup: İnsan hüquqlrı qorunmazsa hansı fəsadlar ortaya çıxa bilər?

IV qrup: İnsan hüquqlarının qorunmasında beynəlxalq təşkilatların rolu haqqında məlumat verin.

**İnformasiya mübadiləsi:** Qruplarla iş əsasında şagirdlər yazdıqlarına düzəlişlər edir, bəzi dəqiqləşmələr aparır.

**İnformasiyanın müzakirəsi və təşkili:** Suallar əsasında şagirdlər müzakirəyə başlayır.

**Nəticə və ümumiləşdirmə:** Nəticədə şagirdlər insan hüquqlarının qorunmasının müsbət tərəflərini təsvir edirlər.

**Qiymətləndirmə:** Şagirdlər özünüqiymətləndirmə vərəqləri ilə qiymətləndirilir. Formativ qiymətləndirmə müəyyən edilmiş meyarlara əsasən aparılır.

**VI sinif**

**Mövzu:** ***YOL HƏRƏKƏTİ NİŞANLARI***

**Standart: 4.2.2.Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir.**

**İnteqrasiya:** *F-t. 2.1.2.*

**Məqsəd: 1.Yol nişanlarını tanıyır**

*2. Yol nişanlarını təyinatına görə qruplaşdırır*

*3. Yol nişanlarının əhəmiyyətini izah edir*

**İş forması: Kollektiv, qruplarla**

**İş üsulu: Müzakirə, beyin həmləsi**

**Resurslar: Dərslik, iş vərəqələri, yol nişanlarının şəkilləri**

**Dərsin gedişi:**

**Motivasiya. Problemin qoyulması:**

Müəllim lövhədən aşağıdakı şəkilləri göstərir və soruşur:

- Bunlar nədir?
- Bizə nəyə görə lazımdır?












**Tədqiqat sualı: Yol nişanlarının əhəmiyyəti nədir? Yol nişanlarının təyinatı nədir?**

**Tədqiqatın aparılması:** Sinif 3 kiçik qrupa bölünür. Onlara iş vərəqləri paylanır.

**I qrup: Hansı yol nişanlarını tanıyırsınız? Onları izah edin.**

| **Yol nişanları** | **İzahatı** |
|---|---|
| | |

**II qrup: Göstərilmiş yol nişanlarının əhəmiyyəti nədir?**

| | |
|---|---|
|  | |
|   | |
|  | |

**III qrup: Aşağıdakılardan sürücü və piyadalara aid olan nişanları qruplaşdırın.**


















**İnformasiya mübadiləsi:** Şagirdlər hazırladıqları təqdimatları mübadilə edir.

**İnformasiyanın müzakirəsi və təşkili:**

1. Yol nişanları nə üçün lazımdır?
2. Yol nişanlarının əhəmiyyəti nədir?
3. Yol nişanları olmazsa nə baş baş verər?

**Nəticə və ümumiləşdirmə***:* Müəllim şagirdlərlə birlikdə tədqiqat sualına və fərziyyələrə qaydır.

Şagirdlər müxtəlif yol nişanlarını, məsələn, keçmək qadağandır, təhlükəlidir, piyada keçidi, yeraltı keçid və s. bu kimi yol işarələrini tanıyır.

**Ev tapşırıqları:** "Qaydaları pozmayaq" mövzusunda esse yazın.

**Qiymətləndirmə***:* Formativ qiymətləndirmə müəyyəın edilmiş meyarlara əsasən aparılır. :

***İzahetmə:***

| Zəif | orta | əla |
|---|---|---|
| Yol nişahlarını tanıyır, əhəmiyyətini izah edə bilmir. | Yol nişanları və yol hərəkəti qaydalarını tanıyır. | Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir. |

***Həyat bilgisi***

***VI sinif***

**Standart:** *2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.*

**Mövzu:** ***İnsan hüquqlarını qoruyan beynəlxalq təşkilatların fəaliyyəti***

**Məqsəd:** *İnsan hüquqlarını müdafiə edən qurumların necə fəaliyyət göstərdiyini bilir. Bu təşkilatların fəaliyyətini təsvir edir.*

**İnteqrasiya:** *Tarix.*

**Dərsin forması:** *Qruplarla iş.*

**Dərsin üsulu:** *Beyin həmləsi, müzakirə.*

**Resurslar:** *Şəkillər, videolar, iş vərəqləri, kompyuter, internet.*

**Dərsin mərhələsi:**

**Motivasiya. Problem qoyulması:**

*Gördüyünüz bu şəkillər haqqında məlumatımız varmı?*

*Təsvir olunan şəkillər hansı təşkilatların rəmzləridir?*

İnsan hüquqlarını müdafiə edən təşkilatlar barədə video çarxda göstərilir. Şagirdlər hansı problem üzərində araşdırma aparacaq onu aşkarlayırlar.

**Tədqiqat sulalı:** *İnsan hüquqlarını müdafiə edən təşkilatlar necə fəaliyyət göstərir?*

**Tədqiqatın aparılması:** Şagirdlər 2 qrupa bölünür və iş vərəqləri paylanır.

**I Qrup:**

**UNİFEM**-in fəaliyyətini sadalayaraq fikirlərinizi bildirin.

**II qrup:**

**UNİCEF**-in fəaliyyətini sadalayaraq münasibətinizi bildirin.

**Məlumat mübadiləsi və məlumatların müzakirəsi:** Şagirdlər verilən tapşırığları işləyərək mübadilə edir. Mübadilədən sonar qrupların işi müakirə edilir.

**Nəticə və ümumiləşdirmə:**

- **Unifem**

⦿ Unifem (BMT-ın qadın fondu) qadınlara maliyyə dəstəyi verir və onlara texniki kömək edir. Onların siyasi və iqtisadi imkanlarını və cinsi bərabərliyini təmin edir.

⦿ 1976-cı ilin dekabrında yaranıb. O planetin əsas regionlarında qadınlar təşkilatlarının ofis və filiallarını açır və orada qadın hüquqlarını siyasi və iqdisadi cəhətdən qoruyur.

**UNICEF**

Unicef-BMT-in uşaqları müdafiə fondudur.

⦿ 1965-ci ildə Nobel mükafatı alıb.

Fondun əsas məqsədləri:

⦿ 5 yaşa qədər uşaq itkisini 1/3 azaltmaq

⦿ Anaların itkisini 50 % endirmək

⦿ 80 % uşaqa ibtidai təhsil vermək

Unicef öz proqramlarını dünyanın 157 ölkəsində həyata keçirir, həm də Azərbaycanda fəaliyyət göstərir.

**Ev tapşırığı:**

⦿ Birləşmiş Millətlər Təşkilatının iş fəaliyyəti ilə bağlı materiallar toplayın.

**Qiymətləndirmə*:*** Formativ qiymətləndirmə müəyyəın edilmiş meyarlara əsasən aparılır.

Formativ qiymətləndirmə: ***təsvir edir.***

| **Zəif** | **orta** | **əla** |
|---|---|---|
| *İnsan hüquqlarını müdafiə edən qrumları tanıyır.* | *İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini fəaliyyətini ifadə etməkdə çətinlik çəkir.* | *İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir.* |

**VII sinif**

**Mövzu: Ləyaqət**

**Standartlar:** 3.2.1. Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır.

**Məqsəd:** Ləyaqətin əxlaqi keyfiyyət olduğunu nümunələrlə əsaslandırır.

**İş forması**: Böyük qruplarla iş.

**Təlim üsulları**: Beyin həmləsi, müzakirə, akvarium.

**Resurslar**: VII sinif üçün iş dəftəri, dərslik və ədəbiyyatlar.

**Motivasiya. Problemin qoyulması:** Dağlarda döyüş filmindən bir epizod göstərilir. Mövzunun adının alınması üçün yönəldici suallar verilir.

**Tədqiqat sualı:** Ləyaqət nədir?

**Tədqiqatın aparılması:** Şagirdlərə qrup şəklində işləmək üçün sorğu vərəqləri paylanılır. Sorğu vərəqlərində aşağıdakı tapşırıqlar əksini tapır: I qrup: Ləyaqətli insanı necə təsvir edirsiniz? Fikirlərinizi əsaslandıraraq yaz.

II qrup: "Əxlaqlı insan necə olmalıdır?" mövzusunda esse yazın.

**İnformasiya mübadiləsi:** Qruplar işlərini təqdim edirlər.

**İnformasiyanın müzakirəsi və təşkili:** Qrup işləri müəllim və şagirdlər tərəfindən müzakirə olunur.

**Nəticə və ümumiləşdirmə:** Şagirdlər ləyaqətin nə olduğunu bilir. Həyatda baş vermiş bir çox hadisələrdən nümunə gətirərək ləyaqətin əxlaqi keyfiyyət olduğunu əsaslandırır.

**Qiymətləndirmə:** Qrupların fəaliyyəti sonda məqsədə uyğun meyarlar əsasında qiymətləndirilir.

| Qruplar / meyarlar | I QRUP | II QRUP |
|---|---|---|
| Tətbiq etmə | | |
| Təhlil etmə | | |
| Vaxta qənaət | | |
| Əməkdaşlıq | | |

Formativ qiymətləndirmə: ***əsaslandırma***

| Zəif | orta | əla |
|---|---|---|
| ***Ləyaqət haqqında bilir*** | ***Fikrini əsaslandırmağa çalışır*** | ***Nümunələr gətirməklə əsaslandırır*** |

**VIII sinif**

**Mövzu: Vətənim Azərbaycan**

**Standartlar: 3.2.2.**

**Məqsəd:** Vətənin və dövlətin qarşısında mənəvi borcunu nümayiş etdirir.

**İş forması**: qruplarla iş.

**İş üsulları**: Beyin həmləsi və müzakirə.

**Resurslar**: Dünyanın siyasi xəritəsi, Azərbaycanın xəritəsi, VIII sinif üçün iş dəftəri, dərslik və ədəbiyyatlar.

**Motivasiya. Problemin qoyulması:** Şagirdlərə "Azərbaycan" himnini nümayiş etdirilir. Sonra bu himni dinlərkən hansı hisslər keçirdiklərini şagirdlərdən soruşulur.

**Tədqiqat sualı:** Azərbaycan dövlətinin idarə etmə qaydaları və onun qarşısında hansı mənəvi borcumuzun olması barədə nə bilirsiniz?

**Tədqiqatın aparılması:** Şagirdlərə qrup şəklində işləmək üçün sorğu vərəqləri paylanılır. Sorğu vərəqlərində aşağıdakı tapşırıqlar əksini tapır:

**I qrup:** Azərbaycan dövlətinin yaranması barədə nə bilirsiniz?

**II qrup:** Azərbaycan dövlətinin idarə etmə qaydalarını barədə nə bilirsiniz?

**III qrup:** Dövlətimizin qarşısında olan borclarımız bilirsinizmi?

**IV qrup:** Vətən qarşısında olan mənəvi borclarımızı bilirsinizmi?

**İnformasiya mübadiləsi:** Qruplarla ümumi müzakirə nəticəsində yazdıqlarına düzəlişlər edir, bəzi dəqiqləşmələr aparır.

**İnformasiyanın müzakirəsi və təşkili:** Təqdim olunan məlumatlar müəllim və şagirdlər tərəfindən müzakirə olunur.

**Nəticə və ümumiləşdirmə:** Nəticədə şagirdlər Vətənin və dövlətin qarşısında mənəvi borcunu bilərək nümayiş etdirir.

**Qiymətləndirmə:** Qrupların fəaliyyəti sonda məqsədə uyğun meyarlar əsasında qiymətləndirilir.

| Qruplar / meyarlar | I QRUP | II QRUP | III QRUP | IV QRUP |
|---|---|---|---|---|
| Tətbiq etmə | | | | |
| Nümayiş etmə | | | | |
| Vaxta qənaət | | | | |
| Əməkdaşlıq | | | | |

Formativ qiymətləndirmə: ***nümayiş etmə***

| **Zəif** | **orta** | **əla** |
|---|---|---|
| Mənəvi borcu sualların köməyi ilə ifadə edir. | mənəvi borc anlayışını izah edir. | Nümunələrlə nümayiş edir. |

**IX sinif**

**Mövzu: Qlobal ekoloji problemlər**

**Standartlar: 1.2.1.**

**Məqsəd:** Qlobal ekoloji problemlərin həllinə dair təqdimat və layihələr hazırlayır.

**İnteqrasiya:** C. 3.2.1. K. 4.2.1. B. 4.1.1.

**İş forması: Kollektiv, qruplarla**

**İş üsulu: Müzakirə, beyin həmləsi**

**Resurslar:** *Dərslik, iş vərəqələri, ensiklopediya, kompyuter, proyektor, disk, internet saytı YouTube.*

**Motivasiya. Problemin qoyulması:** Müəllim kopyuter və proyektorun vasitəsi ilə şagirdlərə əvvəlcə çox gözəl, mənzərəli təbiət və heyvanat aləmindən kadrlar göstərir. Bu görüntülərdən sonra ekoloji problemlər nəticəsində məhf olmuş təbiət, sürü ilə tələf olmuş heyvanlar, neftlə, zibilliklərlə çirklənmiş ərazilər, xəstəliklərə tutulmuş insanların görüntüləri ekrana gəlir. Film bitdikdən sonra müəllimə şagirdlərə gördüklərini müzakirə etməyi tapşırır. Şagirdlər görüntüləri müzakirə edirlər.

Sonra müəllimə şagirdləri qrupıara bölərək tədqiqat sualını elan edir:

**Tədqiqat sualı**: Qlobal ekoloji problemlərin həll etmə yolları hansılardı?

**Tədqiqatın aparılması:**

**I qrup:** Sənaye tullantılarının ekologiyanın çirklənməyə səbəb olmanın qarşısını almaq üçün nə etməli?

**II qrup:** Nəqliyyat vasitələrinin havaya buraxdığı tullantılar atmosfer havasının çirklənməsinə səbəb olmasının qarşısını almaqın yolları .

**III qrup:** Ekologiyanın çirklənməsinin iqlim dəyişmələrinə təsirinin qarşısının almaq üçün hansı tədbirlər görmək lazımdır?

**IV qrup:** Məişət tullantılarının ekologiyanın çirklənməsinə bu da insana və təbiətə necə təsir etməsini araşdırın.

**İnformasiya mübadiləsi:** Təqdimatlar edilir.

**İnformasiyanın müzakirəsi:** Qazanılmış biliklər müəllim və şagirdlər tərəfindən müzakirə olunur.

**Nəticə və ümumiləşdimə:** Şagirdlər Qlobal ekoloji problemin qarşısının alınmasında hamının iştirakının vacibliyini öyrənir.

**Qiymətləndirmə:** Qrupların fəaliyyəti sonda məqsədə uyğun meyarlar əsasında qiymətləndirilir.

## 2.4. Həyat bilgisi fənninin məzmun standartlarının şərhi[1]

| Standart | Məzmun | Açar sözlər |
|---|---|---|
| I SİNİF | | |
| **1. Təbiət və biz** | | |
| **1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.** | | |
| 1.1.1. Varlıqları, hadisələri sadə şəkildə təsvir edir. | 1. Canlı və cansız varlıqlar haqqında forma, ölçü, rəng və s. əlamətlərinə müvafiq danışılması.<br>2. Fəsillərin dəyişməsi zamanı yağışın, qarın, dolunun yağması, günəşin çıxması-batması, ildırım çaxması, küləyin əsməsi, duman və s. kimi hadisələrin təsvir edilməsi | varlıq, forma, ölçü, rəng, fəsil, hadisə |
| 1.1.2. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə fərqləndirir. | 1. Canlı və cansız varlıqların funksiyası, materialı (dəmir, plastmas, şüşə, taxta, parça), əhəmiyyətinə görə fərqləndirilməsi<br>2. Fəsillərin dəyişməsi zamanı havada (temperaturun artması və azalması), heyvanların həyatında, insanların əməyində və geyim tərzlərində, bitkilərin inkişafında baş verən dəyişikliklərin izah edilməsi. | varlıq, canlı, cansız, fəsil, əlamət |
| **1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 1.2.1. Coğrafi obyektləri *(dağ, təpə, dərə, düzənlik, çay, göl)* əlamətlərinə görə fərqləndirir. | Verilən coğrafi obyektlərin (dağ, təpə, dərə, düzənlik, çay, göl) hündür, alçaq, düz, hamar, axan-axmayan, uzun-qısa, qollu-qolsuz, xırda və s. görə fərqləndirilməsi. Zirvə, yamac, ətək anlayışlarının fərqləndirilməsi. | obyekt, dağ, düzənlik, çay |
| 1.2.2. Yaşadığı ərazinin sadə coğrafi təsvirini verir. | Yaşadığı evin yerləşmə yerinin, ünvanının, ətrafında yerləşən obyektlərin (mağaza, məktəb, əczaxana, xəstəxana, müxtəlif müəssisələr) təsvir edilməsi. | ərazi |
| **1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 1.3.1. Canlılar aləminə aid olan varlıqları *(bitki, heyvan, insan)* tanıyır. | Canlıların tanınması (bitkilər – ağac, kol, ot, göbələklər, çiçəklər; insanları yaş, cins kateqoriyalarına görə fərqləndirməsi; heyvanları – ev, çöl, vəhşi, yırtıcı, quşlar, balıqlar, həşəratlar). | varlıq, canlı |
| 1.3.2. Canlıların yaşamasını şərtləndirən amilləri | Canlıların yaşaması üçün vacib olan faktorların (təmiz hava, təmiz su, qida, işıq, sığınacaq, geyim) sadalanması. | amil, şərt, canlı |

[1] **Məzmun standartalrının şərhinə aid verilmiş izahlar və aşar sözlər ancaq tövsiyə xarakteri daşıyır. Siniflər üzrə şagirdlərin inkişaf səviyyəsinə və marağına uyğun olaraq müvafiq dəyişikliklər və əlavələr etməklə onlara yaradıcı yanaşmaq məqsədəuyğun hesab edilir.**

| | | |
|---|---|---|
| sadalayır. | | |
| **1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | | |
| 1.4.1. Ətraf mühitin *(evin, sinifin, həyətin , havanın, suyun)* təmiz saxlanmasının vacibliyini sadə şəkildə şərh edir. | Yaşadığı evin, həyətin, sinif otağının, stolunun üstünün və s. səliqəli və təmiz saxlanmasının (silib-süpürmək, havanı dəyişmək, zibili zibil qutusuna atmaq, əşyaları istifadə etdikdən sonra yerinə qoymaq) özü və ətrafdakı insanlar üçün vacib olduğunun şərh edilməsi. | mühit, təmizlik, səliqəlilik |
| **2. Fərd və cəmiyyət** | | |
| **2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.** | | |
| 2.1.1. "Fərd", "ailə" və "kollektiv" anlayışları barədə təsəvvürlərini bildirir. | Ailə üzvlərinin hər birinin eləcə də özünün ayrı –ayrılıqda bir şəxs olduğunun müəyyən edilməsi.<br>Ailənin valideynlərdən, bacı – qardaşdan, baba – nənədən ibarət ən yaxın insanların bir evdə yaşaması kimi izah edilməsi.<br>Kollektivin eyni yerdə yaşayan, işləyən, çalışan insanların birliyi kimi nümayiş etdirilməsi. | fərd, ailə, kollektiv |
| 2.1.2. Birgə fəaliyyətin faydasını nümunələr əsasında izah edir. | Ailə üzvlərinin və sinif yoldaşlarının bir-birinə kömək etməsinin (çətin və ağır işləri birlikdə görmək, sinif iməciliyi,) nümunələr əsasında izah edilməsi. | fəaliyyət, birlik |
| 2.1.3. Ailədə və kollektivdə üzərinə düşən vəzifələri sadalayır. | Ailədə (evə çörək almaq, zibili atmaq, əşyalarını yığışdırmaq) və məktəbdə (sinifdə növbətçi olmaq, dərs ləvazimatlarını yığışdırmaq) yerinə yetiriləcək işlər barədə məlumat verilməsi.<br>Ailə və kollektiv daxili işlərdə üzərinə düşən vəzifələrin sadalanması. | ailə, kollektiv, vəzifə |
| **2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | | |
| 2.2.1. Gün rejimi haqqında təsəvvürlərini sadə şəkildə ifadə edir. | Günün vaxtlarının (səhər, günorta, axşam, gecə) tanınması, gün rejiminə riayət edilməsi. | gün rejimi, vaxt |
| 2.2.2. "Büdcə" anlayışını sadə şəkildə izah edir. | Gündəlik gəlir (cib xərci, gündəlik xərclər) haqqında danışılması, "büdcə" anlayışının sadə şəkildə izah edilməsi. | büdcə |
| 2.2.3. Azərbaycan Respublikasının pul nişanlarını tanıyır. | Qəpiklərin (1, 3, 5, 10, 20, 50 qəpikliklər) və kağız pulların (1, 5, 10, 20, 50, 100 manatlıqlar) tanınması və pulların üstündəki şəkillərə, anlayışlara görə seçilməsi. | pul nişanları |
| **2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.** | | |
| 2.3.1. Azərbaycan Respublikasının Dövlət rəmzlərini sadə şəkildə izah | Azərbaycan Respublikasının Dövlət rəmzləri olan bayraq, gerb, himnin tanınması, bayraq və gerb üzərində olan rənglərin və simvolların mənasının təsvir və izah edilməsi. | bayraq, himn, gerb |

| | | |
|---|---|---|
| edir. | | |
| **2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | | |
| 2.4.1. Məktəbin daxili nizam-intizam qaydalarını sadalayır. | Məktəbin özünəməxsus daxili nizam-intizam qaydalarını vahid forma, dərsə vaxtında gəlmə, şagird davranış qaydalarını və s. sadalanması və bu qaydalara riayət etməyin vacibliyinin bildirilməsi. | nizam-intizam, məktəb |
| 2.4.2. Şagird hüquqlarını sadalayır. | Şagirdlərin pulsuz təhsil almaq, istirahət etmək, sərbəst fikir söyləmək, sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq və s. hüquqlarının sadalanması. | hüquq, şagird |
| **3. Mənəviyyat** | | |
| **3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.** | | |
| 3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (*salamlaşmaq, özünütəqdim, müraciət, müraciətə cavab, xudahafizləşmək)* əməl edir. | Tanıdığı və tanımadığı şəxslə danışarkən hamı tərəfindən qəbul olunmuş etiket qaydalarına (salam, zəhmət olmasa, bəli, xeyr, sağlıqla qal) uyğun olaraq danışılması. | etik qaydalar, ünsiyyət |
| 3.1.2. Etiketdənkənar davra-nışları fərqləndirir. | Kobudluq, qabalıq, yalançılıq, təhqirə aid ifadələrin etik qaydalara uyğun gəlməməsinin izah edilməsi. Danışarkən bu ifadələrdən istifadə etməyin yalnışlığının başa düşülməsi. | etiketdənkənar davranışları |
| **3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.** | | |
| 3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri *(düzlük, doğruçuluq, çalışqanlıq, səmimilik)* sadə şəkildə şərh edir | Düzgünlüyün, doğruçuluğun, çalışqanlığın, səmimiliyin insanın formalaşması üçün lazımi keyfiyyətlər olduğunun şərh edilməsi. Bu xüsusiyyətlərin (yalan danışmamaq, tənbəllik etməmək, ikiüzlü olmamaq) müsbət olmasının nümayiş etdirilməsi. | şəxsiyyət, mənəvi keyfiyyətlər |
| 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə *(yalançılıq, paxıllıq, xəbərçilik)* münasibət bildirir. | Mənəviyyata zidd xüsusiyyətlərin (inamı itirmək, sağlam olmayan rəqabət, etibarı itirmək) insana ziyan vurduğunun söylənilməsi, yalan danışmağın, xəbərçilik, paxıllıq etməyin mənfi hərəkət olmasının nümayiş etdirilməsi. | mənəviyyata zidd xüsusiyyətlər |
| **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.** | | |
| 3.3.1. Təsvirlərdə dini rəmzləri *(ibadətgahlar, nişanlar, dini kitablar, əşyalar*) fərqləndirir. | Verilmiş şəkillərdən məscidin, ziyarətgahın, İslamın yaşıl rənginin, Quranın, İncilin, Bibliyanın göstərilməsi. Müxtəlif dinlərə məxsus rəmzlərin fərqləndirilməsi. | din, Quran, İncil, Bibliya |
| 3.3.2. Dinlər haqqında ilkin | İslam dini, dini bayramlar, müqəddəs kitab haqqında sadə məlumatın verilməsi. | din, bayram |

| | | |
|---|---|---|
| təsəvvürlərini sadə şəkildə izah edir. | Müxtəlif dinlər haqqında olan təsəvvürlərinin (müqəddəs kitabı, bayramı, dini rəmzi) sadə şəkildə izah edilməsi. | |
| **3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 3.4.1. Mənəvi borc (böyüklərə hörmət, kiçiklərə və xəstələrə qayğı) haqqında təsəvvürlərini ifadə edir. | Böyüklərə hörmət, kiçiklərə qayğı göstərməyin, onlara diqqət ayırmağın, həmçinin xəstə və zəif insanlara yardım etməyin mənəvi borc olduğunun ifadə edilməsi. | hörmət, diqqət, yardım, qayğı, mənəvi borc |
| **4. Sağlamlıq və təhlükəsizlik** | | |
| **4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 4.1.1. Sağlam həyat tərzinin şərtlərini *(təmizkarlıq, düzgün qidalanma, yuxu və istirahət)* sadalayır. | Təmizkarlığın (əllərin yuyulması, meyvə və tərəvəzin yuyulduqdan sonra yeyilməsi, şəxsi gigiyenaya diqqət yetirilməsi), düzgün və vaxtında qidalanmanın, yuxu və istirahətin sağlam həyat tərzinin şərtlərinin sadalanması və bu şərtlərə riayət etməyin vacib olmasının nümayiş etdirilməsi. | təmizkarlıq, düzgün qidalanma, yuxu, istirahət |
| 4.1.2. Hava durumuna uyğun geyim seçiminin əhəmiyyətini sadə formada əsaslandırır. | Soyuqdan və çox istidən qorunma, fəsillərə uyğun (günəşli, yağışlı, küləkli, qarlı hava) geyinməklə sağlamlığın mühafizəsinin şərh edilməsi. Geyimi hava durumuna uyğun seçmək lazım olduğunun sadə formada izah edilməsi. | hava durumu, geyim |
| **4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbələrə dair bilik və bacarıqlar nümayiş etdirir.** | | |
| 4.2.1. Həyat və sağlamlıq üçün təhlükə törədə bilən məişət alət və avadanlıqlarını *(elektrik və qaz cihazları, alışdırıcı, kəsici və deşici alətlər)* sadalayır. | Müxtəlif alətlərdən (kəsici, deşici alətlər) və məişət avadanlıqlarından (elektrik və qaz cihazları) istifadə yollarının sadalanması və bu alətlərdən necə istifadə olunmasının nümayiş etdirilməsi. | təhlükə, avadanlıq, alət |
| 4.2.2. Ətrafdakı şübhəli əşyalara toxunmağın və tanımadığı insanlarla ünsiyyətin təhlükəsini izah edir. | Tikinti olan yerlərin, elektrik və qaz çəkilən ərazilərin sadalanması, tanımadığı insanlarla ünsiyyətin (tanımadığı insana qapı açmaq və s.) təhlükəsinin izah edilməsi. | şübhəli, ünsiyyət, təhlükə |
| 4.2.3. Sadə yol hərəkət qaydalarını *(səki və yolun kənarı ilə hərəkət etmək, svetoforun işarələrinə əməl* | Sadə yol hərəkət qaydalarının (səki və yolun kənarı ilə hərəkət etmək, svetoforun işarələrinə əməl etmək) sadalanması. Bu qaydalara əməl etməyin vacibliyinin bildirilməsi. | hərəkət, yol, qayda |

| | | |
|---|---|---|
| *etmək)* sadalayır. | | |
| 4.2.4. Nəqliyyat vasitələrini *(lift, eskalator, avtomobil, avtobus, qatar, gəmi, təyyarə)* tanıyır. | Nəqliyyat vasitələrindən lift, eskalator, avtomobil, avtobus, qatar, gəmi, təyyarənin tanınması. | nəqliyyat |
| **4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 4.3.1. Təbii fövqəladə hadisələri *(daşqın, subasma, qasırğa, ildırım, zəlzələ, torpaq sürüşməsi, qar uçqunu)* və texnogen qəzaları *(partlayış, yanğın, böyük nəqliyyat qəzası, ətraf mühitin zəhərli maddələrlə çirklənməsi)* təsvirlərdə tanıyır. | Verilmiş təsvirlərdə daşqın, subasma, qasırğa, ildırım, zəlzələ, torpaq sürüşməsi, qar uçqunu, texnogen qəzaları və partlayış, yanğın, böyük nəqliyyat qəzası, ətraf mühitin zəhərli maddələrlə çirklənməsi kimi təbii fövqəladə hadisələrin tanınması. | təbii fövqəladə hadisələri, texnogen qəzalar |
| 4.3.2. Mülki-müdafiə siqnallarını və qəzalardan mühafizə vasitələrini *(əleyhqaz, respirator, yanğınsöndürmə balonu, su, qum)* tanıyır. | Mülki-müdafiə siqnallarını və qəzalardan mühafizə vasitələrinin sadalanması. Bu siqnalların nə üçün lazım olmasının nümayiş etdirilməsi. | mülki-müdafiə, qəza, siqnal |
| 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə su, qum, respiratordan istifadə baca-rıqları nümayiş etdirir. | Sinifdə və yaxud məktəb daxilində müəllim tərəfindən süni yaradılmış ekstremal vəziyyətlərdə özünü itirmədən özünümühafizə bacarıqlarının nümayiş etdirilməsi. Yanğın, zəlzələ və s. kimi hallar baş verdikdə respiratordan istifadə qaydasının nümayiş etdirilməsi. | su, qum, respirator |

| | | |
|---|---|---|
| II SİNİF | | |
| **1. Təbiət və biz** | | |
| **1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.** | | |
| 1.1.1. Varlıqları, hadisələri xarakterik əlamətlərinə görə qruplaşdırır. | 1. Heyvanların suda, quruda və suda-quruda yaşayanlara, ev və çöl heyvanlarına, ev və çöl quşlarına, bitkilərin mədəni və yabanı bitkilərə, insanın xarakterik xüsusiyyətlərinə görə ayrılması.<br>2. Cansızların təbii və süni varlıqlara ayrılması.<br>3. Müxtəlif fəsillərdə baş verən təbiət hadisələrinin (ağacların tumurcuqlanması, | varlıq, heyvan, fəsil, əlamət |

| | | |
|---|---|---|
| | havanın hərarətinin artıb-azalması, quşların isti ölkələrə köçü, yarpaqların saralması) qruplaşdırılması. | |
| 1.1.2.Varlıq və hadisələri öyrənmək üçün müvafiq avadanlıqlardan sərbəst istifadə edir. | 1.Varlıq və hadisələri öyrənmək üçün müvafiq avadanlıqlardan (lupa, xətkeş, müxtəlif ensiklopediyalar, kompüter,) sərbəst istifadə edilməsi.<br>3.Hadisələrin (fəsillərin dəyişməsi), insanların və bitkilərin həyatında baş verən dəyişikliklərin müşahidələr vasitəsilə şərh edilməsi. | varlıq, hadisə, avadanlıq |
| 1.1.3. Suyun təbiətdə dövranını sadə şəkildə təsvir edir. | Kiçik su dövranının (günəşin hərarətindən suların buxarlanması və havaya qalxması, temperaturun qalxıb-enməsi nəticəsində qar, yağış, dolu halında yenidən dövr edərək yerə qayıtması) təsvir edilməsi (həm sözlə, həm də şəkillə) | su, su dövranı |
| **1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 1.2.1. Coğrafi obyektlərin (dağ, təpə, dərə, düzənlik, çay, göl) yaranma səbəblərini izah edir. | Təbiət hadisələrinin və təbii fəlakətlərin nəticəsində dağ, təpə, dərə, düzənlik, çay və gölün yaranmasının izah edilməsi. | coğrafi obyektlər |
| 1.2.2. Üfüqün cəhətlərini təyin edir. | Üfüqün 4 cəhətinin (şimal, cənub, şərq, qərb) təyin edilməsi və müxtəlif üsullardan istifadə etməklə (sağ-sol, yuxarı-aşağı, ağacın gövdəsində bitən mamır bitkisinə, qarışqaların yuvasına, günəşin çıxıb-batmasına görə) üfüqün cəhətlərinin müəyyənləşdirilməsi. | üfüq, cəhət |
| **1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 1.3.1. Canlılar aləminə aid olan varlıqları (bitki, heyvan, insan) təsvir edir. | Canlılar aləminə aid olan varlıqların quruluşuna görə təsvir edilməsi (insanın sadə formada quruluşu, bitkilərin və heyvanların quruluşu). | canlılar, insan<br>heyvan, bitki |
| 1.3.2. Tanıdığı canlıları spesifik xüsusiyyətlərinə görə fərqləndirir. | Canlıların qidalanmasına, çoxalmasına, yuva qurmasına; yabanı və ya mədəni bitki olmasına, kol və ya ağac bitkisi olmasına görə fərqləndirilməsi. | qidalanma, çoxalma, yabanı və ya mədəni bitkilər, kol, ağac |
| **1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | | |
| 1.4.1. Ətraf mühiti çirkləndirən mənbələri ayırd edir. | Zavod və fabriklərdən havaya qalxan tüstü, siqaret tüstüsü, dənizlərə, göllərə axıdılan çirkab sular, zibilliklər, küçəyə atılan zibillər, meşələrin yandırılması və s. kimi amillərin ətraf mühiti çirkləndirməsinin şərh edilməsi. | üstü, çirkli sular, yanğın, ətraf mühit, zibil |
| 1.4.2. Təqdim olunmuş materiallarda ətraf mühitə münasibəti qiymətləndirir. | Videofilmlərdə, real həyatdan (ölkəsində və dünyada baş verən ekoloji problemlər) götürülmüş nümunələrdə ətraf mühitə münasibətin qiymətləndirilməsi. | meşə yanğınları, tüstülər, çirkab sular, zibilliklər, partlayışlar |
| **2. Fərd və cəmiyyət** | | |

| | | |
|---|---|---|
| **2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.** | | |
| 2.1.1. “Fərd”, “ailə” və” kollektiv” anlayışlarını fərqləndirir. | “Fərd”, “ailə” və “kollektiv” anlayışlarının açıqlanması, onların bir-birindən nə ilə fərqləndiyinin izah edilməsi. | fərd, ailə, kollektiv |
| 2.1.2. Özünün və yoldaşlarının kollektiv daxilindəki fəaliyyətinə münasibət bildirir. | Özünün və yoldaşlarının məktəbin və sinfin daxili qaydalarına (məktəbdaxili nizam-intizam qaydaları) əməl etməsinin vacib olmasına münasibət bildirilməsi. | nizam-intizam, qaydalar |
| 2.1.3. Ailədə və kollektivdə vəzifələrin əhəmiyyətini izah edir. | Hər kəsin öz vəzifəsini bilib ona əməl etməsinin faydasının, ailə və kollektiv daxili vəzifələrin əhəmiyyətinin izah edilməsi. | ailə, kollektiv, vəzifə |
| **2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | | |
| 2.2.1. Gün rejiminin nümunəsində vaxtdan səmərəli istifadə etdiyini nümayiş etdirir. | Günün vaxtlarına uyğun olaraq gün rejiminin (səhər yuxudan qalxmaq, çarpayını yığmaq, idman etmək, səhər yeməyini yemək, çantanı yığmaq, geyinib, dərsə yollanmaq və s.) planlaşdırılması. | gün rejimi, planlaşdırma |
| 2.2.2. Verilmiş şərtlərə uyğun şəxsi büdcəsini tərtib edir. | Mövcud vəsaitə uyğun gündəlik xərclərinin müəyyənləşdirilməsi, şəxsi büdcənin tərtib edilməsi. | pul, gəlir, xərc, büdcə |
| 2.2.3. Milli pulla müvafiq hesablamalar aparır. | Milli pul nişanlarının tanınması, əşyaların dəyərlərinə görə pul vahidlərinin seçilərək hesablamalar aparılması. | dəyər, qiymət, qəpik, manat |
| **2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.** | | |
| 2.3.1. Dövlətin əlamətlərini *(ərazi, ordu, milli pul , rəhbər, paytaxt)* tanıyır. | Azərbaycan Respublikasının ərazi bütövlüyünü, pul vahidini, milli ordunu, ordunun funksiyalarını, rəhbərini, paytaxtının tanınması, dövlətin formalaşması üçün bu əlamətlərin vacib olmasının bildirilməsi. | xəritə, ərazi, ordu, milli pul, rəhbər, paytaxt |
| **2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | | |
| 2.4.1. Məktəbin daxili nizam-intizam qaydalarının mahiyyətini sadə formada izah edir. | Məktəbin özünəməxsus daxili nizam-intizam qaydalarının (vahid forma, dərsə vaxtında gəlmək, dərs zamanı dəhlizlərdə sakitliyə riayət etmək, şagird davranış qaydaları və s.) izah edilməsi. | vahid forma, davranış, nizam-intizam |
| 2.4.2. Özünün və yoldaşlarının hüquqlarının pozulması hallarına münasibət bildirir. | Nümunələr əsasında özünün və yoldaşlarının hüquqlarının pozulması hallarına münasibət bildirilməsi. | hüquq, qanun |
| **3. Mənəviyyat** | | |
| **3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.** | | |

| | | |
|---|---|---|
| 3.1.1. İnsanlararası ünsiyyət etiketlərinə (*yoldaşını təqdim etmək, hal-əhval tutmaq, təbrik etmək, kömək təklif etmək)* əməl edir. | İnsanlararası danışıq qaydalarına (“Buyurun tanış olun”, “Necəsən?”, “Ad günün mübarək”, “İcazə verin kömək edim”) əməl etməsi. | ünsiyyət, etiket qaydaları |
| 3.1.2. Etiketdənkənar davranışlara tənqidi münasibət bildirir. | Etiketdənkənar davranışların (kobudluq, söyüş, təhqiramiz sözlər) düzgün olmadığını bildirilməsi. | etiketdənkənar, davranışlar |
| **3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.** | | |
| 3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri *(mərhəmət, ailəyə və Vətənə məhəbbət, düşmənə nifrət, səhvini etiraf etmək)* şərh edir. | Ehtiyacı olana kömək etmək, ailəsinin və Vətənin qədrini bilmək, düşmənə qarşı mübarizə aparmaq, etdiyi səhvə görə üzr istəməyi bacarmaq, bağışlanmağı xahiş etmək kimi mənəvi keyfiyyətlərin şərh edilməsi. | yardım etmək, ailəyə və vətənə xidmət etmək, mərhəmət |
| 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə *(kin, nifrət, laqeydlik)* münasibət bildirir. | Kin, nifrət, laqeydlik kimi xüsusiyyətlərin mənfi və müsbət tərəfinin seçilməsi(dosta qarşı, düşmənə qarşı), ona münasibət bildirilməsi. | kin, nifrət, laqeydlik |
| **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.** | | |
| 3.3.1. Nümunələr əsasında müxtəlif dinlərin mövcudluğunu izah edir. | Kitabda verilən nümunələr əsasında əsas dinlər, dini kitablar, müxtəlif dinlərə məxsus dini rəmzlər haqqında danışılması. | İslam, Xristian, Yəhudi, Quran, İncil, Tövrat |
| 3.3.2. Dinlərin ümumi cəhətlərini izah edir. | Əsas dinlərdə olan oxşar cəhətlər (Allaha inam, ibadət və s.) haqqında danışılması. | din, ibadət, inanc |
| **3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 3.4.1. Mənəvi borc (dəstək olmaq, mərhəmət, şəfqət və yardım göstərmək) haqqında biliklərini izah edir | Mənəvi borcun nə olmasının bildirilməsi, insanlara dəstək olmaq, mərhəmət göstərərək yardım etmək kimi insani keyfiyyətlərin həyatdan götürülmüş nümunələr əsasında izah edilməsi. | dəstək, yardım, mənəvi borc, mərhəmət |
| **4. Sağlamlıq və təhlükəsizlik** | | |
| **4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 4.1.1.Sağlam həyat tərzi haqqında mülahizələrini | Gün rejiminə (vaxtında yatmaq, qidalanmaq, idman, istirahət) əməl etməklə sağlamlığın qorunması yollarının izah edilməsi. | yuxu, təmiz və keyfiyyətli qida, istirahət, idman |

| | | |
|---|---|---|
| şərh edir. | | |
| 4.1.2. Yoluxucu xəstəliklərdən (qrip, angina) qorunma yollarını sadə formada şərh edir. | Həkimlə sıx əlaqədə olmaq, böyüklərin məsləhətlərinə əməl etməklə sağlamlığın qorunması (müxtəlif geyimlər, soyuq sudan istifadə, xəstə insanlarla ünsiyyət, vitamin qəbulu, düzgün qida, peyvənd, həkimə müraciət) yollarının izah edilməsi. | həkim, yoluxucu xəstəliklər |
| **4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.** | | |
| 4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarının, habelə alışdırıcı, deşici və kəsici alətlərin hansı hallarda təhlükə mənbəyinə çevrildiyini sadə formada təsvir edir. | Qaz, elektrik cihazlarından icazəsiz və təhlükəsizlik qaydalarına riayət etmədən istifadənin, deşici və kəsici alətlərindən (qayçı, bıçaq, balta, şiş və s.) istifadənin zərərinin izah edilməsi. | alət, avadanlıq, qaz, məişət |
| 4.2.2. Ətrafda həyat üçün təhlükəli olan yer və obyektləri *(gəzinti qadağan olunan yerlər, elektrik və qaz qurğuları)* sadalayır. | Gəzintisi qadağan olunmuş əraziləri (elektrik xətləri çəkilən sahə, cəbhə bölgələri, sürüşmə zonaları, daşqının çox olduğu rayonlar və s.) nişanlarına görə tanınması və qadağanın səbəblərinin izah edilməsi. | təhlükə, gəzinti |
| 4.2.3. Zəruri yol hərəkət qaydalarını *(piyada keçid nişanları olan və olmayan yerlərdə)* izah edir. | Yol nişanlarının tanınması, həyatla əlaqələndirməsi və istifadə qaydalarının izah edilməsi. Yol nişanlarından istifadə etməyin həyat üçün nə qədər vacib olmasının izah edilməsi. | nişan, svetofor, piyada keçid nişanı |
| 4.2.4. Nəqliyyat vasitələrində *(lift, eskalator, avtomobil, avtobus, qatar)* təhlükəsizlik qaydalarını *(minmək, düşmək, pəncərədən boylanmamaq, qolunu çıxarmamaq, sallanmamaq)* izah edir. | Nəqliyyat vasitələrində (lift, eskalator, avtomobil, avtobus, qatar) davranış qaydalarının (minmək, düşmək, pəncərədən boylanmamaq, qolunu çıxarmamaq, sallanmamaq və s.) izah edilməsi. | nəqliyyat, təhlükəsizlik qaydaları |
| **4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 4.3.1. Fövqəladə halları əlamətlərinə görə *(təbii,* | Təbii fəlakətlərin (zəlzələ, daşqın, sel, yanğın və s.), texnogen hadisələrin (qəza, yanğın, partlayış və s.) sadalanması və təbii fəlakətlərlə texnogen hadisələrin bir | fövqəladə hal, təbii fəlakət |

| | | |
|---|---|---|
| *texnogen)* fərqləndirir. | – birindən fərqləndirilməsi. | |
| 4.3.2. Qəzalardan mühafizə vasitələrini təyinatına görə izah edir. | Əleyhqaz, respirator, yanğınsöndürmə balonu, su, qum kimi mühafizə vasitələrindən nə zaman istifadə ediləcəyinin təyin edilməsi. | hava zəhərlənməsi, tüstü, yanğın, müharibə və sülh şəraiti |
| 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə (zəlzələ, subasma, yanğın, partlayış təhlükəsi zamanı həyəcan siqnalı) özünümühafizə bacarıqları nümayiş etdirir. | Sinifdə və yaxud məktəb daxilində süni yaradılmış ekstremal vəziyyətlərdə (zəlzələ, subasma, yanğın, partlayış təhlükəsi zamanı həyəcan siqnalı) özünümühafizə bacarıqlarının nümayiş etdirilməsi. | zəlzələ, subasma, yanğın, partlayış təhlükəsi zamanı həyəcan siqnalı |

| III SİNİF | | |
|---|---|---|
| **1. Təbiət və biz** | | |
| **1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.** | | |
| 1.1.1. Varlıqlar, hadisələr arasındakı əlaqələri sadə formada şərh edir. | Canlı-canlı, canlı-cansız, cansız-cansız arasındakı əlaqələrin izah edilməsi. Fəsillərarası əlaqənin, günəşin canlılara, yağışın torpağa, suya, canlılara təsirinin izah edilməsi. | varlıq, hadisə, əlaqə |
| 1.1.2. Maddələrin və hadisələrin təbiətini öy-rənmək üçün kiçik təcrübə-lər aparır və nəticələri izah edir. | Suyun dəyişməsi (suyun üç halı), torpağın tərkibi, havanın hərarətinin artıb-azalması, bitkilərin inkişafına dair kiçik təcrübələrin həyata keçirilməsi. | su, torpaq, hava, buz, buxar |
| 1.1.3. "Zaman", "məkan" və "hərəkət" anlayışlarını sadə şəkildə izah edir. | Hansı zamanda, harada yaşadığımızı, ətraf mühitdə bizi əhatə edən varlıqların necə hərəkət etməsinin izah edilməsi. | zaman, məkan, hərəkət |
| **1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 1.2.1. Coğrafi obyektləri *(dəniz, okean, ada, materik)* əlamətlərinə görə fərqləndirir. | Verilən coğrafi obyektlərin böyük, kiçik (sahəsi), dərin, dayaz, harada yerləşməsinə, nə ilə əhatə olmasına görə fərqləndirilməsi. | dəniz, okean, ada, materik |
| 1.2.2. Azərbaycanın sadə coğrafi təsvirini verir. | Azərbaycanın Avrasiya materikində yerləşdiyinin, hansı ölkələrlə həmsərhəd olmasının, burada hansı təbii zonaların mövcud olmasının sadalanması. | xəritə, dağ, düzənlik, çaylar, göllər, dəniz |
| 1.2.3. Sadə əşyaların və | Planla şəklin fərqinin izah edilməsi. Yaşadığı evin və varlıqların planının və | plan, şəkil |

| | | |
|---|---|---|
| evinin planını çəkir. | şəklinin sadə formada çəkilməsi. | |
| **1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 1.3.1. Bitkiləri və heyvanları səciyyəvi əlamətlərinə görə qruplaşdırır. | Bitkilərin – ağacların (iynəyarpaqlı, enliyarpaqlı, qorunan), kolların (adi və dərman), yeməli və zəhərli göbələklərin, çiçəklərin (yabanı və mədəni) növlərinə görə seçilməsi.<br>Heyvanların – ev və çöl, vəhşi və yırtıcı, həşəratların zərərli və xeyirverən kimi qruplara görə ayrılması. | bitki, heyvan |
| 1.3.2. Canlılar arasındakı əlaqəni izah edir. | Canlılar arasındakı əlaqənin insanların bitki və heyvanlarla qidalanması, heyvanların bitki və heyvanlarla qidalanması, bitkilərin tozlanması və s. kimi izah edilməsi. | insan, qidalanma, bitki, tozlanma |
| 1.3.3. Ətraf aləmin dərk edilməsində duyğu orqanlarının rolunu izah edir. | Göz, qulaq, burun, dil və dərinin əsas hissiyyat orqanları (görmə, eşitmə, iybilmə, dadbilmə, əllə toxunma) olmasının dərk edilməsi və onların quruluşunun izah edilməsi. | duyğu orqanları |
| **1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | | |
| 1.4.1. Ətraf mühitin sağlamlaşdırılmasında bitki örtüyünün rolunu şərh edir. | Ağacların, kolların, dibçək güllərinin, çiçəklərin əkilməsinin havanın təmizlənməsinə, oksigenlə zənginləşdirilməsinə, yarğanların, selin qarşısının alınmasına, eyni zamanda ətrafımızın estetik görünüşünə təsirinin izah edilməsi. | sağlamlıq, bitki, mühit |
| 1.4.2. Təbiətimizin qorunmasında Azərbaycan dövlətinin rolunu izah edir. | Təbiətimizin qorunmasında dövlətin rolunun əsas və müvəqqəti qoruqların və heyvanxanaların yaradılması, Qırmızı kitaba daxil edilən nadir və nəslikəsilməkdə olan canlıların qorunması kimi izah edilməsi. | təbiət, qorumaq |
| **2. Fərd və cəmiyyət** | | |
| **2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.** | | |
| 2.1.1. Fərd-ailə və fərd-kollektiv münasibətlərini şərh edir. | Hər bir uşağın ailənin, hər bir şagirdin məktəb kollektivinin üzvü olmasının və bunların bir -birinin qarşısında məsuliyyət daşımasının şərh edilməsi. | fərd, ailə, kollektiv |
| 2.1.2. "Cəmiyyət" anlayışı haqqında təsəvvürlərini ifadə edir. | Ailənin və sinif kollektivinin də kiçik bir qurum olmasının, xalqı qarşısında müəyyən bir vəzifə daşımasının ifadə edilməsi. | ailə, sinif, kollektiv, cəmiyyət |
| 2.1.3. Cəmiyyətin tərkibi (ailə, kollektiv) barədə biliklərini sadə şəkildə şərh | Ailədə böyüyüb tərbiyə alan, məktəbdə təhsil alan hər bir uşağın gələcəkdə cəmiyyətin bir üzvü olmasının şərh edilməsi. | ailə, kollektiv, cəmiyyət |

| | | |
|---|---|---|
| edir. | | |
| **2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | | |
| 2.2.1. Mövcud resurslardan (*ərzaq, su, qaz, elektrik enerjisi)* qənaətlə istifadə barədə fikirlərini ifadə edir. | Qənaət sözünün mənasının izah edilməsi, ətrafdakı resurslara necə qənaət edildiyini şərh edilməsi. | resurs, qənaət |
| 2.2.2. "Gəlir" və "xərc" anlayışlarını sadə şəkildə izah edir. | "Gəlir" və "xərc" anlayışlarının sadə şəkildə izah edilməsi. | pul, gəlir, xərc |
| 2.2.3. Digər dövlətlərin pul nişanlarını tanıyır. | Başqa dövlətlərin pul nişanlarının (lirə, dinar, dollar, evro, rubl) tanınması. | pul |
| **2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.** | | |
| 2.3.1. Verilmiş əlamətlərə uyğun olaraq Azərbaycan dövlətini təsvir edir. | Ərazi, ordu, milli pul vahidi, rəhbəri, paytaxtına görə Azərbaycan Respublikasının təsvir edilməsi. | ordu, pul, ərazi |
| **2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | | |
| 2.4.1. "Qayda" və "qanun" anlayışlarının fərqini sadə şəkildə izah edir. | "Qayda" və "qanun" anlayışlarının ayrı-ayrılıqda açılması, onların fərqinin göstərilməsi. | qayda, qanun |
| 2.4.2. Uşaq hüquqları haqqında müvafiq sənədləri (Uşaq Hüquqları Konvensiyası, Uşaq Hüquqları Bəyənnaməsi, Uşaq Hüquqları haqqında Azərbaycan Qanunu) sadalayır. | Uşaq hüquqları haqqında müvafiq sənədləri - Uşaq Hüquqları Konvensiyası, Uşaq Hüquqları Bəyannaməsi, Uşaq Hüquqları haqqında Azərbaycan Qanununun tanınması. | hüquq, uşaq, qanun |
| **3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.** | | |
| 3.1.1. Ünsiyyət zamanı nəzakət qaydalarına *(müsahibini sonadək dinləmək, sözü kəsməmək, müsahibinə təşəkkür etmək)* əməl edir. | Danışarkən mədəni danışıq qaydalarına (Buyurun. Sizi dinləyirəm. Xahiş edirəm, davam edin. Minnətdaram) əməl edilməsi. | ünsiyyət, nəzakət |
| 3.1.2. Başqa xalqların ünsiyyət qaydalarındakı | Hər bir xalqın özünəməxsus davranış qaydalarının (qonaq qəbul etmək, toy, yas mərasimləri, dini mərasimlər və s.) olmasının və bu qaydalara hörmətlə | davranış, etiket |

| | | |
|---|---|---|
| milli ünsiyyət etiketlərimizə uyğun gəlməyən fərqli-liklərə tolerant yanaşır. | yanaşılması. | |
| **3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.** | | |
| 3.2.1. Şəxsiyyəti formalaşdıran mənəvi keyfiyyətləri (*sadəlik, təvazökarlıq, səbrlilik, iradəlilik, çətin vəziyyətlərdə özünü itirməmək*) şərh edir. | Özünü başqalarından üstün tutmaq, öyünmək, dözümsüzlük və cəsarətsizliyin mənfi hal olduğunun şərh edilməsi. | sadəlik, iradəlilik, təvazökarlıq |
| 3.2.2. Mənəviyyata zidd xüsusiyyətlərə *(lovğalıq, qorxaqlıq, xəyanət)* münasibət bildirir. | Mənəviyyata zidd xüsusiyyətlərin (təkəbbürlü olmaq, cəsarətsiz olmaq, satqın olmaq) insanı gözdən saldığına münasibətin nümayiş etdirilməsi. | lovğalıq, qorxaqlıq, xəyanət |
| **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.** | | |
| 3.3.1. Dinin mahiyyətini sadə formada şərh edir. | Dinə etiqat, təkallahlılıq (Allahın varlığına inam, Allahın təkliyinə inam), çoxallahlı dinlər (atəşpərəstlik, buddizm, induizm) və bu dinlərin insanların mənəvi aləminə təsirini haqqında danışılması. | din, təkallahlılıq, qeyri-dinlər |
| 3.3.2. Dinlərin təbliğ etdiyi dəyərləri şərh edir. | Dinlərin insanları paklığa, düzlüyə, xeyirə çağırdığının şərh edilməsi. | din, düzlük, paklıq |
| 3.3.3. Peyğəmbərləri və səmavi kitabları tanıyır. | İslam, xristian, iudaizm, buddizm dinlərini təmsil edən peyğəmbərləri (Məhəmməd, İsa, Musa, Budda) və onların kitablarının (Qurani-Kərim, İncil, Tövrat) sadalanması. | peyğəmbər, səmavi kitablar |
| **3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 3.4.1.Mənəvi borc haqqında biliklərini nümunələr (həyati, bədii və təsviri sənət əsərləri) əsasında şərh edir. | Həyatda rastlaşdığı hər hansı bir situasiyada (məsələn, yıxılanı qaldırmaq, nəqliyyatda özündən böyüklərə, yaxud da xəstə və şikəstlərə yer vermək və s.) mənəvi hisslərin rol oynadığı və mənəvi borca ehtiyac olduğu məqamların bədii əsər və filmlərdən nümunələr gətirməklə şərh edilməsi. | mənəvi borc, ehtiyac, nümunə |
| **4. Sağlamlıq və təhlükəsizlik** | | |
| **4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 4.1.1. Ətraf mühitdə orqanizmə mənfi təsir göstərən amilləri, sağlam | Keyfiyyətsiz qidanın, çirkli havanın, çirkli suyun, yuxusuzluğun, ac qalmağın, çox televizor və kompyuterdən istifadənin ziyanlarının, alkoqol, siqaret, narkotikin orqanizmə, hətta ətrafındakılara mənfi təsirinin izah edilməsi. | sağlam həyat tərzi, qida, su, alkoqol |

| | | |
|---|---|---|
| həyat tərzinə zidd olan vərdişləri izah edir. | | |
| 4.1.2. Mövsümə görə geniş yayılan xəstəliklərdən qorunma yollarını izah edir. | Mövsümə görə geniş yayılan xəstəliklərdən qorunmaq üçün düzgün geyimin, immunitetin gücləndirilməsi məqsədi ilə vitaminlərin qəbulunun vacibliyinin, yuxusuzluq, ac qalmaq, çox televizor və kompyuterdən istifadənin ziyanlarının izah edilməsi. | geyim, immunitet, vitamin |
| **4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.** | | |
| 4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını sadalayır. | Qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən nəzarət altında istifadə, ehtiyatla davranış qaydalarının sadalanması. | qaz, elektrik, alət |
| 4.2.2. Vaxtı ötmüş qida məhsullarından, dərman preparatlarından icazəsiz istifadənin həyat üçün təhlükəli olduğunu izah edir. | Zəhərlənmə və ölüm hallarının vaxtı ötmüş qida və dərman preparatlarından istifadə zamanı baş verdiyinin izah edilməsi. | zəhərlənmə, dərman, qida |
| 4.2.3. Zəruri yol nişanlarını *(xəbərdarlıq, qadağan, məlumatverici)* fərqləndirir. | Yol nişanlarının tanınması, həyatla əlaqələndirilməsi, istifadə qaydalarının izah edilməsi və fərqləndirilməsi. | svetofor, piyada keçidi, yol nişanları |
| 4.2.4. Nəqliyyat vasitələrində *(gəmi, təyyarə)* təhlükəsizlik qaydalarını (göyərtənin kənarlarına yaxınlaşmamaq, xilasedici gödəkçədən və təhlükəsizlik kəmərindən istifadə, ayaqüstə durmamaq, mobil telefondan və digər texniki vasitələrdən istifadə etməmək) izah edir. | Gəmi və təyyarədə təhlükəsizlik qaydalarının (göyərtənin kənarlarına yaxınlaşmamaq, xilasedici gödəkçədən və təhlükəsizlik kəmərindən istifadə, ayaqüstə durmamaq, mobil telefondan və digər texniki vasitələrdən istifadə etməmək) izah edilməsi. | nəqliyyat, gəmi, təyyarə |
| **4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |

| | | |
|---|---|---|
| 4.3.1. Fövqəladə halları səciyyəvi xüsusiyyətlərinə görə izah edir. | Təbii və texnogen fövqəladə halları səciyyəvi xüsusiyyətlərinə (uçqun, dağıntı, xəsarət, fəlakət və s.) görə müəyyənləşdirilməsi, seçilməsi və qruplaşdırılması. | fövqəladə hal, fəlakət, dağıntı |
| 4.3.2. Qəzalardan mühafizə vasitələrindən istifadə qaydalarını şərh edir. | Əleyhqaz, respirator, yanğınsöndürmə balonu, su, qum kimi mühafizə vasitələrindən isitifadə qaydalarının şərh edilməsi. | qaydalar, əleyhqaz, respirator, yanğınsöndürmə balonu |
| 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal vəziyyətlərdə (əleyhqaz, yanğınsöndürmə balonu) özünümühafizə bacarıqları nümayiş etdirir. | Sinifdə və yaxud məktəb daxilində süni yaradılmış ekstremal vəziyyətlərdə (məsələn, yanğın həyəcanı, zəlzələ və s.) özünümühafizə bacarıqlarının nümayiş etdirilməsi. | ekstremal vəziyyət, özünümühafizə |

| IV SİNİF | | |
|---|---|---|
| **1. Təbiət və biz** | | |
| **1.1. Müşahidə etdiyi varlıqların və təbiət hadisələrinin mahiyyətini anladığını nümayiş etdirir.** | | |
| 1.1.1. Varlıq və hadisələrin mahiyyəti haqqında kiçik təqdimatlar edir. | Əvvəlki siniflərdə varlıq və hadisələrlə bağlı əldə edilmiş biliklərə (fəsillərin dəyişməsi, canlıların inkişafına təsir edən amillər, təbii və süni varlıqlar, qida zənciri, suyun, torpağın, havanın, günəşin canlılara təsiri-fotosintez) istinad edilərək kiçik təqdimatların edilməsi. | varlıq, hadisə, fotosintez |
| 1.1.2. Təbii resurslardan, təbiət hadisələrindən (“işıq”, “səs” və “enerji”) istifadədə elmin rolunu izah edir. | Yel dəyirmanlarının, su-elektrik stansiyalarının (Əli-Bayramlı, Mingəçevir, Şəmkir su-elektrik stansiyaları), sadə elektrik dövrəsinin əhəmiyyətinin izah edilməsi. | işıq, enerji, su- elektrik stansiyası |
| 1.1.3. Azərbaycanda mövcud olan enerji mənbələri haqqında kiçik təqdimatlar edir. | Çayların üzərində qurulmuş elektrik stansiyalarının suyun, yel dəyirmanlarının, küləyin hesabına işləmə prinsipinin izah edilməsi, Azərbaycanda olan enerji mənbələri (Şəmkir, Varvara, Yenikənd, Mingəçevir su-elektrik stansiyaları) haqqında kiçik təqdimatların hazırlanması. | enerji, yel dəyirmanı, külək, su |
| **1.2. Sadə coğrafi bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 1.2.1. Coğrafi obyektləri xəritədə göstərir. | Coğrafi obyektləri (istər ölkəmizdə, istərsə də ölkədən kənarda yerləşən) xəritədə göstərilməsi. | obyekt, xəritə |
| 1.2.2. Yerin təbii zonalarını sadə şəkildə təsvir edir. | Yerin təbii zonalarının (dağ, düzənlik, meşə, çay, dəniz, okean, ada, materik) xəritədə göstərə bilməsi. | xəritə, zona |
| 1.2.3. Yaşadığı ərazinin, məhəlin planını çəkir. | Yaşadığı ərazinin (küçə, döngə, bütün məhəllə) planının təsvir edilməsi. | plan, ərazi |

| | | |
|---|---|---|
| **1.3. Canlılar aləmi haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 1.3.1. Canlı və cansız təbiət arasındakı əlaqələri izah edir. | Yer kürəsində mövcud olan hər bir varlığa insanın (ən ali varlıq) təsiri, eləcə də insana yer kürəsindəki varlıqların təsirinin izah edilməsi. | qoruq, çirklənmə, varlıq, canlı, cansız |
| 1.3.2. Bitki, heyvan və mikroorqanizmlərin insan həyatında rolunu izah edir. | Torpağın münbitləşməsi üçün bitki və heyvan çürüntülərinin vacibliyinin, xəmirin qıcqırması üçün vacib olan mikroorqanizmlərin əhəmiyyətinin izah edilməsi. | mikrob, mikroorqonizm, münbitləşmə, çürüntü |
| 1.3.3. İnsan orqanlarının funksiyalarını sadə şəkildə izah edir. | İnsan skeletinin quruluşunun (kəllə, gövdə, ətraflar), insanın daxili orqanlarının (ürək və qan damarları, ifrazat orqanları) tanınması və onların əhəmiyyətinin sadə şəkildə təsvir edilməsi. | skelet, orqan, insan |
| **1.4. Ekoloji bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | | |
| 1.4.1. Yaşadığı ərazidə ekologiyanın sağlamlaşdırılması üçün kiçik layihələr hazırlayıb təqdim edir. | Dənizin, torpağın, havanın qorunması üçün təkliflərin (ekoloji problemlərin ətraf mühitə təsirinin aradan qaldırılması yolları və s.) hazırlanması. | ekologiya, sağlamlıq, mühit |
| 1.4.2. Ekologiyanın qorunması ilə bağlı kiçik təqdimatlar edir. | Ekologiya sözünün mənasının dərk edilməsi, ekoloji problemlərin araşdırlması, insanların ətraf aləmi qorumamaqla özlərinə ziyan vermələrinin təqdimatlarla nümayiş etdirilməsi. | ekologiya, ziyan, ətraf |
| **2. Fərd və cəmiyyət** | | |
| **2.1. İnsanı sosial varlıq kimi dərk etdiyini nümayiş etdirir.** | | |
| 2.1.1. Cəmiyyətdə fərd, ailə, kollektivin rolunu sadə şəkildə izah edir. | Cəmiyyətin inkişafının şəxsdən, ailədən, kollektivdən asılı olduğunun izah edilməsi. | cəmiyyət, ailə, kollektiv, inkişaf |
| 2.1.2. İnsanı sosial varlıq kimi səciyyələndirən cəhətlər barədə kiçik təqdimat hazırlayır. | İnsanın ağlı, düşüncəsi, biliyi, əməyi sayəsində həm özünün həm də cəmiyyətin inkişafındakı rolunun izah edilməsi. | insan, sosial varlıq |
| 2.1.3. Ailə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatlar hazırlayır. | Hər bir şəxsin ailədə və kollektivdə üzərinə düşən vəzifələr haqqında təqdimatların hazırlanması. | kollektiv, sinif, ailə, vəzifə |
| **2.2. Sadə iqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | | |
| 2.2.1. "Qənaət" və "israf " | Qənaət və israf sözlərinin mənasının izah edilməsi, bu anlayışların | israf, qənaət |

| | | |
|---|---|---|
| anlayışlarını müqayisə edir. | fərqləndirilməsi. | |
| 2.2.2. "Vergi", "Dövlət büdcəsi" və "Sığorta" anlayışlarını sadə şəkildə izah edir. | Dövlət büdcəsini formalaşdıran xərclərin izah edilməsi, təbii fəlakət və ya bədbəxt hadisələr nəticəsində zərər çəkmiş şəxsə və yaxud təşkilata xüsusi təşkilat tərəfindən verilən pulun sığortanı təşkil etdiyinin izah edilməsi. | vergi, büdcə, sığorta |
| 2.2.3. Milli pul nişanları ilə digər dövlətlərin pul nişanlarını fərqləndirir. | Milli pullarla bəzi digər dövlətlərin pul vahidləri arasındakı quruluş, forma, rəng, dəyər fərqlərinin izah edilməsi. | Pul, manat, forma, dəyər |
| **2.3. Dövlət rəmzlərini tanıdığını nümayiş etdirir.** | | |
| 2.3.1. Dövlət orqanlarının *(təhsil, səhiyyə, vergi, daxili işlər, məhkəmə)* funksiyalarını izah edir. | Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Vergilər Nazirliyi, Daxili İşlər Nazirliyi, məhkəmə orqanlarının tanınması, funksiyalarını, onlar haqqında biliklərinin əks etdirilməsi. | təhsil, səhiyyə, vergi, məhkəmə, dövlət |
| **2.4. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | | |
| 2.4.1. Müvafiq situasiyalarda qanun və qaydalara əməl edir. | Müvafiq situasiyalarda qanun və qaydalara əməl edilməsi. | qanun, qayda |
| 2.4.2. Öz hüquqlarını uşaq hüquqları haqqında müvafiq sənədlər baxımından şərh edir. | Uşaq Hüquqları Konvensiyası, Uşaq Hüquqları haqqında Azərbaycan Qanunu, Uşaq Hüquqları Bəyannaməsi baxımından uşaq hüquqlarının şərh edilməsi. | hüquq, qanun, bəyannamə |
| **3. Mənəviyyat** | | |
| **3.1. Ünsiyyət mədəniyyəti haqqında təsəvvürə malik olduğunu nümayiş etdirir.** | | |
| 3.1.1. Tənqidi münasibətdə nəzakət qaydalarına *(şəxsiyyətə toxunmamaq, kobud ifadələr işlətməmək, sərt formada etiraz etməmək, qəbuledilməz təkliflərə "yox" demək)* riayət edir. | Hər hansı məsələni qiymətləndirərkən nəzakət qaydalarına (bağışlayın; üzr istəyirəm; siz necə düşünürsünüz; məncə bir qədər düşünməyə dəyər) əməl edilməsi. | nəzakət, tənqid, qayda |
| 3.1.2. Ünsiyyət mədəniyyətinə həsr olunmuş kiçik təqdimatlar | Əlamətdar gün münasibəti ilə təbrikin (Mübarək olsun. Sağlam yaşa.) söylənilməsi. | ünsiyyət, mədəniyyət |

| | | |
|---|---|---|
| edir | | |
| **3.2. İnsan mənəviyyatını şərtləndirən amilləri anladığını nümayiş etdirir.** | | |
| 3.2.1. Bədii əsər, film və tamaşa qəhrəmanlarının nümunəsində mənəvi keyfiyyətləri izah edir. | Oxunulmuş əsər (“Xeyir və Şər”, “Bir gəncin manifesti”), baxılmış film (“Babək”) və tamaşalarda müsbət halların qeyd edilməsi. | qəhrəmanlıq, nümunə, keyfiyyət |
| 3.2.2. Yiyələnmiş olduğu mənəvi keyfiyyətləri müzakirə və diskussiyalarda nümayiş etdirir. | Mənəviyyata zidd xüsusiyyətlərin mənfi təsirinin izah edilməsi və mənəvi keyfiyyətlərin (əməkdaşlıq, başqasının fikrinə hörmət, dözümlülük) inkişaf etdirilməsi. | mənəviyyat, keyfiyyət |
| **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu anladığını nümayiş etdirir.** | | |
| 3.3.1. İslam dininin böyük şəxsiyyətlərini tanıyır. | Dinin böyük şəxsiyyətləri (Məhəmməd peyğəmbər və onların ən yaxın tərafdaşları) haqqında fikirlərin izah edilməsi. | islam, din |
| 3.3.2. İslam peyğəmbərinin həyat və fəaliyyəti haqqında kiçik təqdimatlar edir. | Məhəmməd peyğəmbərin həyatı (peyğəmbərimizin uşaqlıq illəri) və gördüyü işlər (islam dininin yayılması) barəsində məlumat verilməsi. | peyğəmbər, islam |
| 3.3.3. Dini dəyərlərlə xurafatı fərqləndirir. | Müxtəlif dini kitablarda təbliğ olunan dini dəyərlərin subyektiv yanaşmalardan fərqələndirilməsi. | din, xurafat |
| **3.4. Mənəvi borc haqqında təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 3.4.1. Ailə və Vətən qarşısında mənəvi borcla bağlı kiçik təqdimatlar edir. | Ailə və Vətən qarşısında olan borcunun dərk edilməsi, bu borcun vətənə xidmət, ailəyə diqqət, qayğı və valideynlərə hörmət, bacı-qardaşlarının qayğısına qalmaq və s. bu kimi faktlarla bağlı təqdimatların edilməsi. | vətənə xidmət, ailəyə diqqət, fakt |
| **4. Sağlamlıq və təhlükəsizlik** | | |
| **4.1. Sağlamlığın mühafizəsi və sağlam həyat tərzi haqqında bilik və bacarıqlara malik olduğunu nümayiş etdirir.** | | |
| 4.1.1. Əsəbi halların və digər emosional gərginliklərin insan sağlamlığına mənfi təsirini izah edir. | Stres, əsəb, gərginliyin baş ağrıları və diqqətsizliyə gətirib çıxardığını və bunun insan orqanizmi üçün çox təhlükəli olmasının izah edilməsi. | əsəb, stres, emosionallıq, sağlamlıq |
| 4.1.2. Nümunələr əsasında sağlamlığın qorunmasına aid kiçik təqdimatlar edir. | Əvvəlki siniflərdə sağlamlığın qorunmasına dair əldə etdiyi biliklərə (gün rejimi, düzgün qida, geyim, televizor və kompyuterdən istifadəyə məhdudiyyət və s.) istinad edərək kiçik təqdimatlar edilməsi. | sağlamlıq, rejim, qida |
| **4.2. Həyat və sağlamlıq üçün təhlükə törədən mənbə və obyektləri tanıyır və nəzərə alır.** | | |

| | | |
|---|---|---|
| 4.2.1. Məişətdə istifadə olunan qaz və elektrik avadanlıqlarından, habelə alışdırıcı, deşici və kəsici alətlərdən təhlükəsiz istifadə qaydalarını izah edir. | Qaz və elektrik avadanlıqlarından (qaz plitəsi, ütü, tozsoran, ət maşını, şirə çəkən maşın, soyuducu, lampa, su qızdırıcısı və s.), habelə alışdırıcı, deşici və kəsici alətlərdən (bıçaq, qayçı, biz və s.) nəzarət altında istifadə edilməsi, ehtiyatla davranış qaydalarının sadalanması və həyatla əlaqələndirərək izah edilməsi. | təhlükəsizlik, qaz, elektrik avadanlıqları |
| 4.2.2. Müvafiq nişanlara *(yüksək gərginlik, minalanmış sahə, yanğın təhlükəsi, radioaktivlik, zəhərli maddə, torpaq sürüşməsi, uçqun, daşqın və çimərlik nişanları)* görə həyat üçün təhlükə mənbələrini fərqləndirir. | Qoyulmuş nişanlara uyğun olaraq tikinti olan yerlərinin, elektrik və qaz çəkilən ərazilərin, minalanmış sahələrin və s. ayırd edilməsi və fərqləndirilməsi. | nişan, təhlükə |
| 4.2.3. Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatlar edir. | Yol hərəkəti və nəqliyyatdan istifadə qaydaları ilə bağlı kiçik təqdimatların edilməsi. | yol, nəqliyyat, qayda |
| 4.2.4. Nəqliyyat vasitələrindən istifadə zamanı təhlükəsizlik qaydalarına riayət edir. | Nəqliyyat növündən (yerüstü, yeraltı, dəniz, hava) asılı olaraq təhlükəsizlik qaydalarının sadalanması və onlara riayət edilməsi. | nəqliyyat, təhlükəsizlik |
| **4.3. Fövqəladə hallar barəsində ilkin təsəvvürlərə malik olduğunu nümayiş etdirir.** | | |
| 4.3.1. Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatlar edir. | Fövqəladə halların nəticələrinə dair kiçik təqdimatların edilməsi. | fövqəladə hal |
| 4.3.2. Qəza zamanı ilkin tibbi yardım barədə biliklərini şərh edir. | Hava zəhərlənməsi, zədələnmə, suda boğulma zamanı ilkin tibbi yardım (süni nəfəs, sarğı, döş qəfəsinin massajı və s.) göstərmə qaydalarının şərh edilməsi. | ilk tibbi yardım, qəza |
| 4.3.3. Yerli şəraitə uyğun süni yaradılmış ekstremal | Sinifdə və yaxud məktəb daxilində müəllim tərəfindən süni yaradılmış ekstremal vəziyyətlərdə özünümühafizə və tibbi yardım bacarıqlarının nümayiş edilməsi. | ekstremal vəziyyət, tibbi yardım, mühafizə, |

| | | |
|---|---|---|
| vəziyyətlərdə mühafizə və tibbi yardım bacarıqları nümayiş etdirir. | | özünümühafizə |

| | | |
|---|---|---|
| | **V sinif** | |
| | **1. Təbiət və biz** | |
| | **1.1. Varlıq, təbiət və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| **Standart** | **Məzmun** | **Açar söz** |
| 1.1.1. Cisim, maddə və təbiət hadisələrinin sadə təsnifatını verir. | Mexaniki hərəkəti növlərinə görə (*sükunət və hərəkət, surətli, yavaş, düzünə, dönən, fırlanan, titrəyən*) fərqləndirməsi, qüvvənin cismin hərəkət sürətini və formasını dəyişən səbəb olduğunu əsaslandırması, toxunmaqla və məsafədən təsir edən qüvvələri fərqləndirməsi, onların təzahürlərinə aid misallar göstərməsi, səma cisimləri ilə bağlı müxtəlif hadisələri onların hərəkəti və qarşılıqlı təsirləri ilə əlaqələndirməsi, hərəkət və qarşılıqlı təsirdə olan cisimlərin enerjiyə malik olduqlarını izah etməsi. | Cisim, maddə, təbiət, təsir, enerji. |
| | **1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.2.1. Canlıların həyatında ekoloji mühitin rolunu əsaslandırır. | İnsan fəaliyyətinin təbiətə mənfi təsirlərinin aradan qaldırılmasını, təbiətdə ekoloji tarazlığın qorunub saxlanmasının mahiyyətini və onun əhəmiyyətini, təbiətdə ekoloji normalara uyğun davranışı izah etməsi. | Təbiət, ekoloji tarazlıq, ekoloji norma. |
| | **2. Fərd və cəmiyyət** | |
| | **2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 2.1.1. Cəmiyyətin sosial tərkibini izah edir | Cəmiyyətin sosial strukturunu təşkil edən fərdlərin, müxtəlif sosial birliklərin və qrupların qarşılıqlı təsir və əlaqədə olmasını, ən kiçik (eyni yaşayış məhəlləsində və ya binasında, eyni müəssisədə, məktəbdə, xəstəxanada və s.-də olan sosial qruplar, eləcə də ailə) və ən böyük sosial birliklərin (irq, siniflər, millət) arasındakı fərqləri və oxşarlıqları müəyyənləşdirməsi, ailənin başlıca və özünəməxsus xüsususiyyətləri əsasında onun tərifini verməsi, ən erkən etnik birlik olan nəslin meydana gəlməsinin, tayfa, xalq və millətin xarakterik əlamətlərinin, irqlərin ümumi mənşəyə malik bioloji insan qrupu olmasının izah etməsi, dövlətin meydana gəlməsi haqqında müxtəlif fikirlərin ümumiləşdirməsi, onu ailə hakimiyyətinin davamı kimi əsaslandırması, dövləti yaradan amillərin rolunun müəyyənləşdirməsi. | Sosial struktur, ən kiçik sosial qruplar, ən böyük sosial qruplar, ailə, nəsil, tayfa, xalq, millət, irqlər, dövlət. |
| 2.1.2. Dövləti cəmiyyətin həyatını tənzimləyən vahid | Dövləti müəyyən iqtisadi inkişaf pilləsində ictimai inkişafın məhsulu olması, bir siyasi təşkilat olaraq cəmiyyət həyatının tənzimlənməsində, sosial müvazinətin saxlanmasında, | İctimai inkişaf, vahid siyasi təşkilat, sosial |

| | | |
|---|---|---|
| siyasi təşkilat kimi izah edir. | müxtəlif insan qruplarının ümumi məqsəd ətrafında birləşdirməsini, cəmiyyətin sosial, iqtisadi, mənəvi inkişafında mühüm rolu, cəmiyyət və şəxsiyyətin mənafeyinə xidmət etməsi, cəmiyyətdə əsas idarəedici və təşkilatçı qüvvə olması. | müvazinət. |
| | **2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | |
| 2.2.1. Insan hüquqlarını müdafiə edən qurumları fərqləndirir | Hüququn obyekti və subyekti arasında qarşılıqlı əlaqənin müəyyənləşdirilməsi, insan hüquqlarına əməl olunması üzrə başlıca məsuliyyətin dövlətin üzərinə qoyulmasının qanunauyğunluğunun əsaslandırılması, hər bir insanın ləyaqətlə və layiqincə yaşamaq imkanına təsir edə bilən bütün qaydaların formalaşdırılmasının məhz dövlətdən asılı olmasını, insan hüquqlarına riayət edilməsinə görə, dövlətin məsuliyyətinin üç tərkib hissəsinin (hörmət, müdafiə və bu cür hüquqların verilməsi öhdəlikləri) olmasını, insan hüquqlarına hörmət etmək öhdəliyinin dövlət tərəfindən pozulmasının səbəbləri və nəticələrini izah edir. İnsan hüquqları üzrə qeyri-dövlət qurumlarının və beynəlxalq qurumların rolunu (BMT, Avropa Şurası, ATƏT) fərqləndirməsi. | Hüququn obyekti, hüququn subyekti, ləyaqət, layiqincə yaşamaq imkanı, insan hüquqlarına hörmət etmək, öhdəlik, BMT, Avropa Şurası, ATƏT. |
| 2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumlar haqqında topladığı materialları təqdim edir. | İnsan hüquqlarına riayət olunması üzrə dövlətin məsuliyyəti haqqında təsəvvür yaratmaq üçün kiçik hekayələrin tərtib etməsi, “Barışdırıcı komissiyada dinləmə” mövzusunda rollar üzrə oyun keçirməsi, BMT-nin, Avropa Şurasının, ATƏT-in insan hüquqlarının qorunması ilə məşğul olan əsas orqanları haqqında məlumatları sistemləşdirməsi. | Dövlətin məsuliyyəti, İnsan hüquqları üzrə beynəlxalq sistemin əsas orqanları. |
| | **2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | |
| 2.3.1. İqtisadi resursları və iqtisadi vasitələri fərqləndirir. | İstehsal vasitələrinin (torpaq, su, hava və s.) bir resurs növü kimi istehsalda növünü fərqləndirməsi, iqtisadi resursları, torpağın, istehsal vəsaitlərini və əməyi fərqləndirməsi, onların istehsalda oynadığı rolu izah etməsi. | Resurs, əmək, torpaq, istehsal vasitəsi. |
| | **3. Mənəviyyat** | |
| | **3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.1.1. Ünsiyyəti mənəvi tələbat kimi qiymətləndirir. | Kainatda hər şeyi bir-biri ilə əlaqələndirməsi, bütün canlı varlıqların bir-birləri ilə özlərinə məxsus ünsiyyət saxlamalarının izah etməsi, yer üzündə ən mükəmməl varlığın insanın olduğu qənaətinə gələrək insanın ünsiyyət baxımından da ən mükəmməl olması nəticəsini çıxarması, bu mükəmməlliyin ünsiyyətdə kimisə təqlid etməklə deyil, ünsiyyətdə mütləq müəyyən qanun-qaydalara tabe olmaqla mümkün olmasını isbat etməsi, insanın bu qayda-qanunları özündə xasiyyətə çevirə bildikdə, həqiqi ünsiyyət mədəniyyətinə malik olduğunu şərh etməsi. | Kainat, mükəmməllik, ünsiyyət mədəniyyəti. |
| | **3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.2.1. Əxlaq və davranışlara təsir edən amilləri fərqləndirir. | İnsanın davranışlarına təsir edən amillər arasında əxlaqın başlıca amil olduğunun, əxlaqda isə xasiyyətinin, ailə və ictimai mühitin, dini həssaslığının (yaxud laqeydliyi), insanın öz mənəvi hiss və duyğularını nə qədər tanıyıb-tanımamasını, onları idarə edə bilib-bilməməyin əsas rol oynadığını və onların əxlaqi davranışlarda iştirakını fərqləndirməsi. | Xarakter, dini həssasiyyət, mənəvi hiss və duyğular, mənəvi hərəkət qüvvələri. |

| | | |
|---|---|---|
| 3.2.2. Mənəvi borcun əhəmiyyətini izah edir. | Kainatda, yerdə insanı əhatə edən varlıqların hər birinin bir və ya bir neçə vəzifə yerinə yetirdiyini qavramaqla heç nəyin boşuna yaradılmadığının dərk etməsi, ardınca hər şeyin insanın var olmasına xidmət etdiyini dərk etməklə onu əhatə edən canlı və cansız aləmdə hər varlığın insanın yaşaması üçün özünəməxsus vəzifə və vəzifələrinin olduğunun, bu vəzifələri yerinə yetirməklə hər şeyin insana xidmət etdi qənaətinə gəlməyin və yer üzündə bir insan olaraq özünün də vəzifələrinin olduğunu və bu vəzifələrə görə məsuliyyət daşıdığının izah etməsi, mənəvi borcun təbiət, ailə, cəmiyyət, dövlət qarşısında əhəmiyyətini izah etməsi. | Vəzifə, məsuliyyət, qulluq, xidmət etmək. |
| | **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.** | |
| 3.3.1. Dini inamların ümumi və fərqli cəhətlərini müqayisə edir | Səmavi dinlərin hamısının mənbəyi bir olduğu üçün onların üç əsas prinsipini (iman, ibadət, əxlaq) şərh etməsi, bütün dinlərdə mənbə eyni olduğu üçün inam sisteminin də eyni olduğunu, onların hamısında Allaha, Axirət gününə, metafizik varlıqlara, peyğəmbərlərə, Kitablara, Qəza və Qədərə inamının olduğunu, amma İslama qədərki dinlər dəyişikliyə məruz qaldığı üçün zaman keçdikcə onlardakı inam sistemində bəzi fərqliliklərin əmələ gəldiyinin misallarla izah etməsi, qeyri-səmavi dinlər vəhy yolu ilə gəlməsə belə, onlarla səmavi dinlər arasında da inam oxşarlıqları və fərqliliklərinin olmasını müqayisə etməsi. | Fiziki və metafiziki varlıqlar, Qəza və Qədər, vəhy. |
| | **4. Sağlamlıq və təhlükəsizlik** | |
| | **4.2. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.1.1. Sağlamlığın mənəvi, fiziki və emosional aspektlərini fərqləndirir. | Sağlamlığın hər üç aspektini biri-birindən fərqləndirməyi bacarması, mənəvi, fiziki, emosional sağlamlığın özünəməxsus xüsusiyyətlərini, oxşar və fərqli cəhətlərini müəyyənləşdirməsi. | Sağlamlıq, mənəvi, fiziki, emosional aspekt. |
| | **4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.2.1. Məişətdə və ictimai yerlərdə yarana biləcək təhlükəli və xoşagəlməz halları izah edir. | Məişətdə və ictimai yerlərdə insan həyatı üçün təhlükə törədə biləcək halları, məsələn məişətdəki elektrik avadanlıqlarından, eləcə də kəsici, deşici alətlərdən düzgün istifadə etməməklə törənəcək fəsadların, həmçinin ictimai yerlərdə bu kimi halların qarşısının alınması yollarını izah etməsi. | Təhlükə, xoşagəlməz hal, fəsad. |
| 4.2.2. Yol nişanları və yol hərəkəti qaydalarının əhəmiyyətini izah edir. | Yol hərəkəti qaydalarına düzgün riayət etmək lazım olduğu haqqında fikirlərini bildirməsi, yol nişanlarını tanıması, məsələn, piyada keçidi, giriş qadağandır və s. onların hansı funksiya daşıdığını izah etməsi. | Yol hərəkəti qaydaları.yol nişanı, piyada keçidi, giriş qadağandır, |
| | **4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.** | |
| 4.3.1. Fövqəladə hadisələr zamanı yarana biləcək təhlükəni qiymətləndirir. | Zəlzələ, sel, dolu, daşqın, torpaq sürüşməsinin təbii fəlakət olmasını fərqləndirməsi, belə hallarda özünü müdafiə etməyi bacarması, dərin sularda həyatı qorumaq bacarıqlarını, xilasolma və xilasetmə üçün tələb olunan qaydaları bacardığını şərh etməsi, günəş və şaxta | Zəlzələ, sel, fəlakət, daşqın, torpaq sürüşməsi. |

| | | |
|---|---|---|
| | vurmasından qorunmağın qaydalarını bilərək qiymətləndirməsi. | |
| | **VI sinif** | |
| | **1. Təbiət və biz** | |
| | **1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.1.1. Maddələrin xassələrini onların daxili quruluşu ilə əlaqələndirir. | Maddələrin daxili quruluşu haqqında təssəvvürlərini ifadə etməsi, daxili quruluşuna görə maddələri bir-birindən fəqləndirməsi, onları xassələrinə görə təsnif etməsi, maddələrin daxili quruluşunu xassələri ilə əlaqələndirməyi bacarması. | Maddə, xassə, daxili quruluş, bərk, maye, qaz halı. |
| | **1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.2.1. İnsanı təbiətin bir hissəsi kimi səciyyələndirir. | Canlı varlıqların növləri haqqındakı fikirlərini nümayiş etdirməsi, canlı varlıqları növlərinə görə ayırması, onları təsnif etməsi insanı təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirməsi, insanın canlı varlıqlar arasında ən mükəmməl olduğunu nümunələrlə şərh etməsi. | İnsan, təbiət, səciyyələndirmə, şüur, ağıl, nitq. |
| | **2. Fərd və cəmiyyət** | |
| | **2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 2.1.1. Cəmiyyətin idarə olunmasını şərh edir. | Cəmiyyətin idarə olunması vasitəsi kimi hakimiyyətin rolunu, qanunların hazılanması qaydalarını müəyyənləşdirir, onların cəmiyyət həyatının tənzimlənməsinə təsirini və bunların əsasında dövlətin əlamətlərini şərh etməsi. | Hakimiyyət, qanunlar, dövlətin əlamətləri, parlament, nazirlər kabineti. |
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlətin funksiyalarını izah edir. | Dövlətin fəaliyyətinin istiqamətləri əsasında onun daxili (iqtisadi, sosial, hüquqi, siyasi, təhsil və elm, mədəni-tərbiyə, ekoloji və s.) və xarici (başqa dövlətlərlə əməkdaşlıq, ölkənin xarici təhlükədən müdafiəsi, dövlətin sərhədlərinin qorunması) funksiyalarını izah etməsi. | Dövlətin daxili funksiyaları, dövlətin xarici funksiyaları. |
| | **2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | |
| 2.2.1. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyətini sadə şəkildə təsvir edir. | İnsan hüquqlarını müdafiə edən qurumları tanıması, onları fərqləndirməsi və fəaliyyətləri haqqında nümunələr göstərərək təsvir etməsi, insan hüquqlarını müdafiə edən qurumları müəyyənləşdirməsi, onların təyinatını və fəaliyyətini sadə şəkildə təsvir etməsi. | İnsan hüquqları, müdafiə, qurum, fəaliyyət. |
| 2.2.2. İnsan hüquqlarını müdafiə edən qurumların fəaliyyəti ilə bağlı topladığı materialları təqdim edir. | İnsan hüquqlarını müdafiə edən qurumlar barədə müxtəlif mənbələrdən məlumatlar toplaması, onların təyinatına və fəaliyyəti sahəsinə aid toplanmış materialları sadə şəkildə təqdim etməsi. | İnsan hüquqları, müdafiə, qurum, fəaliyyət. |
| | **2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir** | |
| 2.3.1. İqtisadiyyatın inkişafında qiymət, tələb və təklifin rolunu izah edir. | Bazar iqtisadiyyatının əsasını maya dəyəri, qiymət, tələb və təklifin qarşılıqlı əlaqəsinin təşkil etdiyini bilir və gundəlik alış-verişdə əmtəənin qiymətinin formalaşmasını, parakəndə və topdansatış qiymətlərin fərqliliyini izah etməsi. | İqtisadiyyat, inkişaf, qiymət, tələb, təklif. |

| | | |
|---|---|---|
| | **3. Mənəviyyat** | |
| | **3.1.** Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirməsi. | |
| 3.1.1. Ünsiyyət mədəniyyətinin formalaşmasına təsir edən amilləri dəyərləndirir. | Ünsiyyət mədəniyyətinə təsir edən amilləri insanın xarakterik xüsusiyyətlərinin (xasiyyətinin), dini inancının və ona bağlılığının, ailəsi və ictimai mühitin, bilik və məlumatlarının fərqini, onlar arasında əlaqəni və təsir dairəsini dəyərləndirməsi. | Xasiyyət (xarakter), fitrət, mühit, dünyagörüş |
| | **3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.2.1. Əxlaq və davranış normalarının cəmiyyətin həyatındakı rol və əhəmiyyətini izah edir. | Cəmiyyətin həyatındakı əxlaq və davranış qaydalarını təsnifatına görə izah və şərh etməsi, cəmiyyətdəki əxlaq və davranış normalarının sahələrini (Ailədə əxlaq və davranış normaları; elm öyrənmək və öyrətməkdə əxlaq və davranış normaları; ictimai təşkilatlar, birliklər və quruluşlara aid əxlaq və davranış normaları; bazarlama, reklam və iqtisadiyyat, yəni ticari-iqtisadi əxlaq və davranış normaları; çalışma həyatı, başqa sözlə iş-peşə və vəzifə əxlaq və davranış normaları; ətraf mühitin mühafizəsi və təbiət və ya ekoloji əxlaq və davranış normaları; siyasət və idarəetmə və ya dövlət əxlaq və davranış normaları,) seçib izah etməsi, fərdi əxlaq və davranış normalarının yuxarıdakı ictimai həyat sahələrində necə əks olunduğunu və əhəmiyyətini izah etməsi. | Ailə əxlaqı, elm əxlaqı, sosial qurumların əxlaqı, ticarət əxlaqı, iş əxlaqı, ekoloji əxlaq, siyasət əxlaqı. |
| 3.2.2. Ailə və ictimai mühitdə mənəvi borcunu nümunələrlə izah edir. | İnsanın həyatında, sağlamlığında, təhsilində kimlərin və nələrin rolunu nümunələrlə, həyati misallarla izah etməsi, onlar (ailə, məktəb, qohum-qonşular, müəllimlər, dostlar, yoldaşlar, dövlət və onun məmurları) qarşısında borclarını dərk edərək və bu borcun nələrdən ibarət olduğunu şəxsi həyatından, ətrafındakı insanların həyatından nümunələrlə göstərməsi. | Ictimai mühit, sosial həyat, cəmiyyət, mənəvi borc. |
| | **3.3.Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.** | |
| 3.3.1. Dini ibadət və mərasimləri müqayisə edir. | Səmavi dinlər eyni mənbəyə malik olduqlarından onlar hamısında eyni və oxşar ibadətlərin olduğunu misallarla göstərməsi, onların fərqini izah etməsi, qeyri-səmavi dinlər vəhy yolu ilə gəlməsə belə, onlarla izah səmavi dinlər arasında da ibadət oxşarlıqları və fərqliliklərinin izahını verməsi. | Səcdə, sitayiş, şəkk, məscid, kilsə, sineqoq, atəşgah, bütxana, xürafə. |
| | **4. Sağlamlıq və təhlükəsizlik** | |
| | **4.1.Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.1.1. Sağlam həyat tərzinin əsas şərtlərini fərqləndirir. | Sağlam həyat tərzi sürməyin (düzgün qidalanmaq, yuxu rejiminə riayət etmək, piyada gəzinti, idmanla məşqul olmaq vəs.) yollarını fərqləndirməsi, sağlamlığı şərtləndirən əsas amilləri sadalaması. | Sağlamlıq, həyat tərzi, rejim, trenajor. |
| | **4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik bacarıqlar nümayiş etdirir.** | |
| 4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarını fərqləndirir. | Təhlükəsizliyi təmin etmək üçün məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına əməl etməsi, bu sahədə bacarıqlarını inkişaf etdirərək fərqləndirməsi. | Məişət, ictimai yer, təhlükəsiz davranış qaydaları, elektirik |

| | | |
|---|---|---|
| | | avadanlıqları, kəsici və deşici alətlər. |
| 4.2.2. Yol nişanlarının təyinatına uyğun bacarıqlar nümayiş etdirir. | Yol nişanlarının təyinatını bilməsi, təyinata uyğun bacarıqlar nümayiş etdirməsi və bunun sayəsində təhlükəsizliyini təmin edə bildiyini nümayiş etdirməsi. | Yol nişanı, təyinatı, uyğun bacarıq, qadağan edici, xəbardar edici. |
| | **4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.** | |
| 4.3.1. Fövqəladə hadisələr zamanı tələb olunan davranış qaydalarını izah edir. | Fövqəladə hadisələri müəyyənləşdirməsi, bu zaman hansı davranış qaydalarının məqbul hesab edildiyini, tələb olunan davranışın hansı xarakterdə olmasını izah etməsi. | Fövqəladə hadisə, davranış, qayda., sığınacaq, xias edici, əleyiqaz. |
| | **VII sinif** | |
| | **1. Təbiət və biz** | |
| | **1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.1.1. Təbiətdə baş verən hadisələri enerji çevrilmələri, hərəkət və qarşılıqlı təsirlə əlaqələndirir | Təbiətdə baş verən hadisələri energi çevrilmələri və hərəkətlə əlaqələndirməsi, mexaniki və kinetik enerjini fərqləndirməsi, onlara dair həyatı misallar tədqim etməsi. | şimşək, ilğım, göy qurşağı, elektrik, işıq effekti, havanın temperaturu. |
| | **1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.2.1. İnsan fəaliyyətinin təbiətə təsirini qiymətləndirir | İnsanların fəaliyyət sahələrini müəyyənləşdirməsi, insan faktorunun təbiətdə baş verən proseslərdə müsbət və mənfi rolunu aydınlaşdırması, antropogen təsirlərin nəticələrini müəyyənləşdirməsi. | İnsan fəaliyyəti, faktoru, proses, antropogen təsir. |
| | **2. Fərd və cəmiyyət** | |
| | **2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 2.1.1. Cəmiyyətin idarəetmə formalarını fərqləndirir. | Cəmiyyət həyatının iqtisadi, sosial, siyasi, mənəvi sahələrinin qarşılıqlı təsiri və idarə olunmasında ailənin, dövlətin, siyasi partiyaların, ictimai-siyasi hərəkatların, gənclər və qadın təşkilatlarının, yaradıcılıq təşkilatlarının, dini təşkilatlarının, müxtəlif birliklərin, müəssisələrin, avtoritar, totalitar və demokratik cəmiyyətlərin rolunu müəyyənləşdirir. əsas təşkilatçı qüvvə kimi dövlətin idarəetmə formasını, dövlət quruluşu formasını, siyasi rejimləri bir-birindən fərqləndirməsi. | Siyasi idarəetmə, sosial idarəetmə, iqtisadi idarəetmə, siyasi partiyalar, ictimai təşkilatlar və birliklər. |
| 2.1.2. Dövlətin idarəetmə formalarını fərqləndirir. | Mütləq monarxiya və konstitusiyalı monarxiyaların, prezidentli, parlamentli, prezident-parlamentli, respublikala qruluşlarını səciyyələndirməsi, hər birinə aid nümunələr göstərməsi, Respublika quruluşunun üstünlüklərinin fərqləndirməsi. | Mütləq monarxiya, konstitusiyalı monarxiya, prezidentli respublika, parlamentli |

| | | |
|---|---|---|
| | | respublika, prezident-parlamentli respublika. |
| | **2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | |
| 2.2.1. Hüquq sahələrini fərqləndirir. | Hüququn müxtəlif sahələrinə aid fikirlərini bildirməsi, sosial, siyasi, mülki, iqtisadi, mədəni münasibətlərin tənzimlənməsində hüququn rolunu izah etməsi, bu sahələrin müxtəlif normativ hüquqi sənədlərlə tənzimlənməsini fərqləndirməsi. | Hüquqi sahələr, sosial, siyasi, mülki, iqtisadi, mədəni hüquq. |
| 2.2.2. Normativ hüquqi sənədlərə istinad etməklə hüquq sahələrinə dair təqdimatlar hazırlayır. | Normativ hüquqi sənədləri toplaması, topladığı hüquqi sənədlər əsasında müxtəlif hüquq sahələrinə-sosial, siyasi, mülki, iqtisadi, mədəni dair təqdimatlar hazırlaması. | Normativ hüquqi sənəd, hüquq sahələri, sosial, siyasi, mülki, iqtisadi, mədəni. |
| | **2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | |
| 2.3.1. Əmək və onun növlərinin iqtisadi proseslərdəki rolunu şərh edir. | İnsan cəmiyyətində əməyin əsas rol oynadığını əsaslandırması və onun bir cox növlərində (fiziki əmək, zehini əmək, sahələr üzrə əmək, abstrak əmək (əmtənin qiymətini formalaşdıran abstrak əmək) əmtənin forma və keyfiyyətini formalaşdıran konkret əmək, sadə əmək (ixtisasın mürəkkəbliliyinə görə) əl əməyi, mexanikləşdirilmiş əmək, tam avtomatlaşdırılmış əməyin rolu şərh etməsi. | Əmək, iqtisadi prosesdə rolu, sadə əmək, ixtisasın mürəkkəbliliyinə görə əmək, əl əməyi. |
| | **3. Mənəviyyat** | |
| | **3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.1.1. Ünsiyyət qaydalarından istifadə bacarıqları nümayiş etdirir. | İnsanlararası ünsiyyət qaydalarında ən mühüm olan amillərə (insan haqq və hüquqlarına hörmət, valideyin, qohum, qonşu, dost, müəllim haqlarına əməl etmək; səbrli, dözümlü, mərhəmətli, üzügülər olmağa; böyüklərə qarşı hörmət, kiçiklərə şəfqətli və mərhəmətlilik nümayiş etdirmək; ünsiyyətdə olduğu adamların onun özü kimi eyni haqq və hüquqlara malik olduğunu nəzərə almaq; başqalarında qüsur, xəta axtarmamaq, başqasının arxasınca danışmamaq, qeybət etməmək; görüşdüyü adamlara salam vermək, əl sıxmaq; danışarkən tərəf-müqabilinin üzünə, gözünə baxmaq, oturarkən ayağını-ayağının üstünə atmamaq, əllərini belinə qoymamaq, "mənəm-mənəm" deməmək; yalan danışmamaq, amma hər doğru olanı da hər yerdə deməyin doğru olmadığını unutmamaq) əməl etməsi. | Qeybət, dedi-qodu, yalan və iftira, təkəbbür, təvazükarlıq. |
| | **3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.2.1. Müxtəlif əxlaqi keyfiyyətləri nümunələrlə əsaslandırır. | İnsan haqlaqrına əməl edilməsi və ya pozulması, səbrli və ya səbirsiz, həlimxasiyyətli və ya kobud rəftarı müqayisələrlə şərh etməsi;<br>Sevgi və mərhəmətliliklə kinlilik, düşmənçiliyi; sözbazlıq, qeybətlə səbr və təmkinlilik göstərməyi, özündənrazılıqla təmkinliliyi nümünələrlə müqayisə etməsi; | Səbrlilik, təntiklik, həlim, qaba, kobud, təmkinlilik |
| 3.2.2. Varlıq və cəmiyyət qarşısında mənəvi borcunu dəyərləndirir. | İnsanın ictimai varlıq olduğunu, təkbaşına yaşamasının mümkün olmadığını misallarla, yaxud ədəbi qəhrəmanların (məs. Tarzan, Mauqli) nümunəsində izah etməsi, mənəvi borcu (*Allah, Peyğəmbər, ailə, qohum-qonşu, müəllimlər, elm adamları, dostlar, yoldaşlar,* | Zəkat, sədəqə, infaq, savab. |

| | | |
|---|---|---|
| | *yoxsullar, kimsəsizlər, qocalar, xəstələr, əlillər, möhtaclar, təbiət (ekoloji), dövlət və xalq qarşısında*) sadalamaqla dəyərləndirməsi. | |
| | **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.** | |
| 3.3.1. Dinin əxlaqi dəyərlərin, mədəniyyətlərin formalaşmasına təsirini şərh edir. | Dinin əsas məqsədinin insanın kamiləşdirmək olduğunu, onun mənbəyinin isə kitab və peyğəmbərin həyatı olduğunu izah etməsi, mədəniyyətlərin ayrı-ayrı dinlərin təbliği və təsiri nəticəsində formalaşmış şüur, düşüncə və fəaliyyətlər əsasında meydana çıxan əxlaq və davranışlar olmasını, onların fəlsəfədə, ədəbiyyatda, incəsənətdə ifadə edilməsini, həmçinin adət-ənnənə şəklində meydana şıxmasını izah etməsi, buradan da bütün dinlərin (mədəniyyətlərin) formalaşmasında dini dəyərlərin rolunu izah etməsi, islam dini ən son və ən mükənməl din olmasını əsas götürərək ən mükəmməl mədəniyyətin də bizim olduğunu şərh etməsi. | Xoşməramlılıq, xoşgörü, mədəniyyətlərarası (dinlərarası) dialoq, tolerantlıq. |
| | **4. Sağlamlıq və təhlükəsizlik** | |
| | **4.1.Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.1.1. Sağlam həyat tərzini şərtləndirən amillərin əhəmiyyətini əsaslandırır. | Sağlam həyat tərzinin əsas parametrlərini müəyyənləşdirməsi, sağlam yaşamağı şərtləndirən əsas amillərin əhəmiyyətini faktlarla şərh etməsi, sanitariya-gigeniya qaydalarına əməl etməyin düzgün və rejimlə qidalanmanın, bədən tərbiyyəsi və idmanla məşğul olmanın, zərərli vərdişlərdən uzaq durmağın və nizamlı həyat tərzinin sağlam həyatın təminatı olduğunun əhəmiyyətini əsaslandırması. | Sağlam həyat tərzi, əsas parametrlər, nizamlı həyat, gigiyena, sanitariya, rejim. |
| | **4.2. Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik bacarıqlar nümayiş etdirir.** | |
| 4.2.1. Təhlükəsiz davranış qaydalarına riayət etməməyin nəticələrini qiymətləndirir. | Təhlükəsiz davranış qaydalarına riayət etmək barədə fikirlərini bildirməsi, təhlükəsizliyə riayət etmədikdə bunun əlillik, şikəstlik, ölümlə nəticələlənəcəyini qiymətləndirməsi, əlil və şikəst insanlaın cəmiyyətdə möhtac hala düşdüklərini, başaqalarının qayğısı və köməyi olmadan yaşaya bilmədikləirini nümunələrlə şərh edir və qiymətləndirməsi. | Təhlükəsiz davranış, qayda, riayət etmək, nəticələri qiymətləndirmə. |
| 4.2.2. İctimai nəqliyyatda təhlükəsiz davranış qaydalarına dair bacarıqlar nümayiş etdirir. | İctimai nəqliyyatın növlərini (avtobus, tramvay, metro, qatar, təyyarə, gəmi) təsnif etməsi, onlar arasında eyni, oxşar və fərqli olanları qruplaşdırması, onlarda ayrı-ayrılıqda təhlükəsizliyi təmin edəcək qaydaları bildiyini və əməl etdiyini nümayiş etdirməsi. | İctimai nəqliyyat, davranış qaydaları, avtobus, tramvay, metro, qatar, təyyarə, gəmi. |
| | **4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.** | |
| 4.3.1. Fövqəladə hadisələr zamanı ilkin yardım göstərir. | Fövqəladə hadisələr onların baş vermə səbəbləri barədə fikirlərini bildirməsi, ilkin yardımın növlərini aydınlaşdırması, fövqəladə hadisələr zamanı ilkin yardım göstərməsi.<br>Fövqəladə hallarda ehtiyac olacaq ilkin yardımları (uçqun altında qalan, suda boğulan, yanan, sınıq, çıxıq və kəsikli olmaq və s.) təsvir etməsi, bu halların hər birində davranışlarını sadalayır və nümunələrlə nümayiş etdirməsi. | Xəsarət, yanıq dərəcələri, xərək, yanğın köpük balonu, qoltuğaltı ağac. |
| | **VIII sinif** | |
| | **1. Təbiət və biz** | |

| | | |
|---|---|---|
| | **1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.1.1. Materiyanın quruluşunun və kainatda baş verən proseslərin ümumi qanunlara tabe olmasını əsaslandırır. | Materiyanın iki forması: maddə və sahənin olması, maddələrin quruluşu- bərk, maye və qaz halında olmaları, eyni maddələrin tərkibini təşkil edən zərrəciklər eyniliyi, bütün maddələr atom və molekullardan təşkil olunması barədə izahat verməsi.<br>Kainatda baş verən proseslərdən ona tanış olanların ümumi cəhətlərini şərh etməsi və onların ümumi qanunlara tabe olduğunu əsaslandırması. | Materiyanın quruluşu, eyniliyi, kainatda baş verən proseslər, ümumi qanunlar, işıq, istilik hadisələri, Günəş və Ay tutlmaları. |
| | **1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.2.1. Ekoloji tarazlığın qorunması, bərpasına dair layihələr hazırlayır. | Təbiətdə ekoloji tarazlığın mövcudluğunu faktlarla sübut etməsi, ekoloji tarazlığın pozulmasının fəsadlarından (havanın çirklənməsi, şirin su ehtiyatlarının tükənməsi, yaşıllıq sahələrinin azalması, torpaqların şoranlaşması, yoluxucu və müalicəsi çətin xəstəliklərin artması) bəzilərinin səbəblərini şərh etməsi, ekoloji tarazlığın bərpasanın zəruriliyini sübut etməsi, bunun üçün özünün layihələrini hazırlaması və müdafiə etməsi. | Havanın çirklənməsi, şirin su ehtiyatları, yaşıllıq sahələri, torpaqların şoranlaşması, yoluxucu və müalicəsi çətin xəstəliklər. |
| | **2.Fərd və cəmiyyət** | |
| | **2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 2.1.1. Cəmiyyətin inkişafında sahələrarası inteqrasiyanın əhəmiyyətini əsaslandırır. | Cəmiyyətin inkişafında iqtisadi, sosial, siyasi, mənəvi sahələrin qarşılıqlı təsirinin, bir-biri ilə inteqrasiyasının əhəmiyyətini əsaslandırması. | İnteqrasiya, qarşılıqlı təsir |
| 2.1.2. Cəmiyyətin idarə olunmasında dövlət hakimiyyətinin bölünməsini əsaslandırır. | Hüquqi dövlətin əsas əlamətlərindən biri kimi dövlət hakimiyyətinin bölünməsi prinsipinin- qanunvericilik hakimiyyətinin Milli Məclis, icra hakimiyyətinin Prezident, məhkəmə hakimiyyətinin Respublika məhkəmələri tərəfindəndən həyata keçirilməsinin əsaslandırması, qanunvericilik, icra və məhkəmə funksiyalarının müvafiq dövlət orqanları tərəfindən müstəqil icra olunması, bir dövlət orqanının əlində həm qanunvericilik, həm də icra funksiyasının cəmləşdirilə bilməməsinin cəmiyyət həyatının xalqın mənafeyinə uyğun olaraq demokratik formada idarə olunmasına təsir etdiyini bilməsi. | Qanunverici hakimiyyət, İcraedici hakimiyyət, Məhkəmə hakimiyyəti. |
| | **2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | |
| 2.2.1. Əsas insan hüquqlarını fərqləndirir. | Beynəlxalq və ölkə sənədlərində, qanunvericiliyində təsbit edilmiş əsas insan hüquqlarını sadalaması və şərh etməsi, onları əhəmiyyətlilik dərəcəsinə görə sıralaması və onların pozulmasının nə demək olduğunu şərh etməsi, fikir və söz azadlıqları, mətbuat, sərbəst toplanmaq kimi azadlıqlar barədə öz fikrini ifadə etməsi, onları insan hüquqları baxımından | İnsan hüquqları, işkəncə, yaşama, fikrini sərbəst ifadəetmə. |

| | | |
|---|---|---|
| | fərqləndirməsi, işgəncə və cəza arasında fərqi izah etməsi. | |
| 2.2.2. Tarixi hadisələrin, faktların və ədəbi əsərlərin nümunəsində insan hüquqlarının pozulmasına dair təqdimatlar hazırlayır. | İnsan hüquqlarının pozulmasına dair tarixi faktlar, ədəbi əsərlərdən parçalar toplaması, topladığı materiallar əsasında hüquq pozuntularına dair təqdimatlar hazırlaması. | Tarixi hadisələr, faktlar, ədəbi əsərlər, nümunə, insan hüquqları, pozulma. |
| | **2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | |
| 2.3.1. İstehsal infrastrukturlarına (maliyyə, vergi, sığorta) dair təqdimatlar hazırlayır. | Bazar iqtisadiyyatının inkişafının vacib amillərindən birinin onun infrasturukturu olmasını izah etməsi, infrastrukturun əsasən aşağıdakılardan ibarət olmasını - birjalar (özlərində əsasən pərakəndə ticarəti birləşdirir), maliyyə (iqtisadiyyat üçün tələb olunan maliyyə resuslarının idarə olunmasını), vergi, sığorta (iqtisadi və təbii risklərdən qorunmasından) əsaslandırması və təqdimatlar hazırlaması. | İnfrostruktur, birja, pərakəndə ticarət, maliyyə, resurs, idarə olunma, vergi, sığorta. |
| | **3. Mənəviyyat** | |
| | **3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.1.1. İnsanlararası münasibətlərdə ümumi cəhətlərin əhəmiyyətini dəyərləndirir | İnsanlardakı eynilikləri və fərqlilikləri ayırd edərək, onları dəyərləndirməsi, xalqın fərdləri arasında cinsi, milli, dil, din, irq, məzhəb fərqliliklərinin, zahiri (fizioloji), sinfi fərliliklərin, təbiiliyini izah etməsi, bu fərqliliklərin insanın öz iradəindən asılı olmadığını əsas qəbul edərək insanlararası münasibətlərdə fərqliliklərin önə çıxarılmasının həsədin, kinin, düşmənçiliyin, irqçiliyin oyanıb qol-qanad açması, müharibələr, dağıntılar, fəlakətlər, müsibətlərlə nəticələndiyini izah və şərh edərək dəyərləndirməsi. | İrqçilik, milliyyətçilik, feminizm, ayrı-seçkilik, məzhəbçilik. |
| | **3.2. İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.2.1. İnsan mənəviyyatının formalaşmasında vəzifə və məsuliyyətlərin əhəmiyyətini dəyərləndirir. | İnsanın vəzifələrini təsnif etməsi:<br>*a) İlahi vəzifələri* (Allah qarşısında; Peyğəmbər qarşısında);<br>*b) Şəxsi vəzifələri* (Bədənin tərbiyəsi, sağlamlığı qorumaq; zərərli məşğələlərdən uzaq durmaq. İradəni gücləndirmək. Ağılı və zehni elm nuru ilə aydınlatmaq, qəlbdə faydalı və ali duyğular oyatmaq, elm və mərifət əldə etmək də əhəmiyyətli vəzifələrdən bəziləridir.)<br>*c) Ailəvi vəzifələri* (Ərin və arvadın əsas vəzifələri; Ana-atanın uşaqlarına qarşı vəzifələri; Uşaqların ana-atalarına və qardaş-bacıları qarşısında əsas vəzifələri).<br>*ç) İctimai vəzifələri* (Cəmiyyət üzvlərinin həyatını qorumaq; Fərdlərin azadlığını, vicdanlarını, elmi görüşlərini nəzərə almaq, namus və şərəflərini, mülki hüquqlarını qorumaq) şərh etməsi və dəyərləndirməsi. | Haqq, hüquq, vicdan azadlığı, halal, haram. |
| 3.2.2. Vətən və dovlət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir. | Vətən və dövlət qarşısında borclarını sadalamaq (Dövlətin vergisini ödəmək, maliyyə gücünün artmasına yardırm etmək; Vətəni müdafiə etmək, əsgəri borcunu yerinə yetirmək; Vətənin bölünməzliyini, bütövlüyünü, təhlükəsizliyini qorumaq; Vətənin xalqın əmin-amanlığını qorumaq) və onlara əməl etdiyini həyati misallarla nümayiş etdirməsi. | Cihad (kiçik və böyük cihad), şəhidlik, qazilik. |

| | | |
|---|---|---|
| | **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.** | |
| 3.3.1. Cəmiyyətdə birgəyaşayış qaydalarının formalaşmasında dini əxlaqi dəyərlərin rolunu qiymətləndirir. | Dini-əxlaqi dəyərlərin cəmiyyətdə birgəyaşayış qaydalarını necə formalaşdırdığı və tənzim etdiyini (valideyin, müəllim, qonşu, qohum, dost, yoldaş, kimsəsiz, yetim və s. haqları) şərh etməsi, dinin hər kəsin bu haqlara riayət etməsinin tələb etməklə nəticəsini də göstərməsinin cəmiyyətdə sağlam həyat tərzi formalaşdırdığını misallar gətirərək qiymətləndirməsi. | Birgəyaşayış qaydaları, fədakarlıq, dəyər və əxlaq. |
| | **4. Sağlamlıq və təhlükəsizlik** | |
| | **4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.1.1. Reproduktiv sağlamlığın qorunmasını sağlam həyat tərzinin əsas şərti kimi dəyərləndirir. | Ailə sağlamlığının qorunması ilə bağlı fikirlərini bildirməsi, reproduktiv sağlamlığın qorunmasının faydasını bilməsi, sağlam həyat tərzinin əsas şərtlərindən birinin də reproduktiv sağlamlığın qorunması olduğunu izah edərək dəyərləndirməsi. | Reproduktiv sağlamlıq, sağlamlığın qorunma yolları, sağlam həyat tərzi. |
| | **4.2.Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik bacarıqlar nümayiş etdirir.** | |
| 4.2.1. Təhlükəsiz davranış qaydalarına əməl etdiyini konkret situasiyalarda nümayiş etdirir. | Məişətdə və ictimai yerlərdə hansı təhlükələrlə üzləşə biləcəyini təsvir etməsi, bu zaman təhlükəsiz davranışları (elektrikdən, kəsici, deşici alətlərdən istifadə və s.) sadalaması, konkret siyuasiyalarda onları nümayiş etdirməsi. | Təhlükəsiz davranış, qaydalar, əməl etmə, konkret situasiya. |
| 4.2.2. Konkret situasiyalarda yol hərəkəti qaydalarından istifadə edir. | Yol hərəkəti qaydalarından istifadə etmənin faydalarını bildirməsi, konkret situasiyalarda (işıqforda, yol nişanı olmayan yerlərdə, dəmiryol keçidlərində, liman və portlarda) yol hərəkəti qaydalarından istifadə etməni nümunələrlə göstərməsi. | Konkret situasiya, yol hərəkəti qaydaları. |
| | **4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.** | |
| 4.3.1. Fövqəladə halların nəticələrinin aradan qaldırılmasında birgəfəaliyyət bacarıqları nümayiş etdirir. | Fövqəladə halların nəticələrini müəyyənləşdirməsi, fövqəladə halların nəticələrinin aradan qaldırılmasında tək və kollektiv fəaliyyət bacarıqlarını nümayiş etdirməsi.<br>Fövqəladə hallar baş verərkən hansı situasiyaların meydana çıxacağını sadalayır, onları təsvir etməsi, fövqəladə hallarda və texnogen qəzaları təsvir edən oyunlarda, təlim məşqlərdə kollektiv davranış vərdişlərinə sahib olduqlarını nümayiş etdirməsi. | Fövqəladə hallar, nəticə, birgə fəaliyyət, bacarıq. |
| | **IX sinif** | |
| | **1. Təbiət və biz** | |
| | **1.1. Varlıq və hadisələrə, onların qarşılıqlı əlaqəsinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.1.1. Dünyanın dərk olunmasında elmi və dini dünyagörüşlərini şərh edir. | Dünyanı necə dərk etdiyini izah etməsi, dünyanın dərk olunmasında tarixən mövcud olmuş iki dünyagörüşünü müqayisə etməsi, onların oxşar və fərqli cəhətlərini şərh etməsi. | Dünyanın dərk olunması, elmi, dini dünyagörüşü, teist, ateist, materialist. |

| | | |
|---|---|---|
| | **1.2. Ekoloji tarazlığın qorunmasına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 1.2.1. Qlobal ekoloji problemlərin həllinə dair təqdimat və layihələr hazırlayır. | Ekoloji problemin hər zaman və hər yerdə qlobal mahiyyət daşıdığını izah etməsi, qlobal ekoloji problemlərin xalqların və dövlətlərin birgə səyləri ilə həll edilə biləcəyini şərh etməsi, qlobal ekoloji problemlərin həllinə dair öz layihəsini hazırlayaraq müdafiə etməsi. | Qlobal ekoloji problemləri, qlobal istiləşmə, ozon təbəqəsi. |
| | **2. Fərd və cəmiyyət** | |
| | **2.1. Cəmiyyətin sosial mahiyyətinə və idarəetmə formalarına dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 2.1.1. İnsanın sosial proseslərdə iştirakını dəyərləndirir. | İnsanların sosial proseslərdə iştirakının fəallıq səviyyəsinin yüksək olması, cəmiyyətdə insanın öz ictimai-mənəvi rolunu həyata keçirməsi üçün bilik, bacarıq və dəyərlərə malik olması, cəmiyyəti irəli apara biləcək ideyalar irəli sürməsi, bu ideyaları həyata keçirmək üçün müxtəlif qruplar yaratması, səsvermə, seçkilərdə öz namizədliyni irəli sürmə, ölkənin siyasi həyatı haqqında informasiyaya sahib olma, cəmiyyəti narahat edən problemləri açıq müzakirə etmə, yığıncaq və mitinqlərdə iştirak etmə, vergiləri ödəmə, orduda xidmət etməyi dəyərləndirməsi. | Sosial proseslər, ideyalar, hüquq və azadlıqlar, səsvermə. |
| 2.1.2 Vətəndaş cəmiyyətinin formalaşması və inkişafında demokratik dəyərlərin rolunu qiymətləndirir. | Demokratiyanın təməl prinsiplərinin-ölkənin bütün vətəndaşlarının qanun, məhkəmə, dövlət qarşısında bərabər olması, ölkə konstitusiyasının olması, çoxpartiyalı sistem, qanunun hakimiyyəti, seçkilərin nəticələrinin tanınması, insan hüquqları, vətəndaşların dövlətin idarə olunmasında iştirakı, azad və bərabər seçkilər, iqtisadi azadlıq, kimi dəyərləri təsnif etməsi və qiymətləndirməsi. | Bərabərlik, azad və bərabər seçkilər, konstitusiya, çoxpartiyalı sistem, insan hüquqları. |
| | **2.2. Hüquqi mədəniyyətə malik olduğunu nümayiş etdirir.** | |
| 2.2.1. Əsas insan hüquqlarının beynəlxalq hüquq normalarında təsbit olunduğunu əsaslandırır. | Beynəlxalq hüquq normaları barədə fikirlərini bildirməsi, əsas insan hüquqlarının hansılar olmasını müəyyənləşdirməsi, əsas insan hüquqlarının beynəlxalq hüquq normalarında hansı formada təsbit olunduğunu əsaslandırması. | İnsan hüquqları, Beynəlxalq hüquq normaları. |
| 2.2.2. Beynəlxalq və Milli hüquqi sənədlərin əlaqəsinə dair təqdimatlar hazırlayır. | Milli hüquqlarımızı müəyyənləşdirir. Beynəlxalq hüquqi sənədlər barədə fikirlərini bildirməsi, beynəlxalq hüquqi sənədlərlə Milli hüquqi sənədlər arasında hansı əlqələrin, oxşar və fərqli cəhətlərin olmasına dair təqdimatlar hazırlaması. | Beynəlxalq, milli, hüquqi sənəd, əlaqə. |
| | **2.3. İqtisadi bilik və bacarıqlara yiyələndiyini nümayiş etdirir.** | |
| 2.3.1. İqtisadi səmərəliliyə dair kiçik layihələr hazırlayır və təqdim edir. | Ailə, ictimai, biznes qurumlarının büdcəsi, müxtəlif dövlət formalaşmasının daha səmərəli istifadəsinə, hansısa əmtəənin istehsalı və satışı ilə bağlı qənaətcilik, əvəzetmə yolu, yeni, daha effektiv məhsulu istifadə etmə, ərzaq malları aldıqda qənaət etmə ilə bağlı fikirlərini layıhələr şəklində təqdim etməsi. | Ailə, biznes qurumları, büdcə, müxtəlif əmtəə, qənaətcillik, əvəz etmə yolu. |
| | **3. Mənəviyyat** | |
| | **3.1. Ünsiyyət mədəniyyətinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |

| | | |
|---|---|---|
| 3.1.1.Mədəniyyətlərarası münasibətlərdə tolerantlıq nümayiş etdirir. | İslam dininin digər dinlərə, xüsusən də “Kitab əhli” deyə ayırdığı yəhudilik və xristianlığa tolerant münasibətini ayə və hədislərin dili ilə, İslam böyüklərinin sözləri ilə ifadə və şərh etməsi, ölkəmizdə keçirilən beynəlxalq dinlərarası (mədəniyyətlərarası) dialoq konfranslarını, onların əsas məzmununu şərh etməsi, klassik və müasir ədəbiyyatımızdan (Nizami, Nəsimi), həmçinin Türk dünyasının ədəbi, tarixi, fəlsəfi irsindən misallar gətirərək fikrini sübut edə bildiyini nümayiş etdirməsi. | Tolerantlıq, |
| | **3.2.İnsan mənəviyyatını formalaşdıran amillərə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 3.2.1.Mədəniyyətlərarası münasibətlərdə əxlaq və davranış normalarının ümumbəşəri əhəmiyyətini dəyərləndirir. | İslam dininə qədər bütün dinlərin ayrı-ayrı xalqlara, qövmlərə ünvanlandığını, amma hamısında eyni əxlaq və davranış normalarının təbliğ edildiyini, İslam dininin isə artıq heç bir fərq qoymadan bütün bəşəriyyətə göndərildiyini, ona görə də onun hökmlərinin, təbliğ etdiyi əxlaq və davranışların ən mükəmməl şəkildə bütün bəşəriyyətə (qlobal) aid olduğunu misallar və müqayisələrlə şərh etməsi və dəyərləndirməsi. | Qövm, islam, əxalq, din, davranış. |
| 3.2.2. Bəşəriyyət qarşısında mənəvi borcunu dərk etdiyini nümayiş etdirir. | Bütün insanların eyni haqq və hüquqlara sahib olduqlarını, insanı sevməyin, insana insan olduğu üçün hörmətlə yanaşmağın Allahın əmri, Peyğəmbərimizin həyat tərzi olduğunu, “Yaradılanı sevirik Yaradandan ötrü” düsturunun bəşəriyyət qarşısında borc fəlsəfəmiz (*Çernobıl faciəsinə məruz qalanların köməyinə getməyimiz, İranda, Türkiyədə zəlzələdən zərər çəkənlərə yardım, Ermənistan zəlzələsində fəlakətə məruz qalanlara belə yardım göndərməyimiz və s. )* olduğunu misallarla təsdiq etməsi, bu borclara əməl etdiyini nümayiş etdirməsi. | Haqq və hüquqda bərabərlik, səmimiyyət, ilahi riza. |
| | **3.3. Mənəviyyatın formalaşmasında dinin rolunu dəyərləndirir.** | |
| 3.3.1. Müxtəlif dinlərə münasibətdə tolerantlıq nümayiş etdirir. | Qurani-Kərimdə və Peyğəmbərimizin hədislərində, həyat tərzində Əhli-Kitaba və digər dinlərə xoşgörülü münasibəti faktlarla sübut etməsi, ayə və hədisləri şərh etməsi;<br>Digər dinlərin nümayəndələrinə qarşı xoşgörülü davranmağın səbəblərini, dinimizə qarşı təhqiramiz davranışlara sərt və ya xoşgörülü cavab verilməsinin nəticələrini izah edərək öz tolerant davranışlarını nümayiş etdirməsi. | Dini eqoizm, dini dözümlülük. |
| | **4. Sağlamlıq və təhlükəsizlik** | |
| | **4.1. Sağlam həyat tərzinə dair bilik və bacarıqlar nümayiş etdirir.** | |
| 4.1.1. Sağlam ailənin qurulmasında sağlam həyat tərzinin əhəmiyyətini dəyərləndirir. | Sağlam ailənin sağlam fərdlərdən təşkil olunduğunu izah etməsi, ailədə sağlamlıq qaydalarına əməl edilməsi prinsiplərini sadalaması, onları əlaqələndirməsi və ailə həkiminin rolunu izah etməsi, sağlam həyat tərzinin vərdişə çevrilməsi üçün lazım olan davranışları dəyərləndirməsi. | Sağlam ailə, sağlam həyat tərzi, ailə həkimi. |
| | **4.2.Məişətdə və ictimai yerlərdə təhlükəsiz davranış qaydalarına dair bilik bacarıqlar nümayiş etdirir.** | |
| 4.2.1. Məişətdə və ictimai yerlərdə təhlükəsiz | Məişətdə və ictimai yerlərdə üzləşə biləcəyi təhlükələri təsvir etməsi, konkret situasiyalarda davranışlara dair təqdimatlar hazırlaması. | Məişət, ictimai yerlər, təhlükəsiz |

| | | |
|---|---|---|
| davranış qaydalarından istifadəyə dair təqdimatlar hazırlayır. | | davranış qaydaları. |
| 4.2.2. Yol hərəkətinə dair davranış mədəniyyəti nümayiş etdirir. | Yol hərəkəti qaydalarına əməl edilməsi ilə əlaqədar sürücü, piyada və sərnişinlərin vəzifələrinə dair davranışları nümayiş etdirir, həmçinin yol nişanlarının təsnifinə dair təqdimat etməsi. | Yol hərəkəti, davranış mədəniyyəti, qaydalar. |
| | **4.3. Fövqəladə hallarla bağlı bilik və bacarıqlar nümayiş etdririr.** | |
| 4.3.1. Fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılmasına dair layihələr hazırlayır. | Fövqəladə hadisələrin nəticələrinin (dağıntı, uçqun, su basqını, yanğın, torpaq sürüşməsi və s.) aradan qalsırılmasına dair bacarıqları nümayiş etdirən layihələr (bəndlərin vurulması, torpağın möhkəmləndirilməsi və s.) hazırlaması və təqdim etməsi. | Fövqəladə hadisələr, bənd, drenaj, xilasedici. |

## Tezaurus

**Alt standart** – əsas standartda ifadə olunmuş fikrin müəyyən hissəsidir.

**Ağıl** – 1. İnsanda düşünmə və dərketmə qabiliyyəti; zəka. 2. Hafizə, zehin, xatir, yad, yaddaş, fikir.

**Ailə** – Ata-anadan, uşaqlardan, nəvələrdən və yaxın qohumlardan ibarət olub, bir yerdə yaşayan adamların hamısı; külfət.

**Ailə əxlaqı** – ailədaxili münasibətlərə dair əxlaq və davranış qaydaları.

**Ailə həkimi** – Ailənin sağlamlığını qorumaq, xəstələri müalicə etmək üçün ailəyə təyin edilmiş həkim.

**Asabiyyət** (İrqçilik, milliyyətçilik) – Əqrabalıq, nəsilcə yaxınlıq, proteksiya. Qohum-əqrəba, soy, qövm, tayfa, vətən, millət, din qeyrəti güdmək, bir nəslin irəli gələnləri. Bir adamın ata tərəfdən qohum-əqrəbaları. İslam əxlaqı bir adamın vəzifəsindən, mövqeyindən istifadə edərək sırf ona qohum-əqrəba olduğu üçün ona vəzifə verməsinə, onu irəli çəkməsinə, nəzərə verməsinə, yaxud haqsız yerə müdafiə etməsinə qeyri-əxlaqi davranış olaraq baxır və bunu insan hüquqlarının, insan haqlarının kobud şəkildə pozulması olaraq qiymətləndirir.

**Aspekt** – Əşya, hadisə və anlayışlara münasibət, nöqteyi-nəzər.

**Ateist** – Ateizm tərəfdarı, allahsız.

**Ateizm** – Allahın varlığını, fövqəl-təbii qövvələri və dinləri elmi biliklərə əsasən inkar etmə; allahsızlıq.

**Atəşgah** – Atəşpərəstlərin ibadət etdiyi yer. Atəşpərəstlərə camaatla atəşgahda ibadət edilməsi tövsiyə edilir.

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. 3 - 7 iyul 1973-cü il tarixlərində Helsinkidə keçirilmiş xarici işlər nazirlərinin müşavirəsi ilə başlamış prosesin davamı olaraq yaranmış regional təşkilat. 30 iyul - 1 avqust 1975-ci il tarixində yenidən Helsinkidə keçirilmiş müşavirədə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktını (Helsinki müqaviləsi) imzalamışlar. Təşkilat 1995-ci il yanvarın 1-dək Avropada Təhlükəsizlik və

Əməkdaşlıq Müşavirəsi (ATƏM) adlanmışdır (ing. *Conference for Security and Cooperation in Europe - CSCE*). Hazırda 56 üzv və 11 tərəfdaş dövlətlə dünyanın ən böyük regional təşkilatıdır.

ATƏT "soyuq müharibə"nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

**Avropa Şurası** – Avropa Birliyinə namizəd ölkələrin Parlamentlərindən seçilən deputatların iştirak etdiyi Parlament.

**Avtobus** – çoxyerli minik avtomobili.

**Ayrı-seçkilik** – Tərəfgirlik, üzgörəlik; ədalətsiçlik, bir tərəfin üstün tutulması, obyektiv münasibət göstərilməməsi.

**Azad seçkilər** – maneə, qadağan və kənar təsir olmadan vətəndaşların seçmək və seçilmək hüququnun təmin edilməsi, belə şəraitdə keçirilən seçkilər.

**Bacarıq** – Bilik, təcrübə, vərdiş nəticəsində əldə edilmiş işgörmə qabiliyyəti, təcrübə. Hər işdə bacarıq laçımdır.

**Beynəlxalq hüquq normaları** – Beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş, həmin təşkilatlara üzv olan dövlətlərin tabe olduğu hüquqi sənədlərin tələbləri. *Milli hüquqi sənəd – Bir xalqa, millətə aid hüquqi sənəd.*

**Bənd** – Bir yeri seldən, daşqından qorumaq, yaxud suyun (arxın, kanalın) kənara axmasının qarşısını almaq üçün çəkilən sədd.

**Bərabər seçkilər** – hamı üçün bərabər hüquqlardan istifadə etməklə keçirilən seçkilər.

**Bərabərlik** – Cəmiyyətdə insanların bütün cəmiyyətin istehsal vasitələrinə bir cür münasibətdə və bərabər siyasi və vətəndaşlıq hüququna malik olmalarını təmin edən vəziyyəti.

**Birgə fəaliyyət** – birlikdə, bərabər şərtlər, eyni hüquqlar çərçivəsində iş görmək, fəaliyyət göstərmək.

**Birgəyaşayış qaydaları** – Bir yerdə yaşama, ictimai mühit, ictimai həyat normaları.

**Birja** – Müxtəlif maliyyə və ticarət sazişləri bağlanan idarə. Əmək birjası – fəhlələri işə götürdükdə, onlarla sahibkarlar arasında vasitəçilik edən idarə.

**Biznes qurumları** – işgüzar fəaliyyətlə məşğul olan idarə, müəssisə və təşkilatlar.

**BMT** – Birləşmiş Millətlər Təşkilatı.

**Büdcə** – Dövlətin və onun idarə və müəssisələrinin illik gəlir və çıxar cədvəli. Dövlət büdcəsi. Büdcə ili. // Bir adamın müəyyən vaxt ərzindəki gəlir və çıxarı.

**Bütxana** – Bütpərəstlərin ibadət etdiyi yer. Bütpərəstlər burada həm fərdi, həm də cəm halda ibadət edirlər.

**Cəmiyyət** – 1. Konkret tarixi- maddi həyat şəraiti ömumiliyi əsasında birləşmiş insan toplusu. İnsan cəmiyyəti. 2. Hər hansı (mənşə, vəziyyət, mənafe və s.) ümumiliyi əsasında birləşən adamlar mü-hiti. 3. Qarşılarına ümumi məqsəd qoymuş adamlar birliyi; təşkilat.

**Cihad** (kiçik və böyük cihad) – Çalışmaq, cəhd etmək, çabalamaq, səy göstərmək. İslamıın yüksəlməsi, qorunması və yayılması üçün hər cür fəaliyyətdə olmaq, çalışıb səy göstərmək və bu yolda mübarizə aparmaq. Bu mübarizə isti və ya soyuq mübarizə ola bilər. Daha açıq bir sözlə, Allah (c.c.) tərəfindən qullarına verilmiş olan bədəni, malı və əqli qüvvətləri Allah yolunda istifadə etmək, o yolda fəda etməkdir. İnsanın maddi-mənəvi bütün varlığını Allah yolunda ortaya qoyaraq Haqqın düşmənlərini aradan qaldırmaq üçün vuruşması cihaddır.

**Cisim** – *is.* 1. Fəzanın müəyyən bir qismini dolduran maddə, materiya, şey; fəzada ayrıca şey. Bərk cisimlər. Maye cisimlər. 2. Bədən, vücud.

**Daşqın** – 1. *is.* Sahildən çıxan çay və ya dəniz suyunun qurunu, ətrafı basması; sel. 2. *sif.* Yatağından kənara çıxan, ətrafı basan; daşmış.

**Davranış** – Davranma tərzi; hərəkət, rəftar.

**Davranış qaydaları** – Başqaları ilə rəftarın, özünü aparmağın qayda-qanunları toplusu.

**Davranış mədəniyyəti** – Davranış qaydalarına riayət etməklə bütün bunları özündə xasiyyətə çevirmək.

**Dedi-qodu** (Sin.) *Qiybət.* –Boş, gərəksiz söz, arxasınca danışmaq. Qiybət deyə bilinən pis xasiyyətin Azərbaycan dilində qarşılığıdır. Bir insanın bəzi qüsurlarını nəzərdə tutaraq onu pisləməkdir. Bir adamın arxadan eşitdiyi zaman xoşuna gəlməyəcək şeyləri deməkdir. Bu haram bir davranış olub əxlaqdan kənar hərəkətdir.

Dedi-qodu başqalarında qüsur axtarmaq vərdişinin nəticəsidir. Bəziləri öz qüsurlarını görüb düzəltmək əvəzinə, başqalarının xəta, qüsur, əskikliklərini araşdırıb ətrafa yaymağa çalışırlar. Bu davranışın pis, yaramaz olduğunu deyəndə də, dedikləri sözün yalan olmadığını bildirərərk özlərini müdafiə edirlər. Əslində, qeybət edən edən, yalancı deyildir. Çünki yalan desəydi, o zaman gördüyü iş dedi-qodu deyil, iftira olardı. (əl-Münziri, "Ət-Tərqib və't-Tərhib," Misir, 1962, V, 157).

**Dəyər və əxlaq** – Dəyərlər bəşəriyyətin əldə etdiyi mənəvi, əxlaqi, etik sərvətlərin ümumi adıdır.

**Dəyərlər** – şəxsiyyəti şərtləndirən kefiyyətdir.

**Din, dini** – Allah tərəfindən insanlara göndərilmiş həyat, yaşamaq, qulluq, əxlaq qaydaları.

**Dini eqoizm** – Dini təəsübkeşlik əsasında eqoistlik göstərmək, yalnız özünün məxsus olduğu dini görüşləri müdafiə etmək, başqalarının dini görüşlərini qəbul etməmək.

**Dini həssasiyyət** – Dini əmr və qadağanların yerinə yetirilməsinə həssas münasibət bəsləmək, onlara həssaslıqla əməl etmək.

**Dövlət** – Ölkənin hakim sinfinin, mövcud idarə üsulunu qorumaq və başqa siniflərin möqavimətini aradan qaldırmaq məqsədini daşıyan siyasi təşkilatı, habelə bu cür siyasi təşkilatı olan ölkənin özü.

**Dövlətin xarici funksiyaları** – Xarici funksiyaya ölkənin müdafiəsi, beynəlxalq aləmdə onun mənafeyinin qorunması və suverenliyinin təmin olunması aiddir.

**Dövlətin məsuliyyəti** – Hər bir dövlətin öz xalqı qarşısında Konstitusiya ilə öhdəsinə götürdüyü vəzifələrin icrasına görə daşıdığı məsuliyyət.

**Drenaj** – Arxlar və ya borular sistemi vasitəsilə torpaqın qurudulması; həmçinin bu məqsəd üçün işlədilən arx və borular sistemi.

**Dünyagörüşü** – Həyat, təbiət və cəmiyyət haqqında görüşlər sistemi.

**Dünyanın dərk olunması** – Varlığın əmələ gəlməsi, dünyada həyatın, canlı aləmin, insanın əmələ gəlməsi barədə müxtəlif dünyagörüşləri sistemi. Bu məsələ barəsində əsasən iki fəlsəfi görüş vardır: 1. Elmi dünyagörüşü və 2. Dini dünyagörüşü. *Elmi dünyagörüş* varlığı yalnız elmə məlum olan faktlara görə formalaşan, əsasən dini dünyagörüşü rədd edən dünyagörüşü, nəzəriyyədir. *Dini dünyagörüş* varlıq haqqında Allahın bildirməsi, peyğəmbərlərin izah və şərh etməsi ilə formalaşmış baxış, dini sistemdir.

**Ekoloji əxlaq** – ətraf mühitlə münasibət və onun qorunmasında dari münasibətlərin əxlaq və davranış qaydaları.

**Ekoloji tarazlıq** – *ekologiya* (yun. oikos – ev və logos – elm, anlayış) Biologiyanın, heyvan və bitki orqanizmlərinin mühitlə qarşılıqlı münasibətindən bəhs edən şöbəsi. 2. Ekologiyaya aid, ekologiyaya məxsus.

**Elektirik avadanlıqları** – elektrik enerjisi ilə işləyən cihazlar, aparatlar.

**Elektrik** – (yun.) 1. Materiyanın, yüklü hissəciklərdən: elektronlardan, pozitronlardan, protonlardan və s.-dən ibarət forması. Elektrik haqqında nəzəriyyə. 2. Xalq təsərrüfatının bütün sahələrində və məişətdə işlədilən enerji növlərindən biri. 3. Bu energiyadan hasil olan işıq. 4. Elektriklə işləyən, elektriklə hərəkətə gətirilən.

*Elm əxlaqı* – elm öyrənmək, elmi münasibətlər, alimlərlə münasibət və davranışlara dair əxlaq və davranış qaydaları.

**Elmi, dini dünyagörüşü** – (Bax: Dünyanın dərk olunması).

*Emosional aspekt* - əşya, hadisə və anlayışlara hissi, emosiya yönü ilə baxış, nöqteyi-nəzər.

**Enerji** – Materiyanın əsas xassələrindən biri – onun hərəkət ölçüsü, materiyanın işıq, istilik, elektrik, mexaniki hərəkət və s. şəklində olan hərəkət ehtiyatı.

**Eynilik** – Tamamilə oxşarlıq, tamamilə bənzərlik, bir-birinin eyni olma. Görüşlərin eyniliyi.

**Ədəbi əsər** – Ədəbiyyata aid olan.

1. *Əhalidən vergi və mükəlləfiyyətlər toplamaq hüququ*. Dövlət idarəetmə strukturlarını mühafizə və müdafiə qurumlarını saxlaməq üçün əhalidən vergilər və müxtəlif mükəlləfiyyətlər şəklində vəsaitlər toplayır.

**Əhli-Kitab** (İlahi Kitabı olan möminlər) – İslam ədəbiyyatında yəhudilər və xristianlar üçün işlədilən bir söz, kitab əhli.

**Əxlaq** – Xasiyyət, səciyyələr, mizaclar mənasında işlədilən ərəbcə bir sözdür. Xülq, xüluq sözlərinin cəm halıdır. Xülq və ya xüluq insanın bədən və ruh bütünlüyü ilə əlaqədardır. Əxlaq bu baxımdan "insanın öz arzusu ilə yaxşı davranışlar edib pis əməllərdən uzaq olmasıdır" tərif edilə bilər.

**Əl əməyi** – istehsalda işin çoxunu, əksəriyyətini, bəzən hamısını əllə görmək.

**Əlaqə** – 1. Qarşılıqlı münasibət, bir-biri ilə bağlılıq qarşılıqlı asılılıq, bir-birindən asılı olma.

**Əlehqaz** – Zəhərləyici maddələrdən, qazlardan, tüstüdən və s.-dən qorunmaq üçün filtrli maska.

**Əmək** – İnsanın əqli və cismani gərginlik tələb edən məqsədəuyğun və ictimai cəhətdən faydalı fəaliyyəti; zəhmət.

**Əmtəə** – Mübadilə üçün istehsal edilən əmək məhsulları; mal. Əmtəə insanın hər hansı bir ehtiyacını təmin edən, habelə başqa şeyə dəyişdirilən şeydir.

**Ənaniyyət** – Mənlik, mənəm-mənəmlik, qürur.

**Əsas şərt** – Bir şeyin var olması, mövcudluğunu və ya sağlamlığını qoruması üçün tələb olunan şərt.

**Əvəzetmə yolu** – bir şeyi başqası ilə əvəzləşdirməyin yolu, üsulu.

**Fakt** – 1. Həqiqətən olmuş hadisə, əhvalat. Nümunə, misal. Bir nəticəyə gəlmək, bir işə yekun vurmaq və ya bir ehtimalın, fərziyyənin düzgünlüyünü müəyyən etmək üçün əsas olan şey; dəlil. 2. Gerçəklik, reallıq, həqiqət, olub-bitmiş şey.

**Faktor** – Hər hansı prosesin, hadisənin gedişini şərtləndirən an, fakt; amil

**Feminizm** – Qadın hərəkatı. Qadının siyasi, ictimai və iqtisadi sahələrdə hüquqları və bərabərliyi tərəfdarlığını və qadının cəmiyyətdəki rolunu kökündən dəyişdirmək fikrini ifadə edən müasir bir termindir.

**Fəaliyyət** – 1. Hər hansı bir sahədə iş, çalışma; fəallıq göstərmə; aktivlik. 2. Iş, işləmə.

**Fədakarlıq** – Hər cür əziyyətə sinə gərərək uğrunda mübarizə apardığı işə, ideala çatmağa cəhd etmək. Canını və hər şeyini fəda edərcəsinə iş görmək.

**Fəlakət** – Böyük bəla, müsibət, afət, bədbəxtlik.

**Fikrini sərbəst ifadə etmə** – Fikrini başqasının müdaxiləsi, köməyi olmadan öz sözləri ilə, sərbəst şəkildə ifadə edə bilmək bacarığı.

**Fitrət** – Yaradılış, quruluş, xarakter, təbiət, mizac. İnsanın yaradılışında olan xarakterik xüsusiyyətlər.

**Fiziki aspekt** – əşya, hadisə və anlayışlara maddi yönü ilə baxış, nöqteyi-nəzər.

**Fiziki və metafiziki varlıqlar** – Fiziki varlıqlar maddi olan, maddələrdən ibarət olan varlıqlardır. Bunlar elektron, proton, atom, molekul kimi çox kiçik, dağ, okean kimi çox böyük də ola bilər. Maddi varlığın ən mükəmməli insandır.

**Fövqəladə hadisə** – 1. Qeyri-adi, adətdənxaric, görünməmiş, eşidilməmiş. Başqalarından ayrılan, başqalarına bənzəməyən; 2. Təcili, xüsusi olaraq məyyən olunmuş, qəbul edilmiş, növbədənxaric. Ölkənin həyatında əmələ gələn müstəsna vəziyyətdən törəyən, onunla əlaqədar olan. Fövqəladə vəziyyət (ölkədə və ya onun hər hansı bir hissəsində müəyyən vaxt ərzində həyata keçirilən və əhalinin vətəndaşlıq hüquqlarını məhdudlaşdırmaqdan, hakimiyyəti hər hansı xüsusi orqana verməkdən və s.-dən ibarət xüsusi hüquqi vəziyyət).

**Fövqəladə hallar** – Həyatın normal axışına zidd, gözlənilməyən, adi haldan çıxıb çox şiddətli hal alan hadisələrin nəticəsində meydana çıxmış vəziyyət. Məsələn, sel, daşqın, sunami, zəlzələ və s. kimi.

**Gəmi** – 1. Su nəqliyyatı vasitəsi. Yelkənli gəmi. Hərbi gəmi. Ticarət gəmisi. 2. Hava gəmisi – təyyarə və s. uçan nəqliyyat vasitəsi..

**Gigiyena** – Xarici mühitin müxtəlif amillərinin insan orqanizminə təsirini və sağlamlığı qoruma tədbirlərini öyrənən elm. Gigiyena qaydaları. Sağlamlığı qoruyan təcrübi tədbirlərin məcmusu. Əmək gigiyenası.

**Giriş qadağandır** – nəqliyyat vasitələrinin, insanların, heyvanların girməsini qadağan edən nişan.

**Göy qurşağı** – yağışdan sonra yağış damlalarına düşən işığın üfüqdə spektri.

**Günah** – Allahın əmrlərinə, buyuruğlarına zidd olan davranışlar.

**Günəş və Ay tutlmaları** – Günəş tutulması ayın yerlə günəş arasına girməsi, Ay tutulması isə Yerin Ayla Günəş arasına girməsi nəticəsində onların işığının görünməsinin müvəqqəti olaraq əngəllənməsi.

**Hakimiyyət** – İdarə etmək hüququ, siyasi hökmranlıq. 2. Dövlət idarə orqanları, hökumət. Hakim olmaq. Hökm etmək. Amirlik. Üstünlük. Müdaxilə və rəqibi qəbul etməmək halı.

**Haqq** – 1. *sif.* Doğru, düz, düzgün, həqiqi. Hüquq, ixtiyar. 3. *is.* Gördüyü işin müqabilində birinə verilməli olan pul, muzd və s.

**Haqq və hüquqda bərabərlik** – 1. Konstitusiyada, qanunlarda və qanunvericilikdə müəyyən edilmiş haqq və hüquqda bərabər olmaq. 2. *Dini mənası:* insanı Allah yaratmışdır, onların hamısına da eyni haqları vermiş, onların haqlarının qorunmasını (hüquqlarını) da müəyyən etmiş və əmr etmişdir. İnsan haqlarına o qədər yüksək dəyər vermişdir ki, insan haqlarını tapdalayan heç kəsin hallıq almadan Cənnətə girə bilməyəcəyini bildirmişdir.

Haqqın növləri də vardır və bunlar haqq sahibu baxımından aşağıdakılardır: Allahın haqqı, insan haqqı və müştərək haqq.

**Halal** – Allah tərəfindən edilməsinə icazə verilən şeylər. Ziddi: haram.

**Haram** – İslam dinində qəti olaraq edilməsi/görülməsi qadağan edilən şey.

**Havanın çirklənməsi** – havaya istər insanlar, istər nəqliyyat vasitələri, istərsə də sənaye müəssisələri tərəfindən atılan zəhərli qazların təsiri nəticəsində havanın keyfiyyətinin pisləşməsi.

**Həlim** – Yumşaq xarakterli. Uca Allahın gözəl isimlərindən biri olub "İnsanın özünü və ya yaradılışında müvcud olan hirs və əsəbiliyini nəzarət altına alması və hirsi olduğu anda nəfsinə hakim olub daha irəli getməməsi" mənalarını verən "hilim" sözündən törəmişdir.

**Həyat tərzi** – İnsanların vərdiş etdiyi yaşamaq tərzi, alışdıqları tərz və davranışlar.

**Hübbu-cah** – Vəzifə, mövqe sevgisi.

**Hüquq** – 1. Dövlət tərəfindən müəyyən olunan və tətbiq edilən, insanlar arasında ictimai münasibətləri nizama salan və hakim sinfin iradəsini ifadə edən normaların, qaydaların məcmusu cəmiyyətin təşkilinin, həyat və fəaliyyətinin hər hansı bir cəhətinə aid olan dövlət hüquq və qərarlarının məcmusu. Hər hansı bir məsələyə dair dövlətlər arasındakı qarşılıqlı münasibətləri nizama salan beynəlxalq sazişlərin, müqavilələrin məcmusu. Həmin qayda və normalar haqqındakı qanunlardan bəhs edən elm və onun bu və ya başqa bir sahəsi.

**Hüquq pozuntusu** – Qanunla insanlara, digər canlılara verillən, müəyyən edilən qanunların tələblərinin pozulması, onlara əməl edilməməsi.

**Hüquq və azadlıqlar** – Dövlətin Konstitusiya, qanunlar və qanunvericiliklə əhaliyə aid edilən hüquqları, bu sənədlərdə onların fikir və davranışlarda azad olduqlarının müəyyən edilməsi.

2. *Hüquq*. Dövlət onun müəyyən etdiyi hüquq qaydaları və normaları çərçivəsində fəaliyyət göstərir.

**Hüquqi sahələr** – Hüququn Ailə hüququ, Konstitusiya hüququ, Mülki hüquq, Vətəndaş hüququ, İnformasiya hüququ kimi qruplaşdırılan hüquq normaları, bu normalara dair sənədləri

**Hüququn obyekti** – hüqüq sənədi ilə qorunması, müdafiəsi nəzərdə tutulan obyekt. Məsələn hüququn obyekti insan ola bilər, insanlar arasında qadın, uşaq, qocalar ola bilər, heyvanlar ola bilər, bitkilər ola bilər və s.

**Hüququn subyekti** – hüququ təyin edən, tətbiq edən, tələb edən, müdafiə edən.

**Xalq** – 1. Ölkənin, dövlətin sakinləri, əhalisi. 2. Millət. 3. Eyni yerdə yaşayan adamlar, Camaat. 4. Ölkənin (istismarçı dövlətlərdə) əsas, əməkçi kütləsi. 5. Xalqa, ölkəyə aid olan, xalqa, ölkəyə mənsub olan.

**Xasiyyət (xarakter)** – Avtomatlaşmış vərdiş, təbiət, əxlaq, adət.

**Xəbərdar edici** – yolda təhlükə olduğunu və ya yaxında bir xidmət müəssisənin olduğunu bildirən yol nişanı.

**Xərək** – hərəkət etmək qabiliyyətində olamayan adamı daşımaq üçün dörd tərəfindən tutula bilmək üçün iki ağacdan və onları bir-birlərin bağlayan bərk parçadan ibarət əşya.

**Xəsarət** – Ziyan, zərər. Bədən orqanına, orqanlarına dəyən/vurlan zərər. Bunun nəticəsində sağlamlığın müvəqqəti, qismən və ya tamamilə itirilməsi.

**Xidmət** – 1. Bir idarədə, müəssisədə və s.-də maaşla qulluq etmə, işləmə, rəsmi vəzifə yerinə yetirmə. Xidmət etmək, bir idarədə, müəssisədə və s.-də maaşla işləmək, qulluq etmək, rəsmi vəzifə yerinə yetirmək.

**Xilasedici** – insanları düşdüyü fövqəladə həyati təhlükəli vəziyyətdən xilas etmək üçün təyin edilmiş xüsusi insan.

**Xoşagəlməz hal** – ictimaiyyat tərəfindən bəyənilməyən hal, davranış.

**Xoşgörü, Xöşməramlılıq** – Düşüncədən başlayaraq əşya və hadisələrə müsbət baxış, müsbət münasibət. Əşya və hadisələrdə mənfiliklər deyil, həmişə müsbət, gözəl olanı axtarmaq.

**Xoşməramlılıq** – qarşıya müsbət, xoş, gözəl məqsədlər qoyub bu məqsədlər üçün fəaliyyət göstərmək.

**Xürafə** – Din adına uydurulmuş hekayə və rəvayət, davranış. Məsələn, pir adı ilə ağaclara əski parçaları bağlamaq, şam yandırıb ondan niyyətinin qəbil olacağına ümid etmək və s. Başqa, pozulmuş, qüvvədən düşürülmüş dinlərə aid əsilsiz hərəkətləri İslam dininə gətirib tətbiq etmək.

**İcraedici hakimiyyət** – Hakimiyyətin qollarından biri. Qəbul olunmuş qanunların, qaydaların icrasını həyata keçirən şəxs və ya dövlət orqanı.

Azərbaycanda Ali İcraedici şəxs Azərbaycan Respublikasının Prezidentidir. Ali Dövlət İcra Orqanı Azərbaycan Nazirlər Kabineti başda olmaqla Azərbaycan hökumətidir.

**İctimai inkişaf** – cəmiyyətdə hamıya, hər kəsə aid olan ümumi inkişaf.

**İctimai mühit** – cəmiyyətin hər bir üzvü tərəfindən istəyərək və ya istəməyərək formalaşmış ümumi hal, əhval-ruhiyyə, şərait. İctimai mühiti cəmiyyətin üzvləri formalaşdırır, ondan razı qalıb-qalmamaqda isə bir-birlərindən fərqli fikirlər irəli sürürlər.

**İctimai nəqliyyat** – hər kəsin eyni hüquqda istifadə edə biləcəyi nəqliyyat növü (avtobus, troleybus, tramvay, metro, qatar, gəmi, təyyarə).

**İctimai təşkilatlar və birliklər** – vətəndaşların qarşılarına qoyduqları məqsədi və ya məqsədləri həyata keçirmək məqsədi ilə könüllü birləşmələri nəticəsində meydana çıxan qurum.

**İctimai yerlər** – Hər kəsin (ictimaiyyatın) istifadə etdiyi, xalqa açıq yerlər. Məsələn, parklar, küçə, bulvarlar, mağazalar, kino və teatrlar, kafe, bufet, restoran və s.

**İdarə olunma** – İşi, davranışları bir başqası tərəfindən, yaxud hər hansı bir hüquqi sənədə görə idarə edilən.

**İdeya** – 1. İnsan şöurunda varlığı (həqiqi və ya yanlış şəkildə) əks etdirən və onun bizi əhatə edən mühitə münasibətini ifadə edən anlayış, təsəvvür.

2. Dünyagürüşünün əsas və ən mühüm prinsipi; məfkurə, məslək, əqidə. 3. Fikir, qayə, məqsəd.

**İftar** – din. Oruc açma, oruc açdıqda yeyilən yemək.

**İftira** – Olmayan bir şeyi olmuş kim danışmaq və ya nağıl etmək.

İftira son dərəcə pis hadisədir. Həm iftira edən, həm də ona iftira edilən adam üçün olduqca narahatedici edici bir davranışdır.

**İqtisadi hüquq** – insanlararası iqtisadi münasibətləri tənzim edən hüquq normaları.

**İqtisadi idarəetmə** – təsərrüfatı, idarəni, müəssisəni iqtisadi baxımdan, iqtisadi qayda və qanunların tələblərinə görə idarə etmək.

**İqtisadiyyat** – 1. Hər hansı bir ictimai quruluşun, Cəmiyyətin istehsal qövvələrinin inkişafına uyğun olan istehsal münasibətlərinin məcmusu. 2. Hər hansı bir ölkənin, rayonun və s.-nin təsərrüfatının vəziyyəti. Təsərrüfatın hər hansı bir sahəsinin maliyyə və maddi cəhətdən quruluşu, vəziyyəti. 3. Xalq təsərrüfatının hər hansı bir sahəsinin maliyyə və maddi tərəfini öyrənən elm.

**İlahi riza** – Allahın razı qalması deməkdir. İnsan nə edirsə etsin, gördüyü işin Allah tərəfindən bəyənilib-bəyənilmədiyini nəzərə almalı, gördüyü işdən onun razı qalıb-qalmadığını hesaba almalıdır. İlahi riza, daha çox insanın Allahın onun üçün yazdığına razı olması, ona qarşı çıxmaması deməkdir. İslam əxlaqında İlahi rizaya qarşı çıxmaq axmaqlıq sayılır.

**İlayi-Kəlimətullah** – Allahın adını ucaltmaq üçün iş görmək, Allahı inkar edənlərə qarşı mübarizə aparmaq. Cihad sözünün sinonimi kimi işlədilir.

**İlğım** – Quru (susuz) çöllərdə buxarın yerə yayılıb uzaqdan su kimi görünməsi hadisəsi.

**İncil** – Allah tərəfindən Həzrəti-İsaya göndərilən, Tövratın əslini təsdiq edən, Qurani-Kərim tərəfindən təsdiq edilən və bir mənası da "yol göstərici, aydınladıcı" olan (əl-Maidə, 5/46-48), dörd böyük kitabdan biri. Bu gün əldə olan İncil dörd variantdan ibarətdir. Bu da onun insanlar tərəfindən necə dəyişdirildiyinə sübutdur. Qurani-Kərimdə Uca Allah buna işarə edərək İncilə görə hökm çıxarılmamasını, ona görə hərəkət edilməməsini əmr edir:

**İnfaq** – Nəfəsə verib keçindirmə, bəsləmə, Allah yolunda xərcləmək.

**İnfrasturuktur** – latın dilindən alınma söz olub *infra* — «aşağı», «alt». lat. *structura* — «quruluş», «yerləşmə, mövqe» mənalarını bildirir. Termin olaraq sosial, nəqliyyat, mühəndislik, iqtisadiyyat, hərbi və b. sahələrin mövcud olmasında iştirak edən vasitələrə verilən ümumi addır.

**İnkişaf** – İrəliyə doğru tərəqqi etmə, artma, yüksəlmə; tərəqqi, yüksəliş. İnkişaf etdirmək – 1) irəlilətmək, tərəqqi etdirmək, yüksəltmək. 2) kamilləşdirmək, təkmilləşdirmək, daha da artırmaq, daha da yaxşılaşdırmaq, möhkəmləndirmək, qüvvətləndirmək. Inkişaf etmək – 1) tərəqqi etmək, irəliləmək, artmaq, yüksəlmək, genişlənmək. 2) kamilləşmək, yetkinləşmək, artmaq. 3)

böyümək, yetişmək, möhkəmlənmək, qüvvətlənmək. İnkişaf etmiş. 1) yüksək səviyyəyə çatmış, sənaye, mədəniyyət və s. cəhətdən çox irəli getmiş, tərəqqi etmiş. İnkişaf etmiş ölkələr; 2) yetkinləşmiş, yetişmiş, kamilləşmiş, göröş dairəsi geniş, geniş məlumatlı; mədəni, hər cəhətdən yetkin. İnkişaf etmiş adam.

**İnsan** – 1. Adam, bəşər. Ruh və bədən meydana gələn ağıl sahibi varlıq.

**İnsan fəaliyyəti** – 1. İnsanın bütün sahələrdə fiziki, əqli çalışması.

**İnsan hüquqları** – Konstitusiya ilə insana verilən hüquq və səlahiyyətlər məcmusu.

**İnsan hüquqları üzrə beynəlxalq sistem** – Beynəlxalq təşkilatlar tərəfindən hüquqlarının qorunması məqsədi ilə qurulmuş sistem. Haaqadakı Beynəlxalq İnsan Haqları Məhkəməsi də bu sistemə daxildir.

**İnteqrasiya, qarşılıqlı təsir** – Əlahiddə hissələrin tamda birləşməsi haqqında sistemlər nəzəriyyəsi anlayışı və bu nəzəriyyənin obyekti olan təbii və ya ictimai proseslər.

**İrq** – Mənşə və bəzi irsi xüsusiyyətlərinə (saçlarının, dərilərinin rənginə, başlarının quruluşuna və s.) görə bir olan tarixən təşəkkül tapmış insanlar qrupu. Heyvan və bitki təsnifatını bildirmək üçün bir termin kimi də işlənir.

**İrqçilik** – *is.* "Yüksək" və "aşağı", "kamil" və "qeyri-kamil" insan irqləri olması fikrinə əsaslanan ifrat mürtəce, dinə və elmə zidd nəzəriyyə və siyasət; irqlər (xalqlar) arasında nifaq və ədavət salma.

İslam dininə görə haqqın, hüququn qaynağı İlahi iradədir. Buna görə də İslamda hüquq dini hökmlərin çıxarıldığı qaynaqlara (kitab, sünnət, icma, qiyas) istinad edən ilahi ehsanlardır. Hər hansı bir dini dəlilə istinad etməyən dini haqdan söz edilemez. Haqqın qaynağı Allahu Təaladır, çünki ondan başqa hakim yoxdur. Dini haqlarda, haqqın sahibi Allah, digər haqlarda həqiqi və ya hökmi şəxslərdir. İslam hüququna görə şəxsiyyət sağlam doğulmaq şərti ilə, uşağın ana bətninə düşdüyü andan etibarən başlayır və onu hər hansı şəkildə öldürmək cinayət yətlərə görə də müvafiq cəzalar tətbiq edilir.

İslamda müharibə intiqam almaq, öldürmək, yağmalamaq, təzyiq altına salmaq və zülm etmək üçün deyildir, əksinə bu cür halları aradan qaldırmaq üçün

edilir. İslam dini müsəlman olmayanlara zorla İslamı qəbul etdirməyə icazə vermir. Cihadda məqsəd isanları basqılardan, hücumlardan xislas etmək, qorumaq, İslamın uca həqiqətlərini onlara çatdırmaq və onların öz razılıqları ilə müsəlman ola biləcəkləri şəraiti hazırlamaqdır.

**İstehsal vasitəsi** – istehsal prosesində işlədilən, onun maddi əsasını təşkil edən vasitələr. Məsələn, torpaq, hava, su kimi.

**İş əxlaqı** – iş və işgüzar münasibətlərə dair əxlaq və davranış qaydaları.

**İşkəncə** – Vəhşi və amansız üsullarla verilən cismani əzab.

**Kainat** – 1. Bütün dünya sistemi (Yer, göy, ulduzlar və b. varlıqların məcmusu). 2. Dünya, aləm, bütün yer üzü, bütün varlıq. 2. *Mənəv.* Allahu Təalanın yaratdığı bütün varlıq aləmi – yer, göy, Günəş, Ay, ulduzlar, planetlər, qalaktikalar, sistemlər, hər şey, bütün səma.

**Kainatda baş verən proseslər** – Kainatda bizim görə bildiyimiz və görə bilmədiyimiz, bildiyimiz və bilmədiyimiz hadisələr baş verir. Bu hadisələr qanunlar çərçivəsində baş verir. Buna biz kainatda baş verən proseslər deyirik. Müasir elm kainatdakı varlıqların və onda baş verən hadisələrin yalnız 4 faizini bilir, qalan 96 faizi naməlumdur.

**Kəsici və deşici alətlər** – evdə, məişətdə, istehsalatda bir şeyi kəsmək, deşmək üçün istifadə edilən alətlərə verilən ümumi ad.

**Kilsə** – xristianların toplu halda ibadət etdiyi yer. Xristian dinində həftənin Bazar günləri iş günü hesab edilmir və həmin gün işləmək günah sayılır, camaatla ibadət edilməsi əmr edilir.

**Kitab** – 1. Üzərində hər hansı bir mətn olan vərəqlərin bir yerə toplanaraq tikilib cildlənmiş nəşriyyat növü.

**Kobud** – qaba, başqalarını incidən söz və davranış sahibi olmaq.

**Konkret situasiya** – Tam, dəqiq, aydın, müəyyən, qəti, real mövcud olan vəziyyət, hazırkı vəziyyət.

**Konstitusiya** – Bir dövlətin ictimai və dövlət qurulu şunu, seçki sistemini, dövlət orqanlarının fəaliyyət və təşkilat prinsiplərini, vətəndaşların əsas hüquq və vəzifələrin müəyyən edən əsas qanunu.

**Konstitusiyalı monarxiya** – Konstitusiya ilə idarə edilən, hakimiyyəti, idarə olunması nəsildən nəslə keçən dövlət quruluşu.

**Kurikulum** – təhsilin məzmunu, təşkili və qiymətləndirilməsi ilə bağlı bütün məsələləri özündə əks etdirən konseptual sənəddir.

**Qaba** – 1. Kobud, sərt, cod. 2. Qeyri-mədəni, ədəbsiz, nəzakətsiz, kobud; tərbiyəyə çidd.

**Qadağan edici** – hərəkət etməyə icazə verməyən yol nişanı.

**Qanun, qanunlar** – 1. İctimai və hüquqi münasibətlərin hər hansı bir sahəsini nizama salmaq üçün dövlət tərəfindən müəyyən edilən qərar, nizamnamə. 2. Hamı üçün məcburi olan üsul, nizam, qayda. 3. Obyektiv aləmin hadisələri arasında müəyyən qaydada təçahör edən zəruri əlaqə və qarşılıqlı asılılıq, səbəb və nəticə arasında mövcud olan daxili əlaqə.

**Qanunverici hakimiyyət** – Dövlətin qanun hazırlayan, qanunverici qolu, Parlament.

**Qatar** – 1. Bir-birinin ardınca sıralanmış heyvanlar düzümü; qafilə, karvan. 2. Dəmiryol vaqonları düzümü. 3. Bir qayış üzərinə düzülmüş patron sırası; patrondaş.

**Qaydalar** – 1. Nizam, səliqə; bir şeyin düzgün vəziyyəti, nizamda olması. 2. Bir şeyin yerinə yetirilməsi üçün müəyyən üsullar göstərən qərar və s. 3. Üsul, yol, tərz.

**Qazilik** – Qəza edən adam. İlayi-Kəlimətullah üçün cihada gedən, döyüşən, Allah yolunda, Allah rizası üçün mübarizə aparan müsəlman əsgərlərdən döyüşdə iştirak əsgərlərdən döyüşdən geri qayıdanlara qazi deyilir.

**Qənaətcillik** – Qənaət etmə, israfçılığa yol verməmə, hər şeyi qənaətlə işlətmə; aç bir şeylə kifayətlənmə.

**Qəza və Qədər** – Qəza və Qədər bir-birinə bağlı, həm də ayrı olan anlayışlardır. Qədər Allahın varlığın yaradılması, həyatı və ölümü də daxil olmaqla hər şeyinin ümumi planda yazılması, Qədər isə həmin yazılanların həyata keçməsidir. Məsələn, Allah biri üçün avtomaşın almağı Qədər planında yazmışdır. Həmin adamın vaxtı çatanda maşını alması Qəza olur. Lakin bir şeyi unutmamaq

lazımdır: Allah Təala insana cüzi iradə, ağıl, şüur vermişdir. Başqa sözlə, insana bu dünyada seçmək haqqı verilmişdir. İnsan o maşını alarsa, filan-filan hadisələr olacaq, almasa, filan hadisə olacaq, deyə yazı vardır. Allah sonsuz elm sahibi, Alim olduğu üçün də həmçinin o adamın iradəsindən necə istifadə edəcəyini də bilir.

**Qiybət** – (Bax: Dedi-qodu).

**Qiymət** – 1. Bir şeyin (əmtəənin) pul vahidləri ilə ifadə olunan dəyəri. 2. *Məc*. Əhəmiyyət, dəyər, rol; etibar. 3. Şagirdin, tələbənin bilik dərəcəsi haqqında verilən nömrə.

**Qiymətləndirmə standartı** – təhsil alanların nailiyyət səviyyəsinə qoyulan dövlət tələbidir.

**Təlim strategiyası** – təhsil prosesində istifadə olunan forma, metod, üsul və vasitələrin məcmusudur.

**İnteqrasiya** – müəyyən təhsil sistemi çərcivəsində şagirdlərin təfəkküründə dünyanın bütöv və bölünməz obrazını formalaşdırmaq, onları inkişaf və özünüinkişafa istiqamətləndirmək məqsədilə təlimin bütün məzmun komponentləri arasında struktur əlaqələri qurmağı və onları sistemləşdirməyi tələb edən didaktik prinsipdir. Dünyanın təhsil təcrübəsində şaquli və üfüqi olmaqla onun iki növündən istifadə edilir.

**Nəticəyönümlülük** – yeni kurikulumların hazırlanmasında nəzərə alınmış əsas prinsiplərdən biridir. Bu pirinsipin tələbinə görə müəyyən olunmuş bacarıqlardan ibarət zəruri məzmun nəticələr formasında verilir.

**Şəxsiyyətyönümlülük** – Milli Kurikulumun hazırlanması zamanı nəzərə alınmış didaktik prinsiplərdən biridir. Onun tələbinə görə, kurikulumların tərkibində olan təlim standartları, strategiyaları və qiymətləndirmə mexanizmləri şagird şəxsiyyətində idraki, hissi və psixomotor bacarıqlar əsasında yaranan keyfiyyətlərin formalaşmasına yönəlir. Çox vaxt bu keyfiyyətlər kompetensiyalar (səriştələr, qabiliyyətlər), dəyərlər və ya mədəniyyətlər terminləri ilə ifadə edilir.

**Qlobal ekoloji problemləri** – Ətraf mühitin korlanması nəticəsində dünyanın bütün dövlətlətini, xalqlarını təsiri altına salan meydana çıxmış problemlər.

**Qlobal istiləşmə** – Yer kürəsinin hər yerinə təsir edən istiləşmə prosesi.

**Qoltuqaltı ağac** – Ayaqlarını hərəkət etdirə bilməyən, ayaqlarını yerə basa bilməyən adamın qoltuğu altına yerləşdirərək onların köməyi ilə yeridiyi xüsusi ağacdan, metaldan hazırlanmış vasitə.

**Qövm** – Bir peyğəmbərə tabe və bağlı insan toplusu. Aralarında dil, adət, ənənə, mədəni birliyi olan camaat, topluluq. Millət.

**Qul edilmə** – 2. Xidmət üçün satın alınmış adam; hər cür istehsal vasitəsi və hüquqdan məhrum olan və tamamilə öz sahibinin ixtiyarında olub, bir mal kimi alınıb satılan adam; kölə.

**Qulluq** – 1. Xidmət, iş, vəzifə. 2) baxmaq, xidmət etmək, qeydinə qalaraq kömək etmək. 2. Buyuruq, əmr, tapşırıq; xahiş, iş. Qul olmuş adamın halı; köləlik.

**Qurani-Kərim** – Son vəhy dini olan İslamın müqəddəs Kitabı. Qurani-Kərim iyirmi üç il ərzində əvvəlcə Məkkədə, sonra Mədinədə Peyğəmbərimiz Həzrəti-Məhəmmədə (s.a.s.) nazil olmuş ən son Allah kəlamıdır.

**Qurum** – Qurmaq işi, quruluş.

**Ləyaqət** – 1. İnsanda yüksək mənəvi keyfiyyətləri göstərən xassələrin məcmusu, həmçinin bu xassələrin dəyərini dərk edən şəxsin özünə qarşı duyduğu ehtiram hissi. 2. Qabiliyyət, bacarıq, istedad, iqtidar.

**Maddə** – 1. Təbiətdəki fiziki cisimlərin əsasını təşkil edən şey.

**Maddənin daxili quruluşu** – Maddənin təşkil olunduğu zərrəciklərin quruluşu nəzərdə tutulur.

**Maddənin halı** (Bərk, maye, qaz) – Təşkil olunduğu zərrəciklərin bir-birinə olan məsafəsinə görə maddi varlığın halı – bərk, kristal şəklində, maye şəklində və ya qaz halında ola bilər.

**Maliyyə** – 1. Dövlətə, yaxud ayrı-ayrı şəxslərə məxsus pul vəsaiti; pul. 2. Pul işlərinin təşkili, pul dövriyyəsi və kreditlə bağlı olan.

**Materialist** – Fəlsəfi materializm tərəfdarı. Hər şeyin maddədən ibarət olduğunu, maddənin əzəli və əbədi olduğunu, Allahı inkar edən fikir cərəyanı, ideologiya.

**Materiyanın quruluşu** – Materiyanın, maddənin təşkil olunma qayda-qanunu.

Metafizik varlıqlar maddədən ibarət olmayan, bizim görə bilmədiyimiz, lakin varlığını hiss etdiyimiz, bildiyimiz varlıqlardır. Məsələn, ağıl, iradə, şüur kimi metafizik varlıqlar kimi mələklər, çinlər kimi də metafizik varlıqlar vardır.

**Metro** – elektrik enerjisi ilə hərəkət edən qatarların hərəkət etdiyi yer altında qazılmış tunel. İlk metro 1868-ci ildə İngiltərədə, London şəhərində istifadəyə verilmişdir. Bakıda ilk metro xətti 1968-ci ildə açılmışdır.

3. **Məcburetmə** – Heç kim dövlətdən kənar olması və dövlət hakimiyyətinə tabe olmaması haqqında özbaşına qərar qəbul edə bilməz, çünki dövlət mənsubiyyəti ictimai zərurətdir.

**Mədəni hüquq** – Mədəni-tərbiyə vəzifələr. Bura təhsilin, mədəniyyətin, elmin inkişaf etdirilməsi, bir sözlə, cəmiyyətin mənəvi həyatının daimi təkmilləşdirilməsi daxildir.

**Mədəniyyətlərarası (dinlərarası) dialoq** – müxtəlif dinləri təmsil edənlərin mövcud problemləri həll etmək üçün bir araya gəlməsi və problemlərin həlli üçün yollar axtarması.

**Məhkəmə hakimiyyəti** – Demokratik dövlət quruluşunda hakimiyyətin insanların, müəssisə və təşkilatların hüquqlarını qoruyan qolu.

**Məişət** – 1. Ümumi yaşayış tərzi; yaşayış, yaşama, həyat. 2. Dolanacaq, güzəran.

**Mənəvi aspekt** – əşya, hadisə və anlayışlara maddi yönü ilə deyil, mənəvi yönündən baxış, nöqteyi-nəzər.

**Mənəvi borc** – İnsanın daxilən, özünün varlığına, onda olan maddi və mənəvi hər şeyə görə əvvəlcə Allah, sonra Peyğəmbər, daha sonra Allahın verdiyi nemətlər – ardıcıllıqla valideyinləri, qohumları,əllimləri, dostları, yoldaşları,

qonşuları, kimsəsizlər, möhtaclar, tənəffüs etdiyi hava, üzərində yaşadığı torpaq, su, mənəvi olanlar – ağıl, şüur, qəlb, hər şey qarşısında borclarının məcmusu.

**Mənəvi hərəkət qüvvələri** – Buna mənəvi qüvvətlər də deyilir. İnsanı hərəkətə gətirən mənəvi güclərə ağıl, qəzəb, şəhvət, iradə və s. daxildir.

**Mənəvi hiss və duyğular** – İnsanın təmin olunduğu, heç bir yerdən ala bilməyəcəyi çox sayda hiss və duyğular, məsələn, sevgi, məhəbbət, kin, mərhəmət, nifrət, qısqanclıq, şəfqət, xəsislik, səxavət, iffət, həya və s.

**Məscid** – müsəlmanların toplu halda ibadət etdiyi yer. İslam dinində ibadətləri toplu halda icra etməyin savabının tək halda ibadət etməkdən qat-qat çox olduğu bildirilir. Cümə günləri camaatla namaz qılınması əmr edilir.

**Məsuliyyət** – Məsulun cəm halı. Məsul - 1. Üzərinə məsuliyyət qoyulan, cavabdeh olan; cavabdeh, sorğulu. Məsul olmaq – cavabdeh olmaq, üzərində məsuliyyət olmaq.

**Məzhəbçilik** – Lüğətdə getmək, izləmək, gedilən yol deməkdir. Məcazi olaraq şəxsi görüş, inanc ve doktrina mənasında da işlədilir. Termin olaraq bir müctəhidin, dinin xüsusiyyətlərin ilə əlaqədar özünə görə qayda və üsullarla formalaşdırdığı inanc, ya da hüquq sistemi mənasında işlədilir.

**Millət** – 1. İnsanların tarixən dil, ərazi, iqtisadi həyat və psixika ümumiliyi əsasında təşəkkül tapan və milli xarakterin mədəniyyətin milli özünəməxsusluğunda təzahür edən sabit birliyi. 2. Dövlət, ölkə mənasında.

**Milli kurikulum** – ölkə miqyasında təhsilin hər bir pilləsindəki fəaliyyətlərin həyata keçirilməsinə imkan yaradan və onları istiqamətləndirən konseptual sənəddir.

**Fənn kurikulumu** – fənn üzrə fəaliyyətləri istiqamətləndirən konseptual sənəddir.

**Müalicəsi çətin xəstəliklər** – müalicəsi uzun müddət davam edən, çoxlu maddi vəsait tələb edən və müalicəsi əziyyətli olan xəstəliklər.

**Müdafiə** – 1. Özünü və ya başqasını hücumdan qoruma, hücuma qarşı durma. 2. Birinin əleyhinə deyilən sözlərə cavab verməklə onun tərəfini saxlama, ona tərəf çıxma. 3. Düşməni dəf etmək üçün lazımi vasitələrin məcmusu. 4.

Tənqidə, etiraza qarşı dayanma, öz fikrində dayanma. 5. Elmi mübahisə və müzakirələrdə müəyyən nöqteyi-nəzəri, fikri isbat etmə, isbat etməyə çalışmalarinin üstündə durma, ondan dönməmə. 6. *hüq.* Məhkəmə prosesində müdafiə edən tərəf (ittiham qarşılığı). 7. *idm.* Futbol, xokkey və b. oyunlarda komandanın, meydanın müəyyən sahəsini qoru- yan, mödafiə edən hissəsi.

**Mühit** – 1. Hər hansı boşluğu dolduran və müəyyən xassələrə malik olan maddə, cisimlər. 2. İçərisində hər hansı bir orqanizmin fəaliyyəti cərəyan edən təbii və ya ictimai şəraitin məcmusu. 3. məs. Insanın yaşadığı ictimai məişət şəraiti, habelə bu şərait ümumiliyi ilə bağlı olan adamlar.

**Mükəmməllik** – Yaradılış qayəsinə görə inkif edərək/etdirlilərək ən son şəklə düşən/düşmüş.

**Mülki hüquq** – Vətəndaşların mülkə, vara aid hüquqlarını təmin edən, onların pozulmasına görə cəzaları müəyyən edən qanunvericilik.

**Mütləq monarxiya** – Hakimiyyətin atadan oğula, nəsildən nəslə keçdiyi, dövlət başçısının müstəsna hüquq və səlahiyyətlərə malik olduğu dövlət quruluşu.

**Nazirlər Kabineti** – Prezidentin ali icra orqanının rəhbəri olduğu dövlət sistemində icra hakimiyyətini təşkil edən qurum.

**Nəsil** – 1. Əcdadı bir olan qohumlar silsiləsi; soy. 2. Eyni vaxtda (dövrdə) yaşayan və bir- birinə yaxın adamlar. 3. *xüs.* Heyvan və bitki sistematikasında: ümumi əlamətlərə malik bir neçə növü birləşdirən qrup.

**Nitq** – 1. Danışma, fikrini sözlərlə ifadə etmə qabiliyyəti. 2. İclasda, yığıncaqda, mitinqdə və s.-də camaata, dinləyicilərə xitabən irad olunan söz.

**Nizamlı həyat** – İnsanın qayda-qanunla davam etdirdiyi, icazə verilənləri etdiyi, qadağan edilənləri etmədiyi, etdiklərini də vaxtlı-vaxtında edən həyat tərzi. *Mənəv.* Allahın əmr və qadağanlarına, peyğəmbərin tövsiyələrinə hərfən əməl edərək yaşanan həyat.

**Normativ hüquqi sənəd** – Nazirlik, idarə və təşkilatların iş həyatını, məişətini, münasibətlərini tənzim edən qanun hökmündə sənədlər.

**Nümayiş etdirmə** – göstərmək, izah edərək, şərh edərək göstərmək.

**Nümunə** – 1. Hər hansı bir mə- mulatın, şeyin haqqında təsəvvür yarada biləcək hissəsi, örnəyi, qismi.

**Ozon təbəqəsi** – Oksigenin dəyişilmiş şəkli olub, qövvətli oksidləşdirici və çərərsiçləşdirici xassəyə malik qaç. Yer kürəsini Günəşdən və kainatdakı başqa zəzərli şüalardan qoruyan ozon qazlarından ibarət təbəqə.

**Parlament** – Bütünlüklə və ya qismən seçilmiş nömayəndələrdən təşkil olunmuş ali qanunverici məclis.

**Parlamentli respublika** – Ölkə prezidentini və hökuməti parlament tərəfindən seçilən və parlament tərəfindən vəzifələrinə xitam verilən konstitusiyalı respublika quruluşlu ölkə.

**Pedaqoji innovasiya** – təhsil müəssisələrində, pedaqoji nəzəriyyələrdə, müəllim və şagirdlərin fəaliyyətlərində, təlim-tərbiyənin məzmununda, forma, üsul və vasitələrində, idarəetmədə, məqsəd və nəticələrdə, ümumən, pedaqoji sistemdə baş verən yeniliklərdir.

Peyğəmbərimiz Həzrəti-Məhəmməd (s.a.s) cihadı iki qrupa ayırmışdır: 1) Böyük cihad və 2) Kiçik cihad. Böyük cihad insanın öz nəfsi ilə, özündə olan mənfi xasiyyətləri aradan qaldırmaq, özünü tərbiyə etmək məqsədi ilə apardığı mübarizədir. Kiçik cihad isə əldə silah yer üzündən fitnəni qaldırmaq və haqqı ucaltmaqdır.

**Piyada keçidi** – küçədə piyadaların keçməsi üçün müəyyən edilən yol işarəsi.

**Prezidentli Respublika** – Respublika quruluşlu olub ali icraçı şəxsi prezident olan ölkə.

**Prezident-Parlamentli respublika** – Respublika quruluşlu olub ali icraçı şəxsi prezident olan ölkə. Prezidentli respublikada hökuməti Prezident təyin edir, Parlament təsdiq edir.

**Proses** – 1. Hər hansı bir hadisənin gedişi.//Müəyyən nəticə əldə etmək məqsədilə görölən ardıcıl işlərin məcmusu 2. Xəstəliyin aktiv inkişafı, gedişi. 3. *hüq.* Məhkəmədə işlərə baxılma qaydası, mühakimə üsulu.

**Rejim** – 1. Dövlət quruluşu, idarə üsulu. 2. Yaşamaq, işləmək, istirahət etmək, yemək-içmək, yatmaq və s. üçün dəqiq müəy- yən olunmuş qayda, üsul; nizam.

**Reproduktiv sağlamlıq** – insanın tam fiziki, psixoloji sosial rifahıdır. Buna yenidən hasil və xəstəliklərin yoxluğuda daxildir.

**Resurs** – ehtiyat. Təbii ehtiyatlar, əmək ehtiyatları, maddi ehtiyatlar və s.

***Resurslar***-məzmun standartlarında istifadə olunan təlim vasitələridir.

**Riayət etmək** – Müəyyən edilmiş qayda-qanuna, normalara əməl etmək.

**Sağlam ailə** – 1. *biol.* Xəstəliklərdən qorunmağı bacaran, qoruna bilən, qorunmuş ailə. 2. *Mənəv.* Əxlaqi qaydalara, tələblərə əməl edən, zərərli vərdişlərdən, haramlardan, Allahın qadağan etdiyi, Peyğəmbərin çəkindirdiyi şeylərdəm qorunan ailə.

**Sağlam həyat tərzi** – 1. *biol.* Xəstəliklərdən, zərərli vərdişlərdən qorunaraq yaşanan həyat. 2. *Mənəv.* Əxlaqi qaydalara, tələblərə əməl edərək, zərərli vərdişlərdən, haramlardan qorunaraq, Allahın qadağan etdiyi, Peyğəmbərin çəkindirdiyi şeylərdəm qorunaraq yaşanan həyat.

**Sağlamlıq** – 1. Orqanizmin sağlam vəziyyəti; bədən üzvlərinin hamısının düzgün işlədiyi, normal fəaliyyət göstərdiyi hal; gümrahlıq.

**Sanitariya** – Əhalinin sağlamlığını mühafizə etməyə və təmizliyi gözləməyə yönəldilmiş, gigiyenanın elmi tələblərinə əsaslanan tədbirlər sistemi.

**Savab** – Yaxşı bir davranışa görə Allah tərəfindən veriləcək mükafat; Allahın rizasına uyğun və axirət mükafatına layıq yaxşı iş. İslam dininə uyğun olaraq edilən yaxşı davranışlara görə Allahdan umulan mükafatların hamısı.

**Sel** – 1. Güclü yağmurlardan və ya əriyən qarlardan əmələ gəlib, qarşısına gələn nə varsa alıb aparan su daşqını; daşqın. 2. *məc.* Arası kəsilmədən hərəkət edən insan kütləsi, izdiham, axın haqqında. 3. Bir yerdən çıxan maqnit, işıq, qaz və s. kütləsi. İşıq seli. Qaz seli.

**Səbrlilik** – Əzaba, əziyyətə dözmək, çətinlik və məşəqqətlərə qarşı soyuqqanlılıqla müqavimət göstərmə, ağılın və dinin göstərdiyi yolda olmaq.

**Səcdə** – yerə dəyəcək şəkildə yerə qapanmaq və dua etmək mənasında bir termindir. Müsəlmanlar namaz qılarkən əvvəlcə ayaq üstə dayanarlar ki, buna Qiyam deyilir. Sonra bellərini əyər, dua oxuyarlar, buna Rüku deyirlər. Daha sonra da alınlarını yerə qoyaraq səcdə edərlər.

**Səciyyə** – 1. Hər hansı bir şeyin və ya hadisənin başqalarından fərqləndirən xüsusiyyəti; xarakter. 2. Xasiyyət, təbiət.

S**əciyyələndirmə** – Bir şeyin səciyyəvi xüsusiyyətlərini vermək, göstərmək. Bir şəxsin və ya şeyin fərqləndirici xüsusiyyətini təşkil etmək.

**Sədəqə** – Zəkat, Allah rizası üçün edilən yaxşılıq və ya verilen şey. Sədəqə insanın malından sırf Allah rizası üçün mühtac olanlara verilmək üçün çıxardığı bir vergi növü mənasında terminidir. Möminlərin "Mənim sizə verdiklərimdən siz də başqalarına verin" və bunun kimi Allahın başqa əmrlərinə tabe olmaqda sədaqətlərini göstərdiyi üçün zəkata "sədəqə" də deyilir.

**Səhifə** – Bizə məlum olduğuna görə Həzrəti-Adəm peyğəmbərdən başlayaraq Həzrəti-Musa peyğəmbərədək gəlmiş peyğəmbərlərə Allah tərəfindən gələn əmrlər. Bunların sayı az olduğu üçün onlara Kitab yox, Səhifə deyilir.

**Səmimiyyət** – ürəkdən, xalis, riya, göstəriş məqsədi olmayan fikir, söz və davranışlar.

**Səsvermə** – Seçki zamanı və ya bir işi, məsələni kollektiv surətdə həll etdikdə zç səsini vermə, səs vermək vasitəsilə rəyini bildirmə; səs vermək vasitəsilə seçmə və ya bir məsələni həll etmə.

**Sığınacaq, sığınaq** – Sığınılacaq yer, daldalanmağa yarar yer; daldanacaq; sığınacaq. Bombadan, mərmidən, gullədən və ya zəhərləyici maddələrdən qorunmaq üçün xüsusi surətdə düzəldilib təchiz edilmiş yer, bina və s. Bomba sığınağı.

**Sığorta** – Təbii fəlakət və bədbəxt hadisə nəticəsində zərər görmüş şəxsə və ya təşkilata xüsusi təşkilat tərəfindən müntəzəm olaraq pul vermək vasitəsilə zərərini ödəməkdən ibarət təminat vasitələrindən biri.

**Sineqoq** – yəhudilərin toplu halda ibadət etdiyi yer. Yəhudi dinində həftənin Şənbə günləri iş günü hesab edilmir və həmin gün işləmək günah sayılır, camaatla sineqoqda ibadət edilməsi əmr edilir.

**Sitayiş** – Pərəstiş, tapınma; dərin ehtiram, hörmət.

**Sitayiş etmək** – 1) ibadət etmək, pərəstiş etmək, tapınmaq, ilahiləşdirmək.

**Siyasət əxlaqı** – siyasi münasibətlərə dair əxlaq və davranış qaydaları.

**Siyasi hüquq** – 1. Siyasətlə bağlı, siyasətə aid olan, siyasəti həyata keçirməklə bağlı olan hüquq.

**Siyasi idarəetmə** – cəmiyyətin idarə edilməsini siyasi yolla, siyasi partiyalar vasitəsi ilə həyata keçirmək.

**Siyasi partiyalar** – siyasətlə məşğul olan, siyasi hakimiyyətə gəlməyi qarşısına məqsəd qoyan insan birlikləri.

**Sosial həyat** – ictimai həyat.

**Sosial hüquq** – ictimai həyata, ictimai təşkilatlara dair hüquq normaları.

**Sosial idarəetmə** – idarəetmədə ictimai təşkilatların, xalqın özünüidarə strukturlarının iştirakı ilə həyata keçirilməsi.

**Sosial qrup** – cəmiyyətin tərkibindəki müəyyən sosial struktura aid insan qrupu.

**Sosial qurumların əxlaqı** – sosial qurumlar arasında bir-birləri ilə münasibətlərə dair əxlaq və davranış qaydaları.

**Sosial müvazinət** – cəmiyyətin fərqli sinifləri və təbəqələri arasında bərabərliyin qorunması, təmin edilməsi.

**Sosial proseslər** – ictimai həyatda baş verən hadisələr.

**Sosial struktur** – ictimai quruluşun təşkil olunduğu təbəqələr, cərəyanlar.

1. Sosial vəzifələr, yəni sosial proqramın yerinə yetirilməsi.

**Suverenlik** – Suverenlik müəyyən ərazidə ali hakimmiyyəti nəzərdə tutur. Hamı üçün, hər bir təşkilat və təsisat üçün məcburi xarakter daşıyan hakimiyyət yalnız dövlətə mənsubdur.

**Şagird naliyyətləri** – bilik və bacarıqlar əsasında qazanılan dəyərlərdir.

**Şəhidlik** – Şəhid, kəlimə olaraq nəticəsi qəti olan bir xəbəri verən, bildiyini söyləyən, hazır olan, bir hadisəyə şahid olan, şahidlik edən. Dini mənada Allah rizası üçün, Onun yolunda canını fəda edən müsəlmana verilən addır. Ona bu adın verilməsinin səbəbi, cənnətlik olduğuna şahidlik edilmiş olması və ya onun Uca Allahın hüzurunda yaşamaqda olması, yaxud öldüyü zaman mələklərin hazır olması, yaxud da ruhunun birbaşa Darüs-Salamda (Cənnətdə) olması, və ya Allah tərəfindən müxtəlif mükafatlarla mükafatlandırılmış olmasıdır.

**Şəkk** – ortaq, şərik olma deməkdir. Dini mənada Allaha şərik və ortaq qoşma mənasını verir.

**Şimşək** – ildırım.

**Şirin su ehtiyatları** – İçməli su ehtiyatları, məsələn, çaylar, göllər, bulaqlar, çeşmələr, yeraltı sular.

**Şüur** – 1. Dərrakə, anlaq, düşünmə; dərk etmə, anlama qabiliyyəti. Şüuru dolaşmaq – sözünü, işini, hərəkətini bilməmək; ağlı çaşmaq. 2. Düşüncə, ağıl, fəhm. 3. İctimai həyatın insan və ya bir qrup adam tərəfindən dərk edilməsi, başa düşülməsi, anlaşılması. Siyasi şüurun artması. Vətəndaşlıq şüuru. 4. *fəls. psix.* İnsan beyninin gerçəkliyi əks etdirmə prosesi.

**Taksonomiya** – yunan sözdür (taxus-qayda ilə yerləşmə+qanun deməkdir), təlim məqsədlərinin şəbəkəli və ya sistemli təsnifatıdır. Elmi termin kimi ilk dəfə botanika və zoologiyada əmələ gəlmiş, heyvanların və bitgi orqanizmilərinin qruplara görə bölgüsü anlamında işlənmişdir. 30-cu illərdən psixologiyada istifadə olunmağa başlanmışdır.

**Fəal (interaktiv) təlim** – şagirdlərin idrak fəallığına əsaslanır, təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitinin yaradılmasını tələb edir.

**İdrak fəaliyyəti** – idrak prosesində həyata keçirilən fəaliyyətdir. Psixoloqların fikrincə, idrak fəaliyyətində bilmək, anlamaq, tətbiq etmək, təhlil etmək, sintez etmək və dəyərləndirmək əsas mərhələlər hesab olunur. Müasir təhsil konsepsiyasına görə, şagirdin təlim fəaliyyətinin psixo-pedaqoji əsasını məhz

həmin parametrlər təşkil edir. Ona görə də “hafizə məktəbi”ndən fərqli olaraq “təfəkkür məktəbi”ndə təlim stanadartları hazırlanarkən onlar əsas götürülür.

**Tarixi hadisələr** – insanın yer üzərində varlığından indiyədək baş vermiş hadisələr.

**Tayfa** – 1. Sinifli cəmiyyətdən əvvəlki dövrdə adamların qohumluq mönasibətinə, dil və ərazi ümumiliyinə əsaslanan birliyi; qövm. Köçəri tayfalar. 2. *dan.* Xalq, millət mənasında. 3. *dan.* Qohum, qəbilə, qohum-əqrəba. 4. *dan.* Ümumi bir xüsusiyyəti (əsasən ixtisası, sənəti, zehniyyəti) ilə birləşən adamlar dəstəsi, qrupu.

**Teist** – Varlıq haqqında dini dünyagörüşü, dindar, Allahı və onun təbliğ etdiklərini qəbul edən adam. Ant. Ateist.

**Temperatur** – 1. Cismin istilik dərəcəsi. Havanın temperaturu. Suyun temperaturu. 2. İnsanın sağlamlıq vəziyyətini göstərən istilik dərəcəsi.

**Təbiət** – 1. Yerdə təbii şəraitin (yerin səthi, bitki aləmi, iqlim və s.) məcmusu; üzvi və qeyri-üzvi aləm, yerdə insan, fəaliyyəti ilə yaradılmamış hər şey. 2. Şəhər və ya başqa yaşayış məntəqəsindən kənar yer və ya yerlər (meşə, dağ, çay və s.). 3. Xasiyyət, xarakter.

**Təhlükə** – 1. Qorxu törədən hal; xətər, xətərli iş. 2. Xoşagəlməz, qorxulu, ağır bir hadisənin baş vermək ehtimalı.

**Təhlükəsiz davranış** – Həyatını təhlükədən qorunmaq, sağlamlığını qorumaq üçün təhlükəsizlik qaydalarına əməl etməklə davranmaq, hərəkət etmək.

**Təhlükəsiz davranış qaydaları** – Həyati təhlükələrdən qoruna bilmək üçün müəyyən edilmiş davranış qaydaları.

**Təhsildə qiymətləndirmə sistemi** – beynəlxalq milli və məktəb səviyyələrində aparılan qiymətləndirməni əhatə edir. Orada zəruri məzmunun (qiymətləndirmə standartlarının), vasitələrin (test, sual və s.), formaların, üsulların müəyyənləşdirlməsini və onların reallaşdırılmasına aid prosedurları özündə birləşdirir.

**Tədris vahidi** – dərslikdəki mövzuların tematik qrupudur.

**Təkəbbür, kibir** – Kibir göstərmə, təkəbbürlənmə, özünü başqasına qarşı üstün görmə, inad edib həqiqəti qəbul etməmə. *Ziddi* – təvazü, təvazökar.

**Təklif** – 1. Qəbul edilmək üçün irəli sürülən fikir. 2. Başqalarının mözakirəsinə verilən məsələ, onun haqqında irəli sürülən rəy. 3. Bir işi görməyə dəvət etmə; dəvət. 4. Göstəriş, əmr. 5. Borc, vəzifə.

**Təqdimat, təqdimatlar** – Əlində olan, hazırlanmış bir sənədin, işin, məhsulun şifahi, yazılı, görüntülü, səsli və b. üsullarla tanıdılması.

**Tələb** – 1. Bir şeyi israrla, qəti şəkildə xahiş və ya təklif etmə, istəmə. 2. Qəti şəkildə ifadə olunan inadlı, təkidli xahiş, arzu, istək, təklif. 3. Bir şəxsin və ya şeyin uyğun gəlməli olduğu şərtlərin və xüsusiyyətlərin məcmusu; norma (adətən cəm şəklində). 4. Ancaq cəm şəklində: tələblər – tələbat, ehtiyac. Təlabat – cəm halda, tələb olan şeylər. 1. Tələb, tələb etmə, tələb olunan şeylər. 2. *iqt* . Bir mala, işçi qövvəsinə olan tələb.

**Təlimin məzmunu** – şəxsiyyətin formalaşmasına yönəlmiş bacarıqlar şəklində ifadə edilən təlim nəticələrinin (təlim standartlarının) məcmusudur.

**Təlim nəticəsi** – müəyyən bir mərhələdə mənimsənilməsi nəzərdə tutulan və əvvəlcədən müəyyənləşdirilmiş təlim nailiyyətlərinin konkret bir səviyyəsidir.

**Məzmun xətti** – fənn üzrə ümumi təlim nəticələrinin reallaşmasını təmin etmək üçün müəyyən olunan məzmunun zəruri hissəsidir.

**Məzmun standartı** – dövlətin təhsil alanların bilik və bacarıq səviyyəsinə qoyduğu dövlət tələbdir.

**Təmkinlilik** – Ağır başlılık, usluluk. Ölçülü hərəkət sahibi. Vüqar, izzət. İqtidar, qüdrət. Birini bir şeyə müqtədir qılmaq.

**Təntiklik** – davranışlarda səbirsizlik.

**Təsir** – 1. Əsər etmə və bunun nəticəsində əmələ gələn hal, əlamət, iz. 2. Müəyyən bir enerjinin, gücün, qövvənin özünü böruçə verməsi, göstərməsi.

**Təvazü** – alçaqkönüllü olmak deməkdir. Belələrinə təvazökar adam deyirlər.

**Təyyarə** – Hava nəqliyyatı növü.

**Ticarət əxlaqı** – ticarət məşuliyyəti ilə əlaqədar münasibətlərə dair əxlaq və davranış qaydaları.

**Tolerantlıq** – (Bax: Xoşgörü, xoşməramlıq).

**Torpaq** – 1. Planetimizin bitki aləminin inkişaf etdiyi üst qatı. 2. Birinin ixtiyarında, istifadəsində olan yer, ərazi, sahə. 3. Yer. 4. Toz-torpaq. 5. Dövlət, məmləkət, ölkə. 6. *məc*. Vətən, yurd, el.

**Torpaq sürüşməsi** – Yerin alt qatının boşalması nəticəsində üst qatının sürüşüb uçması, batması.

**Torpaqların şoranlaşması** – Torpaqda mineral duçların çoxalması və onun əkinçilik üçün yararsız hala gəlməsi.

**Tövrat** – Allahdan gələn dörd böyük kitabdan ilki. İbranicə "Tura" sözünün ərəbcələşmiş şəkli olan Tövrat qanun, ittifaq, birlik, razılaşma kimi mənaları verir.

**Tramvay** – Relslər üzərində elektrik enerjisi ilə hərəkət edən ictimai nəqliyyat növü.

**Trenajor** – İdman hərəkətlərini yerinə yetirmək, bədəni möhkəmləndirmək və şəkilləndirmək üçün istifadə edilən alət və avadanlıq.

**Troleybus** – Elektrik enerjisi ilə hərəkət edən, avtobus tipli ictimai nəqliyyat növü.

**Uyğun bacarıq** – müəyyən bir işi görmək, tapşırığı yerinə yetirə bilmək üçün insanda mövcud olan, həmin işə uyğun qabiliyyət.

**Ümumi qanunlar** – Hər kəs üçün eyni olan qaydalar məcmusu.

4. Ümumilik. Dövlət hakimiyyəti onun ərzisində yaşayan bütün adamlara aiddir.

**Ünsiyyət mədəniyyəti** – başqaları ilə düzgün ünsiyyət saxlamaq qabiliyyəti.

**Vergi** – 1. Müəssisədən, idarədən, əhalidən və s.-dən alınan məcburi dövlət rüsumu. 2. *məc.* Fövqəladə istedad, qabiliyyət.

**Vəhy** – Allah Təalanın əmrlərini və qadağanlarını peyğəmbərlərinə mələk vasitəsi ilə və ya vasitəsiz olaraq bildirməsi.

**Vəzifə** – icrası öhdəyə düşən, icrasına görə məsuliyyəti olan iş.

**Vicdan azadlığı** – *siyasi.* vətəndaşların istədikləri dinə etiqad etmək, yaxud dindən imtina etmək azadlığı.

**Yalan və iftira** – Həqiqəti gizlədib onun əksini deməsidir, olmayan, yaxud bilmədiyi bir şey haqqında bilirmişcə danışmaqdır. Yalancılıq çox çirkin bir xasiyyətdir, ruhi bir xəstəlikdir

**Yanğın köpük balonu** – yanğını söndürmək üçün içərisi köpüklə dolu olan qırmızı rəngdə, metal balon.

**Yanıq dərəcələri** – Od və ya başqa yandırıcı şeyin təsiri ilə bədən toxumasında əmələ gələn zədənin böyüklüyü və ya kiçikliyinə görə qiymətləndirilməsi.

**Yaşama** – 1. Həyatda var olmaq, diri olmaq, sağ olmaq. 2. Ömür sürmək, həyat keçirmək. 3. Davam etmək, mövcud olmaq, var olmaq. 4. Bu və ya başqa tərçdə həyat sürmək, dolanmaq, keçinmək, güzəran etmək. 5. Bir yerin sakini olmaq, daim və ya müvəqqəti bir yerdə həyat sörmək. 6. Bir yerdə həyat keçirmək, bərabər ömür sürmək.

**Yaşıllıq sahələri** – otlar, kollar, ağaclarla, meşələrlə örtülü torpaq sahəsi.

**Yol hərəkəti** – piyada və nəqliyyat vasitələrinin hərəkətini tənzim edən qaydalar.

**Yol hərəkəti qaydaları** – Piyadalar və nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətini təmin edən qaydalar məcmusu.

**Yol nişanı** – Piyada və nəqliyyat vasitələrinin hərəkətini tənzim edən işarələr.

**Yol nişanı** – Piyada və nəqliyyat vasitələrinin sürücülərini qarşıdakı təhlükələrdən, keçidlərdən, xidmət sahələrindən və s. xəbərdar edən xüsusi işarələr.

**Yoluxucu xəstəliklər** – Hava, qida, qan və s. yollarla bir adamdan başqasına keçə bilən xəstəliklər.

**Zəbur** – Allah tərəfindən Həzrəti-Dvvuda (a.s) göndərilən "Məzmurlar" və "Məzvmir" adı ilə də adlanan müqəddəs Kitab. Lüğətdə "Məzmur" "Qavalla söylənən ilahi, Həzrəti-Dvvuda enən "Zəbur"un surələrinin hər biri" mənalarını verir. Məzmur "yazılmış" mənasında kitab deməkdir.

**Zəkat** – Təmizlik, artma, bərəkət. Bir malın müəyyən bir miqdarını Allahın Qurani-Kərimdə saydığı səkkiz sinifdən birinə və ya bir neçəsinə Allah rizası üçün vermək. Termin olaraq zəkat İslamın beş şərtindin biri olan mali (mal ilə) ibadətin adıdır.

**Zəlzələ** – Yer qabığının bəzi sahələrinin vulkanik və ya tektonik proseslər üzündən güclü titrəməsi; yer sarsıntısı.

**Zor tədbiq etmək hüququ** – Dövlətin xüsusi zor orqanları vardır və qanunu nəzərdə tutduğu hallarda o onlara əl atır.

## Resurslar

- Fövqəlada hallara dair təsvirlər.
- Həyata dair əsərlər.
- Ekologiyaya aid esselər.
- Yol hərəkət qaydalarlına dair sxemlər.
- Fövqəladəya dair cədvəllər.
- Sağlam qida rejiminə dair qrafiklər.
- Fövqəladə hallara dair illüstrasiyalar.
- Dini Kitablar.
- Kinofilmlər.
- Qəzetlər.
- Jurnallar.
- Nağıl kitabları.
- Tapmacalar kitabı.
- Atalar sözləri kitabı.
- Zərbi-məsəllər kitabı.
- Yanıltmaclar kitabı.
- Maketlər.
- Yol modelləri.
- İnsan hüquqlarını qoruyan qrumların rəmzləri.
- Qaydalar haqqında kitablar.
- Nəğmələrin və müxtəlif musiqilərin audio-vizual vasitələri.
- Krossvordlar.
- Dini kitablar.
- Dini rəmzlər.
- Dini ibadətgahların şəkilləri.
- Yol hərəkəti işarələri.
- Hüquqa aid kitablar.
- İqtisadi nəzəriyyəyə aid kitablar.

- Torpaq.
- Kassa aparatı.
- Tərəzi.
- Tibbə aid kitablar.
- Tibbi ləvazimatlar.
- Əleyhqaz
- Fövqəladə hallara aid kitablar.
- Fövqəladə hallara aid maketlər.
- Fövqəladə hallara aid şəkillər.
- Tibbi ləvazimatlar.
- Fövqəlada halara aid audio-vidio vəsaitlər.

# İstifadə olunmuş ədəbiyyat


1. “Qurani-Kərim” (Tərcüməçilər: Akad. Ziya Bünyadov və prof. Vasim Məmmədəliyev.) http://www.quran.az

2. “Təhsil haqqında Azərbaycan Respublikasının qanunu”. Bakı, 2009

3. “Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları(Kurikulum)”. Kurikulum jurnal, 2010-cu il. N 3

4. “Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları” kitabı. Bakı, 2008. İnteqrativ Kurikulum. Münhen, Niderland, Cito, Yanvar, 2006.

5. Abbasov Ə. Kurikulum islahatının əsas istiqamətləri. “Azərbaycan məktəbi” jurnalı, 2011,N 4

6. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. “Kurikulum jurnalı”, 2008, №1

7. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2003

8. Azərbaycan Respublikasının Təhsil Sahəsində İslahat Proqramı, Bakı, 1999

9. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə konsepsiyası . “Azərbaycan müəllimi” qəzeti, 6 fevral, 2009-cu il

10. Əhmədov A. Ümumi təhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru. “Kurikulum jurnalı”, 2008, №1

11. Əkbərov Nazim. Mənəviyyat. (Adil Bayırlı və Ehsan Qubalı ilə birlikdə). Eksperimental dərs vəsaiti. Bakı: Qismət, 1998, 260 səh. (2000, 2002 və 2004-cü illərdə N/R nəşriyyatında təkrar nəşri)

12. Əkbərov F.. Ən böyük əxlaq. Bakı, 2004

13. Əkbərov N., Bayramlı A., Qubalı E. Mənəviyyat 1. Eksperimental dərs vəsaiti. Bakı 2004

14. Əkbərov Nazim. Ailədə və cəmiyyətdə əxlaq və davranış qaydaları. (Ümumtəhsil məktəbləri şagird və müəllimləri üçün vəsait). Bakı: Bərəkət, 2009, 78 səh.

15. Əkbərov Nazim. Məktəbdə əxlaq və davranış qaydaları. (Ümumtəhsil məktəbləri şagird və müəllimləri üçün vəsait). Bakı: Bərəkət, 2009, 78 səh.

16. Əkbərov Nazim. Mənəviyyat. (Adil Bayırlı və Ehsan Qubalı ilə birlikdə). Həzrəti-Məhəmmədin həyatı və əxlaqı. Məktəblilər üçün vəsait. Bakı: N/R nəşriyyatı, 2000, 270 səh. (2002 və 2004-cü illərdə təkrar nəşri)

17. Əkbərov Nazim. Mənəviyyat: inam və əxlaq vəhdəti. (Numan Camalov ilə birlikdə). Həzrəti-Məhəmmədin həyatı və əxlaqı. Məktəblilər üçün vəsait. Bakı: N/R nəşriyyatı, 2000, 270 səh. (2002 və 2004-cü illərdə təkrar nəşri)

18. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004

19. Əlizadə Ə. Yeni pedoqoji təfəkkür. Bakı, 2001

20. Fövqəladə Hadisələrin Təsnifatı (məlumat kitabı). Bakı, 2001

21. Həyat bacarıqları dərsliyi. (I və II hissələr). Save the Children. Gəncə, 2006

22. Həyat bilgisi dərslikləri. Bakı, 2008-2010

23. İnsan hüquqlarının tədrisi. Müəllimlər üçün proqram. Bakı, 2003

24. Kərimov F., M.Əhmədova, G.Varella və b. İnteqrativ kurrikulum: mahiyyət və nümunələr, Bakı, 2006

25. Qaralov Z. Tərbiyə. I cild. Bakı, 2003

26. Qaralov Z. Tərbiyə. II cild. Bakı, 2003

27. Qaralov Z. Tərbiyə. III cild. Bakı, 2003

28. Qəndilov R., Tağıyeva S., Qocayeva Ş.və b. Həyati bacarıqlara əsaslanan təhsil

29. Qida və sizin sağlamlığınız. Məktəblilər üçün tədris proqramı. Açıq Cəmiyyət İnstitutu. Bakı, 1999

30. Məktəbdə vətəndaş təhsili. Metodik vəsait. Norveç Qaçqınlar Şurası. 2002.

31. Mərdanov M. "Azərbaycan təhsili dünən, bu gün, sabah" Bakı, "Təhsil", 2006

32. Mərdanov M., Ağamaliyev R., Mehrabov A.. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, 2003

33. Mərdanov M., Şahbazlı F. "Azərbaycanın təhsil siyasəti (1998-2005)" I, II kitab. Bakı, "Təhsil," 2005

34. Mərdanov M. Azərbaycan təhsili inkişaf yollarında (Müəllimlərin XIII qurultayına hesabat məruzəsi), 2008

35. Müəllimlər üçün tədris vəsaiti. (X-XI siniflər). Bakı, 2006

36. Tağıyeva S. və b. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti. (V-IX siniflər). Bakı, 2006

37. Təhsil müəssələrində Riskin idarə olunması üzrə fəaliyyətin təşkili ("SESAM" plan) Bakı, 2004

38. Ümumi təhsilin dövlət standartları və kurikulum islahatı. Təhsil və Komponentin layihəsi. Yekun hesabat. Hitendra Piley, 2002

39. Veysova Z. Fəal təlim metodları. Bakı, 2007

40. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, "Təhsil", 2008, 480 səh.

41. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. Bakı, "Kövsər", 2008, 224 səh.

42. İbtidai siniflər üçün yeni fənn kurikulumlarına dair gündəlik planlaşdırma nümunələri. Bakı, "Kövsər", 2010, 196 səh.

43. Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları). Bakı, "Kurikulum" jurnalı, 2010, №3, səh. 115-130.

44. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı, "Mütərcim", 2011, 344 səh.

45. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı, "Mütərcim", 2012, 402 səh.

46. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə Konsepsiyası. Bakı, "Kurikulum" jurnalı, 2009, №2, səh. 138-150.

**Türk dilində**

1. Abant Platformu. “Din Dövlət və Cəmiyyət,” “Feza” qazetecilik, İstanbul, 2000
2. ABDULLAH Behcet, “Behçetül-Ahlak,” İstanbul, 1994
3. AKSEKİ, Ahmet Hamdi. “Ahlak Dersleri”, İstanbul, 1968
4. DELİUS, Harald. “Etik, Günümüz Felsefe Disiplinleri,” D.Özlem, İstanbul
5. İBRAHİM AŞİKİ, “Mektep Terbiyesi,” İstanbul, 2000
6. KİNDİ, “Üzüntüden Kurtulma Yolları,” (Çev. Mustafa Çağrıcı), M.Ü. İlahiyat Fakültesi Yay., İstanbul, 1998
7. MACLNTYRE, Alasdair, “Etikin Kısa Tarixi,” (Hemerik Çağdan Yirminci Yüzyıla), İstanbul, 2001
8. Sosial bilgiler dersi (5, 6, 7, 8-ci siniflər) ögretim proqramı. Ankara, 2005
9. Sosial bilgilər 5-ci sinif. İstanbul, 1991

**Rus dilində**

**2.** Алексашкина Л.Н., Боголюбов Л.Н., Ворожейкина Н.И. «Учебник стандарты школ России( государственнные общеобразовательные стандарты начального общего,основного общего и среднего(полного)общего образования).Книга первая. М. «Прометей», 1998г.

3. Стандарт среднего (полного) общего образования по истории.- «Преподавание истории в школе» №1 2005 г.
4. Смоленский Н.И. «Историческое образование и историческая теория» журнал «новая и новейшая история»№-5 2000 г.
5. Вяземский Е.Е. « Историческое образование в современной России.» Справочно-методическое пособие для учителей.М. 2002 г.

6. Крикунова Т.К.. «Практическая педагогика».М. 2001 г.
7. На пути к пониманию прошлого: поиски, версии, идеи. Книга для учителя истории. Рига, 2000 г.
8. Радугин А.А..Психология и педагогика.М., 2001 г.
9. Величко В.В., Карпиевич,Д.В., Кирилюк, «инновационные методы обучения в гражданском образовании.Минск, 2001

**İngilis dilində.**

1. Borich.G.D.Effektive teaching methods/Upper Saddle River,1996
2. NCSS Expectations of excellence: Curriculum standarts for social studies (Bulletin 89). Washington, DC, 1999
3. Devine, Thomas G. Teaching student skills,Boston,1997
4. English. The Ontario Curriculum. Grades 1-8. Ministry of Education of Ontario, 2000